**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Xüsusi gömrük proseduru – xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsi vasitəsi kimi”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**SƏFƏROV ROMAN ELDƏNİZ OĞLU**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**______________________________ imza**
**“____” ___________________ 2021-ci il.**

**“Xüsusi gömrük proseduru – xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsi vasitəsi kimi” mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı: 060401 - Dünya iqtisadiyyatı**
**İxtisaslaşma: Gömrük işi**
**Qrup: 824**

**Magistrant**
**Səfərov Roman Eldəniz**
**_______________________ imza**

**Elmi rəhbər**
**i.ü.f.d., dosent Cabbarova Kəmalə Sətdar**
**_____________________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., dos. Nəcəfova Kəmalə Akif**
**__________________________ imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**
**______________________imza**

**BAKI – 2021**

## Elmi and

Mən, Səfərov Roman Eldəniz oğlu and içirəm ki, “Xüsusi gömrük proseduru – xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsi vasitəsi kimi” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# XÜSUSİ GÖMRÜK PROSEDURU – XARİCİ İQTİSADİ FƏALİYYƏTİN GÖMRÜK TƏNZİMLƏNMƏSİ FASİTƏSİ KİMİ

## XÜLASƏ


**Tədqiqatın aktuallığı: Azərbaycan Respublikasının dünya iqtisadi sisteminə etibarlı tərəfdaş kimi inteqrasiyası onun xarici iqtisadi fəaliyyətinin optimal parametrlərinin təyin edilməsini, idxal-ixrac əməliyyatları iştirakçılarına təsir göstərmək prosesində iqtisadi siyasətin reallaşdırılmasının çoxsaylı qarşılıqlı əlaqədə olan vasitələrdən istifadə edilməsini, xarici iqtisadi fəaliyyətin tənzimlənməsi vasitəsi kimi xüsusi gömrük proseduralarından istifadənin məqsədəuyğunluğunu ön plana çəkir.**

**Tədqiqatın məqsədi: malların xüsusi gömrük prosedurlarına yerləşdirilməsi mexanizmini öyrənmək, xarici ticarət əlaqələrini tənzimləmək məqsədilə xüsusi gömrük prosedurlarının tətbiqi xüsusiyyətlərini təhlil etməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Dissertasiyada müqayisəli təhlil, analiz və sintez, statistik təhlil kimi tədqiqat üsullarından istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Dövlət Gömrük Komitəsinin, Dövlət Statistika Komitəsinin məlumatlarına, normativ aktlara, statistik məcmuələrə, yerli və xarici ədəbiyyatlara, internet resurslarına əsaslanır.**

**Tədqiqatın məhdudiyyətləri: xüsusi gömrük prosedurlarının xarici ticarət-iqtisadi əlaqələrin tənzimlənməsi vasitəsi kimi vahid hesablama metodunun olmamasıdır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Elmi yenilik kimi aşağıdakı nəzəri-praktiki nəticələr əldə edilmişdir:**

- **xüsusi gömrük prosedurlarının nəzəri əsaslarının təsvir edilməsi;**
- **xüsusi gömrük prosedurlarının xarici iqtisadi əlaqələrə təsir miqyasının qiymətləndirilməsi.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqatın nəticələri ali təhsil müəssisələrində "Gömrük işi" ixtisasları üzrə mütəxəssislərin, dövlət hakimiyyət orqanları tərəfindən xarici iqtisadi fəaliyyət strategiyasının hazırlanması zamanı istifadə oluna bilər.**



***Açar sözlər: xarici iqtisadi fəaliyyət, xarici ticarətin tənzimlənməsi, xüsusi gömrük prosedurları.***

**SPECİAL CUSTOMS PROCEDURE - AS A MEANS OF CUSTOMS REGULATİON OF FOREİGN ECONOMİC ACTİVİTY**

**SUMMARY**

**The actuality of the subject: The integration of the Republic of Azerbaijan into the world economic system as a reliable partner determines the optimal parameters of its foreign economic activity, the use of numerous interrelated means of economic policy in the process of influencing the participants of import and export operations, the expediency of using special customs procedures.**

**Purpose and tasks of the research: The purpose of the study is to study the mechanism of placement of goods under special customs procedures, to analyze the features of the application of special customs procedures in order to regulate foreign trade relations.**

**Used research methods: Research methods used: Research methods such as comparative analysis, analysis and synthesis, statistical analysis were used in the dissertation.**

**The information base of the research: The research database is based on the data of the State Customs Committee, the State Statistics Committee, normative acts, statistical collections, local and foreign literature, Internet resources.**

**Restrictions of research: Limitations of the study are the lack of a single calculation method for special customs procedures as a means of regulating foreign trade and economic relations.**

**The novelty and practical results of investigation: The following theoretical and practical results were obtained as a scientific innovation:**

**- description of the theoretical basis of special customs procedures;**

**- assessment of the impact of special customs procedures on foreign economic relations.**

**Scientific-practical significance of results: The results of the research can be used by specialists in the field of "Customs" in higher education institutions, public authorities in the development of foreign economic activity strategy.**

***Keywords: foreign economic activity, regulation of foreign trade, special customs procedures.***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **AATA** | Avropa Azad Ticarət Assosiasiyası |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **ACTOK** | Gömrük kartları ilə birbaşa bank hesabına ödəmə sistemi |
| **Aİ** | Avropa İttifaqı |
| **ARDGK** | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi |
| **ARDSK** | Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi |
| **BVF** | Beynəlxalq Valyuta Fondu |
| **ƏDV** | Əlavə Dəyər Vergisi |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **NAFTA** | Şimali Amerika Azad Ticarət Assosiasiyası |
| **ÜTT** | Ümumdünya Ticarət Təşkilatı |

MÜNDƏRİCAT

**GİRİŞ........................................................................................................ 8**

**I FƏSİL. XARİCİ İQTİSADİ FƏALİYYƏTİN TƏNZİMLƏNMƏSİ SİSTEMİNDƏ GÖMRÜK PROSEDURLARININ NƏZƏRİ - KONSEPTUAL ƏSASLARI................................................................. 13**

1.1. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin nəzəri aspektləri..................... 13

1.2. Gömrük prosedurlarının tətbiqi və təsnifatının əsas prinsipləri.................... 22

1.3. Ölkənin iqtisadi fəaliyyətinin təmin edilməsində gömrük prosedurlarının rolu........................................................................................................... 26

**II FƏSİL. ÖLKƏNİN İQTİSADİ MARAQLARININ QORUNMASINDA GÖMRÜK PROSEDURLARININ TƏTBİQİNİN MÜASİR VƏZİYYƏTİ................................................................................................. 32**

2.1. İdxal və ixrac gömrük prosedurlarının ölkənin milli iqtisadi maraqlarının qorunmasında rolu.......................................................................................... 32

2.2. Xüsusi gömrük prosedurları və onların xarici iqtisadi fəaliyyətin fəallaşmasında rolu......................................................................................... 49

**III FƏSİL. XARİCİ TİCARƏTİN TƏNZİMLƏNMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ.......................................................................................... 56**

3.1. Xarici ticarətin tənzimlənməsinin əsas istiqamətləri.................................. 56

3.2. Azərbaycan Respublikasında gömrük prosedurlarının tətbiqinin səmərəliliyinin qiymətləndirilməsi............................................................... 65

3.3. Respublikada xüsusi gömrük prosedurlarından istifadə etməklə xarici ticarət tənzimlənməsinin inzibati mexanizminin daha da təkmilləşdirilməsi məsələləri.................................................................................................... 71

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.......................................................................... 79**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT........................................................... 82**

**ƏLAVƏLƏR................................................................................................. 86**

Cədvəllərin siyahısı........................................................................................ 87

Şəkillərin siyahısı........................................................................................... 87

# GİRİŞ

**Mövzunun aktuallığı:** Müasir iqtisadi inkişaf şəraitində dövlətin funksiyaları tənzimlənmənin xüsusi mexanizmləri vasitəsi ilə həyata keçirilir ki, bu da inzibati orqanların müxtəlif metod və vasitələrdən istifadə edərək bazar subyektlərinin fəaliyyətinə müdaxiləsidir.

İqtisadiyyatın dövlət tənzimlənməsi sistemində xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi xüsusi yer tutur. Ənənəvi olaraq sərbəst ticarət sistemli dövlətlər tərəfindən bu cür tənzimlənmənin zəruriliyi Birinci Dünya Müharibəsi dövründə qəbul edildi. Bu dövrdə xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin zəruriliyi ideyası siyasi maraqlardan qaynaqlanaraq ayrı-ayrı ölkələrlə ticarətdə müəyyən məhdudiyyətlərin tətbiq edilməsindən irəli gəlirdi. Qeyd edək ki, o vaxtdan bəri xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi iqtisadi və ictimai-siyasi inkişafın müxtəlif mərhələlərində müxtəlif məqsədlərdən çıxaraq tədricən genişləndi və gücləndi.

Digər bir tərəfdən hər bir ölkənin dünya məkanındakı mövqeyinin xarici əlaqələrin xüsusiyyətlərindən asılı olması xarici iqtisadi fəaliyyətin tənzimlənməsini labüd edir. Məhz bu baxımdan qeyd etmək istərdim ki, seçdiyimiz mövzunun aktuallığı xarici iqtisadi əlaqələrin Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyasındakı rolu ilə müəyyən edilir.

XX əsrin 90-cı illərinin əvvəllərində müstəqillik əldə etmiş Azərbaycan Respublikasının beynəlxalq iqtisadi münasibətlərin tam hüquqlu subyekti kimi xarici ölkələrlə qarşılıqlı iqtisadi əlaqələrin yaradılması və inkişafını ali məqsəd olaraq qarşıya qoyması bir sıra mühüm problemlərin kompleks həllini tələb edirdi. Məhz bu nöqteyi-nəzərdən qeyd edə bilərik ki, Azərbaycan Respublikasının dünya iqtisadi sisteminə etibarlı tərəfdaş kimi inteqrasiyası onun xarici iqtisadi fəaliyyətinin optimal parametrlərinin təyin edilməsini, xarici iqtisadi fəaliyyət sahələrinə əlverişli şəraitin təmin edilməsi üçün gömrük işini günün tələblərinə cavab verə biləcək səviyyədə qurulmasını, idxal-ixrac əməliyyatları iştirakçılarına təsir göstərmək prosesində iqtisadi siyasətin reallaşdırılmasının çoxsaylı qarşılıqlı əlaqədə olan və bir-birini tamamlayan vasitələrdən istifadə edilməsini, xarici

iqtisadi fəaliyyətin tənzimlənməsi vasitəsi kimi xüsusi gömrük proseduralarından istifadənin məqsədəuyğunluğunu ön plana çəkir. Eyni zamanda, son illərdə Azərbaycan Respublikasının Avroatlantika məkanına fəal surətdə inteqrasiya olunması və Ümumdünya Ticarət Təşkilatına üzv olmağa çalışması kimi strateji vəzifələri yerinə yetirilməyə çalışıldığı bir şəraitdə xarici iqtisadi fəaliyyətin tənzimlənməsi vasitələrindən olan xüsusi gömrük prosedurlarının rolunun tədqiq edilməsi mühüm aktuallıq kəsb edir və seçdiyimiz mövzunun əhəmiyyətini sübuta yetirir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Müasir dövrdə Azərbaycan Respublikası qarşısında duran mühüm vəzifələrdən biri xarici iqtisadi əlaqələrdən milli iqtisadiyyatın yenidən qurulmasında istifadə etmək və onun səmərəliliyini artırmaqdır. Şərqlə Qərb, Şimalla Cənub arasında əlverişli geostrateji və geosiyasi məkanda yerləşməsi Azərbaycan Respublikasının xarici ticarət-iqtisadi əlaqələrinin qurulması imkanlarını artırmaqla yanaşı, ölkəmizdə müxtəlif güc mərkəzlərinin maraqlarının toqquşmasına səbəb olur. Məhz bu baxımdan qeyd edək ki, müasir iqtisadi münasibətlər fonunda ölkənin milli iqtisadi təhlükəsizliyinin təmin edilməsi, dövlətin maraq və mənafelərinin mühafizəsi nöqteyi-nəzərindən xarici iqtisadi fəaliyyətin tənzimlənməsi zəruridir (Quliyev R.Ə., 2015).

“Müasir dövrdə xarici iqtisadi fəaliyyətin tənzimlənməsi hər bir ölkənin dünya iqtisadiyyatına inteqrasiyası üçün mühüm və zəruri mexanizmlərdən biridir. Bu baxımdan ölkənin xarici iqtisadi əlaqələrinin qurulmasında xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin səmərəli metodlarının, forma və vasitələrinin seçilməsi və tətbiq edilməsi olduqca mühüm əhəmiyyət kəsb edir” (Məhərrəmov A.M., Aslanov H.H., 2008: s. 7). Bu mənada öz milli iqtisadiyyatını formalaşdırmaqda olan Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin tənzimlənməsinin doğru seçimi ölkəmizin dayanıqlı və davamlı inkişafının stimulu kimi çıxış edə bilər ki, bu istiqamətdə Azərbaycana güclü gömrük xidməti lazımdır. Başqa sözlə desək, xarici iqtisadi fəaliyyətin düzgün təşkil edilməsi məsələsində gömrük tənzimlənməsi mühüm rol oynayır. Bu nöqteyi-nəzərdən xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsi probleminin konseptual və ya nəzəri əsaslarının

öyrənilməsinə xarici və yerli alimlərin maraqları xeyli artmış və bu barədə kifayət qədər əsərlər yazılmışdır.

Qeyd edək ki, xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsi, xarici iqtisadi əlaqələr və gömrük prosedurlarının qarşılıqlı əlaqəsi və s. kimi problemlərin ümumi nəzəri məsələləri və digər problemlər müxtəlif yerli və xarici müəlliflər tərəfindən araşdırılmış və bu problemlərin ayrı-ayrı aspektləri öz əksini T.A. Puqel, P.X. Lindert, Li İfu, Li Çjoy, A.V. Danilçev, M.N. Osmov, M. Korden, A.K. Ələsgərov, Z.Ə. Səmədzadə, A.Ş. Şəkərəliyev, K.F. Heydərov, X.Ş. Kərimov, R.Ə. Quliyev və s. kimi xarici və yerli müəlliflərin əsərlərində tapmışdır. Qeyd olunan aspektlər üzrə tədqiqat işlərinin aparılmasına və elmi əsərlərin yazılmasına baxmayaraq xarici iqtisadi fəaliyyətin tənzimlənməsində xüsusi gömrük prosedurlarının bir vasitə kimi istifadəsinə elmi tədqiqat işi və magistr dissertasiyası həsr edilməmişdir. Bu nöqteyi-nəzərdən qeyd edək ki, xarici iqtisadi fəaliyyətin tənzimlənməsinə xüsusi gömrük prosedurları kontekstində baxılması magistr dissertasiyasının əsas tədqiqat obyektidir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatımızın məqsədi malların xüsusi gömrük prosedurlarına yerləşdirilməsi mexanizmini öyrənmək və hərtərəfli təhlil etmək, xarici ticarət əlaqələrini tənzimləmək üçün xüsusi gömrük prosedurlarının tətbiqi xüsusiyyətlərini təsvir etməkdir.

Magistr dissertasiyasında qarşıya qoyulmuş əsas məqsədə uyğun olaraq aşağıdakı vəzifələrin həlli nəzərdə tutulur:

1) gömrük prosedurlarına, əsasən xüsusi gömrük prosedurlarına dair nəzəri müddəaları gözdən keçirmək;

2) malların xüsusi gömrük prosedurları altında yerləşdirilməsi zamanı gömrük əməliyyatlarının aparılması xüsusiyyətlərini və qaydalarını öyrənmək;

3) xüsusi gömrük prosedurlarının Azərbaycan dövlətinin xarici iqtisadi fəaliyyətinə təsirini təhlil etmək;

4) xüsusi gömrük prosedurlarını xarici ticarətin tənzimlənməsi vasitəsi kimi tədqiq etmək;

5) xüsusi gömrük prosedurlarının tətbiqi istiqamətlərini və problemlərini müəyyənləşdirmək.

**Tədqiqatın obyekti və predmeti:** Magistr dissertasiyasının obyekti Azərbaycan Respublikası gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinə tətbiq olunan, xarici iqtisadi fəaliyyətin tənzimlənməsi vasitələrindən biri olan xüsusi gömrük prosedurlarıdır. Magistr dissertasiyasının predmeti xarici ticarət əlaqələri çərçivəsində gömrük əməliyyatları apararkən xüsusi gömrük prosedurlarının tətbiqi ilə əlaqədar sosial münasibətlərdir.

**Tədqiqat metodları:** Magistr dissertasiyasının işlənilməsi müqayisəli təhlil, ssenarilərin təhlili, analiz və sintez, pozitiv yanaşma, elmi abstraksiya və statistik təhlil kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir.

Qarşıya qoyulmuş məsələlərin həll edilməsi üçün Ms Word mətn redaktoru, Ms Exsel cədvəl redaktoru, məlumatların statistik emalı üçün İBM SpSS Advanced Statistics proqramı, Ms Visio vektor qrafik redaktoru və modelləşdirmənin digər proqram vasitələri tətbiq edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Dövlət Gömrük Komitəsinin məlumatlarına, müvafiq normativ aktlara və qanunvericilik toplusuna, bu problemlə bağlı olan təsərrüfat subyektlərinin hesabatlarına, statistik məcmuələrə, yerli və xarici iqtisadi ədəbiyyatlara, internet resurslarına və internet şəbəkəsinin ekspert-analitik icmal materiallarına əsaslanır.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqatın məhdudiyyətləri aşağıdakılardan ibarətdir:

- xüsusi gömrük prosedurlarının xarici ticarət-iqtisadi əlaqələrin tənzimlənməsi vasitəsi kimi təsirinin miqyasının qiymətləndirilməsi ilə əlaqədar vahid hesablama metodunun olmaması;
- gömrük əməliyyatlarını apararkən xüsusi gömrük prosedurlarının tətbiqi ilə bağlı sosial münasibətlərin müxtəlif modellər əsasında qiymətləndirilməsinin fərqli nəticələr verməsi.

**Tədqiqatın elmi yeniliyi** Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin tənzimlənməsi vasitələrindən biri kimi xüsusi gömrük prosedurlarının

rolunun nəzəri-konseptual cəhətdən əsaslandırlmasından ibarətdir. Elmi yenilik kimi dəyərləndirilə biləcək aşağıdakı nəzəri-praktiki nəticələr əldə edilmişdir:

- xüsusi gömrük prosedurlarının nəzəri əsaslarının təsvir edilməsi;
- xüsusi gömrük prosedurlarının müxtəlifliyi şəraitində benefisiarlar üçün bütün meyarlara görə ən uyğun prosedurun seçilməsi üzrə metodik tövsiyyələrin verilməsi;
- xüsusi gömrük prosedurlarının xarici iqtisadi fəaliyyətin tənzimlənməsindəki rolunun müəyyənləşdirilməsi;
- xüsusi gömrük prosedurlarının xarici iqtisadi əlaqələrə təsir miqyasının qiymətləndirilməsi;
- dünya markası olan xidmət ixracının (kompüter və informasiya xidmətləri ixracı) ölkə ixracında yer almasını stimullaşdırmaq üçün xüsusi gömrük prosedurlarından istifadənin təkmilləşdirilməsi.

**Nəticələrin praktik əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqat işinin nəticələrinin praktiki əhəmiyyəti xarici iqtisadi əlaqələrin formalaşması və inkişafında gömrük prosedurlarının rolunun və gömrük prosedurlarının xarici ticarət-iqtisadi əlaqələr sistemində yerinin müəyyənləşdirilməsi üzrə, dünya təsərrüfatına inteqrasiya prosesi ilə gömrük prosedurları arasındakı qarşılıqlı əlaqənin əsaslandırılması üzrə metodik tövsiyyələrin verilməsindən ibarətdir.

Tədqiqat işinin nəticələri ali təhsil müəssisələrində "Dünya iqtisadiyyatı" və "Gömrük işi" ixtisasları üzrə mütəxəssislərin hazırlanması zamanı, həmçinin Azərbaycan Respublikası dövlət hakimiyyət orqanları, Azərbaycan Respublikası subyektləri və yerli özünüidarəetmə orqanları tərəfindən xarici iqtisadi fəaliyyət və xarici ticarətin inkişaf strategiyasının hazırlanması zamanı istifadə oluna bilər. Tədqiqat işinin nəticələrinin müddəalarından "Dünya iqtisadiyyatı", "Gömrük işi", "Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi" fənlərinin metodiki təminatı və tədrisi prosesində, habelə elmi-tədqiqat işlərində istifadə oluna bilər.

# I FƏSİL. XARİCİ İQTİSADİ FƏALİYYƏTİN TƏNZİMLƏNMƏSİ SİSTEMİNDƏ GÖMRÜK PROSEDURLARININ NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI

## 1.1. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin nəzəri aspektləri

Müasir şəraitdə dövlətin iqtisadi funksiyalarının məcmusu dövlət tənzimlənməsi mexanizmi vasitəsi ilə həyata keçirilir. Bu mexanizm dövlət idarəetmə orqanlarının bazar subyektlərinin fəaliyyətinə əsasən iqtisadi tədbir və rıçaqlarla müdaxilə etdiyi hissəni əhatə edir. Dövlət tənzimləməsi bazarın disfunksiyalarının, xüsusən inhisarçılığın və onu müşayiət edən bütün mənfi hadisələrin, ilk növbədə rəqabətin məhdudlaşdırılmasına səbəb olan amillərin aradan qaldırılması məqsədilə bazar sisteminin tənzimlənməsi zərurətindən irəli gəlir.

*İqtisadiyyatın tənzimlənməsində dövlətin rolunu ön plana çıxaran ingilis iqtisadçısı C.M. Keyns "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" adlı əsərində A. Smitin formalaşdırdığı "görünməz əl" prinsipinə özünə məxsus şəkildə yanaşaraq qeyd edirdi ki, "ayrı-ayrı iqtisadi subyektlərin çiçəklənməsi heç də ölkənin bütün iqtisadiyyatının çiçəklənməsi şərti ilə identik deyildir. Dövlətin tənzimləmə rolu və funksiyaları, bu istiqamətdə yaradılan strategiya və onun tərkib hissəsi kimi çıxış edən ölkənin iqtisadi siyasəti dövlətin maraq və mənafeləri üzərində qurulmalı, xarici iqtisadi əlaqələrin tənzimlənməsində və xarici ticarətin inkişaf etdirilməsində dövlət bütün mühüm mexanizmləri öz əlində cəmləməlidir"...* (Məmmədova Ş.S., Əmiraslanova N.T., 2016: s. 15-17).

C.M. Keynsə görə, "iqtisadi həyatın real gerçəkləri dəfələrlə sübut etmişdir ki, əsasında funksional mexanizmləri çulğalaşdıran bazar iqtisadi sistemi avtomatik olaraq özü-özünü tənzimləmə xassəsinə malik deyildir. Yalnız özü-özünü tənzimləyən bazar mexanizmi ilə dövlət tənzimləyicilərinin qarşılıqlı əlaqəsi dayanıqlı inkişafı təmin edə bilər" (Məhərrəmov A.M., Aslanov H.H., 2008: s. 34).

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ölkələrin sosial-iqtisadi rifaha qovuşmasında, milli iqtisadiyyatların formalaşması və rəqabətə davamlılığının artırılmasında xarici iqtisadi əlaqələr mühüm rola malikdir. Bildiyimiz kimi, xarici

iqtisadi əlaqələrin əsasını xarici ticarət və ya həyata keçirilən xarici ticarət siyasəti təşkil edir. Xarici ticarət siyasəti isə dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissəsi olub digər ölkələrlə beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi üçün vacib bir mexanizmdir. Hər bir ölkənin, o cümlədən Azərbaycan Respublikasının xarici ticarət siyasətinin başlıca qayəsi xarici mal və xidmətlərin milli bazara daxil olmasını tənzimləyən, digər tərəfdən milli istehsalçıların məhsullarının xarici bazarlara çıxışını təmin edən siyasət həyata keçirməkdir.

Qeyd edək ki, dövlətin xarici ticarət siyasətinin sərhədləri kifayət qədər genişdir. Belə ki, məhsul mübadiləsi ilə birbaşa əlaqəli istehsal amillərinin beynəlxalq mübadiləsi, mal, xidmət və texnologiyaların tədarükü, əcnəbi işçi qüvvəsinin imkanlarından yararlanılması, xarici investisiyalardan istifadə edilməsi xarici ticarətin əhatə dairəsini əks etdirir.

Xarici malların yerli bazarlara daxil olmasının tənzimlənməsi və milli malların xarici bazarlara nüfuzunun təmin edilməsi xarici ticarət siyasəti alətlərinin köməyi ilə həyata keçirilir. Xarici ticarət siyasəti alətlərinə bu siyasəti həyata keçirmək üçün istifadə olunan iqtisadi, hüquqi, ticari, inzibati və siyasi alətlər daxildir. Xarici ticarət siyasəti hər hansı bir konkret ölkənin malların ixrac və idxalını tənzimləmək üçün istifadə etdiyi tədbir və alətlər məcmusu olan ticarət rejimində özünü biruzə verir.

Xarici ticarətin dövlət tənzimlənməsi alətləri böyük ölçüdə eyni olub dünya təcrübəsinin nəticələrinə əsaslanır. Dövlətin tətbiq etdiyi xarici ticarətin tənzimlənməsi vasitələri olduqca müxtəlifdir və bu vasitələr dövlətin iqtisadiyyata müdaxiləsini şərtləndirən çoxsaylı məqsədlərdən asılıdır (Данильцев А.В, 2001). Xarici ticarətin tənzimlənməsi vasitələrinin təsnifatı aşağıdakı istiqamətləri əhatə edir:

- Tənzimləyici tədbirlərin tətbiqetmə məqsəd və xarakterinə görə. Bura daxildir:

a) ölkənin gömrük sərhədlərini keçən mallara tənzimləyici tədbirlərin tətbiqini nəzərdə tutan alətlər;

b) milli məhsulların xarici bazarlara yeridilməsi üçün istifadə olunan alətlər;

c) daxili bazar mallarına aid edilən tədbirlərin tətbiqi üçün nəzərdə tutulan alətlər. Qeyd edək ki, bu alətlər xarici malların milli bazara daxil olma şərtlərinə təsir etmir.

- Alətlərin tətbiq edilməsi xüsusiyyətinə görə. Buraya tarif və qeyri-tarif tənzimlənməsi tədbirləri aid edilir.

- Rəqabət şərtlərinə təsir etmə xarakterinə görə. Buraya daxildir:

a) daxili bazarda xarici rəqabəti məhdudlaşdıran alətlər;

b) haqlı rəqabəti təmin etmək üçün alətlər;

c) xarici bazarlarda milli malların rəqabət qabiliyyətliliyinin yüksəldilməsini təmin edən alətlər;

ç) xarici bazarlardakı rəqabətin məhdudlaşdırılmasına səbəb olan amillərin aradan qaldırılmasına və milli malların bu bazarlara daxil olmasının və ya yeridilməsinin asanlaşdırılmasına istiqamətlənmiş alətlər.

Tənzimləmə tədbirlərinə müxtəlif tipli ticarət və iqtisadi müqavilələr çərçivəsində tətbiq olunan çoxtərəfli tədbirlər də daxildir. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üçün bir sıra ümumi və oxşar tədbirlər, metodlar, üsullar və mexanizmlərin mövcud olması bu və ya digər bir ölkənin spesifik şəraitində onların tətbiqi ardıcıllığının əhəmiyyətli dərəcədə fərqlənməsinə səbəb olur. Xarici ticarət siyasətinin həyata keçirilmə mexanizmlərindəki fərqlər sərbəst (azad) ticarət və proteksionist meyllərin üstünlüklərindən asılı olaraq çox əhəmiyyətli ola bilər.

Xarici ticarətə dövlət müdaxiləsini labüd hesab etməyən sərbəst (azad) ticarət bazar prinsipləri, tələb və təklifin qarşılıqlı təsiri əsasında inkişaf edən dövlət siyasətidir. Sərbəst ticarət modeli mahiyyət etibarilə hər hansı bir milli iqtisadi sistem daxilindəki monetarizm siyasətinə məxsusdur (Smit A., 2010). Bu model dünya bazarının avtomatik olaraq dövlət müdaxiləsi olmadan xarici ticarət əməliyyatlarının tarazlığının və qarşılıqlı faydalılığının təmini problemlərini həll edə biləcəyini güman edir. Dünya bazarı gənc müstəqil ölkələrin beynəlxalq əmək bölgüsündəki mövqeyindən istifadə edərək bu ölkələrin milli iqtisadiyyatlarının dünya iqtisadiyyatına inteqrasiyasını təmin edə bilər. Sərbəst ticarət yanaşmasına əsaslanaraq qeyd edə bilərik ki, bu yanaşmaya müvafiq olaraq xarici iqtisadi

fəaliyyətin dövlət tənzimlənməsi əsasən tarif tənzimləmə üsulları və mal axınını təşviq edən və xarici investisiyaları stimullaşdıran tədbirlər ilə həyata keçirilə bilər.

Sərbəst ticarət modeli ölkənin daxili bazarında rəqabəti təşviq etmək, müqayisəli üstünlüklərdən tam istifadə etmək, iqtisadiyyatın ixrac sektorlarında məşğulluğu artırmaq, bu sahələri modernləşdirmək və inkişaf etdirmək baxımından cəlbedicidir. Ancaq sərbəst ticarət modelinin xarici cəlbediciliyinə baxmayaraq onun yeni müstəqillik əldə etmiş ölkələrdə tətbiqi bir sıra səbəblərdən hələ də çətinliklər törədir. Belə ki, bu ölkələrin iqtisadiyyatlarında bazar prinsiplərinin tam formalaşmaması, beynəlxalq əmək bölgüsündə iştirak təcrübəsinin olmaması və ya zəif olması, mallarının rəqabət qabiliyyətinin aşağı olması və s. sərbəst ticarət modelinin reallaşdırılması prosesində çətinliklər doğurur. Əslində sərbəst ticarət siyasəti iqtisadiyyatı formalaşma mərhələsində olan ölkələrin postsənaye dünyası üçün həlledici olmayan iqtisadiyyat sahələri ilə beynəlxalq əmək bölgüsündə iştirakını nəzərdə tutur. Bu sahələrə əmək, xammal və resurs tutumlu istehsal sahələrini və s. aid etmək olar. Bir sıra inkişaf etməkdə olan ölkələrdə sərbəst ticarət modelinin tətbiqi təcrübəsi açıq şəkildə göstərdi ki, belə bir siyasətin nəticəsi "periferik" kapitalizmin yaradılmasına, milli iqtisadiyyatların digər ölkələrin inkişaf səviyyəsindən asılı vəziyyətdə olmasına səbəb olur.

Ticari maneələrin siyasi iqtisadiyyatı ayrı-ayrı istehsalçılar üçün həyata keçirilən proteksionist siyasətdən fayda əldə edənləri, eyni zamanda, digər zərər görənləri və ya itkiyə uğrayanları nəzərdən keçirir (Пугел Т.А., Линдерт П.Х., 2003). Xarici ticarət siyasətinin proteksionist variantı xarici ticarət əməliyyatlarının həcminin azalmasına təsir edən milli istehsalın qorunmasını nəzərdə tutur və dövlət tərəfindən xarici rəqiblərdən qorunan sahələrin səmərəliliyinin artırılması üçün stimulları azaldır.

Adı proteksionizmin ümumiləşdirilmiş nəzəriyyəsinin yaradıcısı kimi bilinən avstraliyalı alim Maks Kordeninin fikrincə, xarici iqtisadi əlaqələrin tənzimlənməsi aşağıda qeyd olunanları ehtiva edir:

1. birtərəfli təsir tədbirləri. Dövlət tənzimləməsi alətlərindən birtərəfli şəkildə istifadə edilməsi. Buraya digər ölkələrin analoji addımlarına qarşı atılan və ticarət

tərəfdaşları arasında siyasi gərginliyə səbəb olan müxtəlif məhsullardan rüsumların tutulması, idxal kvotaları tətbiq edilməsi və s. daxildir.

2. ikitərəfli təsir tədbirləri. Ticarət tərəfdaşları arasında qarşılıqlı razılaşma əsasında hər bir hansı ölkənin digər ölkənin iqtisadi maraqlarına toxunmadan konvension rüsumların tətbiqi.

3. çoxtərəfli təsir tədbirləri. Razılaşdırılan və tənzimlənən çoxtərəfli razılaşmalara Avropa İttifaqına üzv olan ölkələrin qarşılıqlı razılaşmaları çərçivəsində, AATA, NAFTA və digər inteqrasiya birlikləri çərçivəsində əldə edilmiş xarici ticarət siyasəti üzrə razılaşmaları aid etmək olar (Макс Корден, 1999).

Qeyd edək ki, proteksionist siyasətdən tez-tez dövlət büdcəsinin gəlirlərinin artırılması üçün istifadə olunur. Çünki gömrük rüsumlarının toplanması inkişaf etməmiş vergi sistemi şəraitində daha asandır. Proteksionist siyasət hər hansı bir ölkə tərəfindən strateji cəhətdən əhəmiyyətli hesab edilən sahələrə münasibətdə istifadə edilə bilər. Ölkənin idxaldan həddindən artıq asılılığı müvafiq sahələrdə milli təhlükəsizliyi təhlükə altına qoyur. Proteksionizm siyasətinin tərəfdarları hesab edirlər ki, dövlət milli iqtisadiyyatı makroiqtisadi nöqteyi-nəzərdən vacib olan səmərəsiz sahələrə subsidiya verməklə dəstəkləməlidir. Üstəlik, dövlət iqtisadiyyatın bütün subyektlərinin sabitliyi naminə milli iqtisadiyyatın bütün sahələrini idarə etmək məcburiyyətindədir. Bu zaman dövlət idarəetmə aparatına müxtəlif təşkilati-iqtisadi funksiyalar həvalə olunur. Nəticədə həm şaquli, həm də üfüqi olaraq iqtisadiyyatın dövlət idarəetmə sistemi formalaşır.

Dünya ölkələrinin iqtisadi təcrübəsi göstərir ki, uzun illərdən bəri iqtisadçılar arasındakı mübahisə - proteksionizm yaxşıdır, yoxsa sərbəst ticarət dilemması öz təcəssümünü praktik siyasətdə tapmışdır. Praktik siyasət proteksionizm və sərbəst ticarət elementlərinin simbiozunun, bir-birinin elementlərindən istifadə etməklə birgə mövcudluğunun nəticəsidir. Bu zaman iqtisadi inkişafın müxtəlif mərhələlərində proteksionizm və sərbəst ticarətin müəyyən elementləri üstünlük təşkil edir. Məsələn, XX əsrin 50-60-cı illərində xarici ticarət proteksionizmdən geniş miqyaslı liberallaşmaya və azad ticarət siyasətinə yan alsa da, XX əsrin 70-ci

illərindən etibarən ölkələr öz milli bazarlarını xarici rəqabətdən qorumaq üçün tarif və qeyri-tarif maneələrdən istifadə etməyə başlamışlar.

XX əsrdə sərbəst ticarət modeli inkişaf etmiş ölkələr üçün ideoloji bir işarə kimi istifadə edilmişdir. Əslində isə proteksionist tədbirlərin qoruması altında bir iqtisadi inkişaf modeli tətbiq olunurdu. Proteksionist siyasət adı altında informasiya iqtisadiyyatı, təhsil sferası, intellektual xidmətlər kimi şəxsi sənaye və postsənaye sahələrinin yaradılması istiqamətində dəstək tədbirləri genişləndirilirdi. Bu meyl müasir dövrdə qloballaşma və liberallaşma şəraitində də yeni şəkil dəyişikliyi formasında davam etməkdədir. Məsələn; "İkiqat artım modeli"nin (İxrac yönümlü və idxal əvəzetmə strategiyalarının birləşməsini hələ 1980-ci illərin ortalarında yaponiyalı alimlər İmaoko Hideka və Yanagihara Tooru "ikiqat artım modeli" kimi adlandırmışlar) həyata keçirilməsi zamanı dövlətin rolu öz şəklini dəyişdirir (Симония Н., 1999). Bunu açıq siyasət kursu aparan Çin dövlətinin təcrübəsində daha aydın görmək olar. Belə ki, bu modifikasiya dəyişikliyi özünü beynəlxalq bazarın və onun mövcud potensialının Çinin daxili inkişaf hədəflərinə ən yaxşı şəkildə xidmət etməsində biruzə vermişdir. Bu vəziyyətdə dövlətin rolu Çin istehsalının rəqabət qabiliyyətini qorumaq, xarici bazarlara nüfuz sahəsini genişləndirməkdir. Bunun üçün açıq iqtisadiyyat prinsipindən istifadə etməklə xarici iqtisadi əlaqələrin inkişafında bazar qaydalarının tətbiqi genişləndirilmiş, antiinhisar qanunvericiliyi təkmilləşdirilmiş, xarici iqtisadi fəaliyyətlə məşğul olan ayrı-ayrı iqtisadi subyektlərin bazar qaydalarına ciddi əməl etməklə müstəqilliyi artırılmışdır.

İqtisadi qloballaşmanın təsiri nəticəsində son illərdə sənayecə inkişaf etmiş ölkələrin məqsədyönlü və ardıcıl təzyiqləri nəticəsində xarici ticarətin liberallaşması meyli üstünlük təşkil etsə də, iqtisadi, siyasi və güc mərkəzləri olan dövlətlər özlərinin xarici ticarət-iqtisadi əlaqələrində proteksionist tədbirlər tətbiq etməyə üstünlük verirlər. Bu zaman dövlətin rolu ön plana çıxır və dövlət öz milli maraqlarını balanslaşdırmaq, onu xarici bazarlara ekspansiya etmək üçün iqtisadi subyektlərdən xarici iqtisadi əlaqələrin qurulması üçün çox məharətlə istifadə edirlər.

Fikrimizcə, proteksionizm hər zaman milli xarakter daşımışdır. Ticarətin liberallaşdırılması siyasəti isə dövlətlər arasında ikitərəfli və çoxtərəfli əsasda qarşılıqlı razılaşmaların nəticəsidir. Çünki hər bir ölkə mallarının, kapitallarının və xidmətlərinin xarici bazarlara daxil olmasında maraqlı olduğundan məhdudiyyətlər çox vaxt qarşılıqlı güzəştlər zamanı qaldırılır.

Nəticə etibarilə sərbəst ticarət siyasətinə bütövlükdə iqtisadiyyatın inkişafı üçün əlverişli şəraitdən ən səmərəli şəkildə istifadə vəzifəsi daha uyğundur. Proteksionizm siyasəti isə müəyyən iqtisadi problemlərin aradan qaldırılması ilə bağlı olan konkret və xüsusi tapşırıqları həll etmək üçündür.

Milli iqtisadiyyatda dövlətin iştirakının bu və ya digər səviyyədə olduğu ölkələrdə sərbəst ticarət və proteksionizmin ahəngi siyasəti xarici ticarətin tənzimlənməsi üçün istifadə olunan metodlarla və bu metodların tətbiq dərəcəsi ilə, bazar proseslərinin və bütövlükdə iqtisadiyyatın inkişaf dərəcəsi ilə xeyli fərqlənir.

Beləliklə, aparılan araşdırmalara əsaslanaraq söyləyə bilərik ki, iqtisadi inkişaf prosesində proteksionizm siyasəti ilə sərbəst ticarət arasındakı tarazlığın həyata keçirilməsində dövlətin rolu danılmazdır. Dünya praktikası nümunəsində Çin təcrübəsinə nəzər yetirdikdə, bu iki mexanizmin Çin rəhbərliyi tərəfindən xarici iqtisadi siyasətin həyata keçirilməsi və idxal əvəzetmə və ixrac yönümlü kursların qurulması prosesində uğurla istifadə edildiyini görürük (Səmədzadə Z.Ə., 2009). Fikrimizcə, Çin təcrübəsini ətraflı öyrənməklə gələcəkdə respublikamızda xarici iqtisadi siyasətin həyata keçirilməsi prosesində bu iki mexanizmin ahəngindən istifadə etmək məqsədəuyğun olardı.

“Çin möcüzəsi: inkişaf strategiyaları və iqtisadi islahatlar” kitabının müəllifləri, məşhur çinli iqtisadçılar Lin İfu, Tsai Fang və Li Zhou ticarətin liberallaşdırılması və proteksionizm siyasətinin elementlərinin Çində birgə istifadəsinin xarici iqtisadi əlaqələrin qurulması və inkişafında daha effektiv yol olduğunu əsaslandırmış, Yaponiya və “Kiçik Asiya əjdahası” ölkələri ilə müqayisədə Çin iqtisadiyyatının yüksək inkişaf səbəbinin idxal əvəzetmə və ixrac yönümlü strategiyalardan paralel istifadə edilməsi olduğunu vurğulamışlar. Çinli iqtisadçılar Lin İfu, Tsai Fang və Li Zhouya görə, HonKonq xaricində “heç kim –

nə Yaponiya, nə də "Dörd kiçik Asiya əjdahası" iqtisadi inkişaf prosesində hansı strategiya tətbiq etdiklərini dəqiq şəkildə açıqlamayaraq inkişaflarının ilkin mərhələlərində idxal əvəzetmə siyasətini tətbiq etməyə çalışırdılar". Ancaq müqayisəli üstünlükləri ilə uyğun gəlmədiyi üçün tez bir zamanda idxalı əvəzetmə siyasətindən sürətlə imtina etdilər və özlərinin müqayisəli üstünlüklərinə müvafiq olaraq iqtisadiyyatlarının ixrac yönümünü artırdılar. Lin İfu, Tsai Fang və Li Zhouya görə, Çinin iqtisadi inkişaf təcrübəsi göstərdi ki, ixrac yönümlü bir strategiyanın ardınca gedilməsi idxalı əvəzetmə siyasətindən imtina etmək deyildir. Əksinə bəzi sektorlarda bu siyasətdən istifadənin mühüm əhəmiyyəti vardır. Bu isə bu ölkələrin öz mallarını qoruması üçün idxal məhdudiyyətlərindən və tarif tədbirlərindən istifadə etməsi deməkdir (Ифу Л., Фан Ц., Чжоу Л. 2001). Yuxarıda söylədiklərimizin əyani sübutu 1993-cü ildə Dünya Bankının daxili bazarın qorunması və ixrac yönümlülüyün səmərəli birləşdirilməsini Koreya və Tayvanın inkişafının bir xüsusiyyəti olaraq qeyd etməsidir (The East Asian Miracle. World Bank, 1993).

M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin İqtisadiyyat fakültəsinin "Dəyirmi masa" iştirakçılarının birgə monoqrafiyasında "İstənilən iqtisadiyyatın həm idxal əvəzetmə strategiyalarını, həm də ixrac genişləndirmə strategiyasını özündə birləşdirdiyi kimi, hər bir konkret halda bunlardan hər hansı birinin əhəmiyyətli dərəcədə üstünlüyünün müşahidə olunduğu kimi" daha ümumi və qəti bir nəticəyə gəlinmişdir (Осмов М.Н., 2000).

Yuxarıdakı söylənənlərə əsaslanaraq tam əminliklə vurğulamaq lazımdır ki, dövlətin xarici iqtisadi siyasətin formalaşmasında və həyata keçirilməsində fəal rolu olmasa, bu strategiyaların səmərəli ahənginin təmin edilməsi, bir-birini tamamlaması və müvafiq olaraq balanslaşdırılması qətiyyən mümkün deyildir.

Qeyd edək ki, Azərbaycanda dövlətin ölkənin iqtisadi inkişafında və xarici iqtisadi əlaqələrin qurulmasındakı rolu həmişə həlledici olmuşdur. Belə ki, Azərbaycan dövləti milli iqtisadiyyat üçün strateji cəhətdən əhəmiyyətli olan, xüsusilə iqtisadi infrastrukturun yaradılması və istehsal vasitələrinin istehsalı ilə məşğul olan müəssisələr üzərində mülkiyyət hüququnu həyata keçirir. Azərbaycan

dövləti ölkənin xarici iqtisadi strategiyasını formalaşdırmaqla xarici iqtisadi əlaqələri planlaşdırır və ona nəzarət edir.

Respublikada həyata keçirilən iqtisadi islahatlar təcrübəsi göstərir ki, Azərbaycan rəhbərliyi xarici ticarət-iqtisadi əlaqələrin təşviqində, idxal əvəzetmə və ixrac yönümlü strategiyaların hazırlanmasında, onların reallaşdırılmasında, hökumət tərəfindən müəyyənləşdirilmiş hədəflərin həyata keçirilməsi prosesində müqayisəli üstünlüklər prinsipinin dinamik istifadəsində əvəzsiz rol oynayır. Nəticə etibarilə dövlət milli müqayisəli və formalaşan rəqabətçi üstünlüklərdən istifadə edərək Azərbaycan Respublikasının müasir beynəlxalq əmək bölgüsündə rolunu və yerini müəyyənləşdirir. Əslində Azərbaycan gənc bir dövlət olmasına baxmayaraq dünya iqtisadiyyatının qloballaşması, informasiyalaşdırılması və maliyyələşdirilməsi kontekstində baş verən müasir beynəlxalq əmək bölgüsünün yenidən qurulması prosesində fəal iştirak edir.

Aparılan araşdırmalara əsaslanaraq qeyd edə bilərik ki, bazar münasibətləri şəraitində dövlət ölkənin milli-iqtisadi təhlükəsizliyinin təmin olunması və ümummilli maraqların qorunması naminə xarici iqtisadi fəaliyyəti müxtəlif metodlardan istifadə edərək tənzimləməlidir.

## 1.2. Gömrük prosedurlarının tətbiqi və təsnifatının əsas prinsipləri

Dünya iqtisadiyyatına inteqrasiya şəraitində Azərbaycan Respublikasının suverenliyinin iqtisadi əsaslarının müdafiə edilməsi və milli maraqlar çərçivəsində daxili bazarın qorunması tədbiri kimi dövlət xarici iqtisadi fəaliyyəti tənzimləyir və bu zaman əsasən gömrük tənzimlənməsindən istifadə edir. Xarici iqtisadi əlaqələrin gömrük tənzimlənməsi tarif və qeyri-tarif alətləri vasitəsi ilə həyata keçirilir. Müasir dövrdə dünyada təzahür edən ticarətin liberallaşması kimi meyllər Azərbaycan Respublikasında gömrük tarif tənzimləməsini həm zəruri edir, həm də şərtləndirir.

*Xarici mal və xidmətlərin milli bazara daxil olması, eyni zamanda, milli istehsalçıların mal və xidmətlərinin xarici bazarlara çıxması Azərbaycan Respublikası gömrük sərhədindən keçirilməsi bəyan edilən gömrük prosedurunun tələblərinə uyğun olaraq icra edilməlidir. Gömrük proseduru xarici iqtisadi əlaqələrin inkişafına dövlət təsirinin həyata keçirildiyi gömrük tənzimlənməsi vasitələrinin kompleks şəkildə tətbiqinə kömək edən xüsusi tədbirlər sistemi və metodlar məcmusudur...*(Heydərov K.F., 1998: s. 94).

Gömrük proseduru Azərbaycan Respublikası gömrük qanunvericiliyinin əsas kateqoriyasıdır. Gömrük prosedurunun köməyi ilə təyinatından asılı olaraq malların gömrük sərhədindən keçirilməsi şərtləri, gömrük ərazisində və onlardan kənarda yerləşdirilməsi qaydaları, həmçinin gömrük qanunvericiliyinə görə mallardan istifadə və onlar üzərində sərəncam vermək səlahiyyəti olan şəxslərin (benefisiarın) hüquq və vəzifələri müəyyən edilir. Gömrük proseduru mahiyyət etibarı ilə inzibati məhdudiyyətlər nəzərə alınmaqla gömrük sərhədindən daşınan malların mümkün istifadəsi hədlərini müəyyənləşdirir.

Gömrük Məcəlləsinə uyğun olaraq gömrük prosedurlarının tətbiqinin əsas prinsiplərinə aid edilir:

1. Malların gömrük proseduru altında yerləşdirilməsi;
2. Gömrük prosedurunu seçmək və dəyişdirmək hüququ;
3. Gömrük prosedurları şərtlərinə riayət olunmasına gömrük nəzarəti;
4. Gömrük proseduru altında yerləşdirilmiş malların müsadirə edilməsi nəticələri (“Azərbaycan Respublikasının Gömrük Məcəlləsi”, 2020).

*Gömrük Məcəlləsinə görə, xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsi məqsədi ilə gömrük prosedurlarının aşağıdakı növləri müəyyən olunur:*

1. *sərbəst dövriyyə üçün buraxılış;*
2. *təkrar idxal;*
3. *tranzit;*
4. *gömrük anbarı;*
5. *rüsumsuz ticarət mağazası;*
6. *gömrük ərazisində emal;*
7. *gömrük nəzarəti altında emal;*
8. *müvəqqəti idxal (ixrac);*
9. *sərbəst gömrük zonası;*
10. *sərbəst anbar;*
11. *gömrük ərazisindən kənarda emal;*
12. *ixrac;*
13. *təkrar ixrac;*
14. *məhv etmə;*
15. *dövlətin xeyrinə maldan imtina...* (Heydərov K.F., İbrahimov T.T., 1999: s. 25-28).

Təhlil nəticəsində bu qənaətə gəlmək olur ki, gömrük prosedurlarının təsnifatı və məzmunu Azərbaycan Respublikası gömrük siyasətinin məqsəd və vəzifələrinə tabedir. Azərbaycan Respublikası gömrük siyasətinin həyata keçirilməsi iki qrup məqsədin yerinə yetirilməsinə yönəldilmişdir:

1. İqtisadi məqsədlər. Buraya daxildir: fiskal və tənzimləyici. Gömrük mexanizmi iqtisadiyyata tənzimləyici təsirini gömrük tarifləri, habelə qadağalar, məhdudiyyətlər, lisenziyalaşdırma, idxal və ixrac kvotaları ilə həyata keçirir.

2. Qoruyucu məqsədlər. Gömrük prosedurunun ümumi iqtisadi fəaliyyət prosesindəki rolundan və yerindən asılı olaraq onu dörd qrupa bölmək olar:

a) Birinci qrup üçün məhdudiyyətlər və müsadirələr olmadan gömrük vasitələrinin və tənzimləmə metodlarının tətbiq qaydası xasdır. İqtisadi nöqteyi-nəzərdən bu qrupun gömrük prosedurları nisbətən müstəqil və tamamlanmış ticarət əməliyyatları kimi çıxış edirlər (sərbəst dövriyyə üçün buraxılış, ixrac, beynəlxalq gömrük tranziti);

b) İkinci qrupu tənzimləmənin gömrük-hüquqi vasitələrindən daha çevik istifadəsi ilə fərqlənən və xarici iqtisadi fəaliyyət iştirakçılarının müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasının bir növ nəticəsi kimi çıxış edən iqtisadi gömrük prosedurları təşkil edir. İkinci qrupun gömrük prosedurları müəyyən iqtisadi fayda verməklə malların yalnız ciddi şəkildə müəyyən edilmiş məqsədlər üçün istifadəsinə imkan verir. Bu cür gömrük prosedurlarının tətbiqinə yalnız nəzərdə tutulan əməliyyatların həyata keçirilməsi üçün iqtisadi əsaslandırmaların mövcud olması zamanı icazə verilir. Beləliklə, iqtisadi gömrük prosedurlarının tətbiqinə icazə verilməsi məqsədli və individual xarakter daşıyır.

c) Üçüncü qrupu gömrük prosedurlarının istifadəsinin hüquqi mexanizmi təşkil edir və gömrük orqanlarına kifayət qədər mühüm səlahiyyətlərin verilməsini nəzərdə tutur. Bu ilk növbədə öz əksini gömrük orqanı tərəfindən konkret malın müəyyən edilmiş gömrük prosedurları altında yerləşdirilməsi barədə qərar verməsində tapır.

ç) Dördüncü qrup üçün benefisiarlara iqtisadi siyasət tədbirlərinin tətbiq edilməməsi şərti ilə gömrük rüsumu və vergilərindən tam və ya qismən azad edilməsi şəklində əvvəlcədən müəyyən edilmiş iqtisadi fayda və üstünlüklər təqdim edən iqtisadi gömrük prosedurları xarakterikdir.

Beləliklə, malların gömrük tənzimlənməsi məqsədi ilə dörd qrupa bölünən gömrük prosedurlarının aşağıdakı növləri müəyyənləşdirilə bilər:

1. Əsas gömrük prosedurları:

a) sərbəst dövriyyə üçün buraxılış;

b) ixrac;

c) gömrük tranziti.

2. İqtisadi gömrük prosedurları:

a) gömrük ərazisində emal;

b) gömrük ərazisindən kənarda emal;

c) daxili istehlak üçün emal;

d) müvəqqəti idxal;

e) gömrük anbarı.

3. Son gömrük prosedurları:

a) təkrar idxal;

b) təkrar ixrac;

c) məhv;

d) dövlət lehinə imtina.

4. Xüsusi gömrük prosedurları:

a) müvəqqəti ixrac;

b) rüsumsuz ticarət;

c) hərəkətli təchizat;

d) xüsusi gömrük proseduru.

Qeyd edək ki, gömrük prosedurları tarazlaşdırılmış iqtisadi siyasətdən asılı olmaqla dövlətimizin xarici iqtisadi fəaliyyətinin perspektiv inkişaf yollarının müəyyən edilməsində mühüm əhəmiyyət kəsb edir.

## 1.3. Ölkənin iqtisadi fəaliyyətinin təmin edilməsində gömrük prosedurlarının rolu

Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi qayda və qanunlarının müəyyənləşdirilməsi prosesi kimi gömrük tənzimlənməsi son nəticədə hər bir müstəqil dövlətin maraqlarına, yəni iqtisadi təhlükəsizliyi təmin etməyə və büdcəni doldurmağa xidmət edir. Məhz bu baxımdan gömrük tənzimlənməsi siyasəti ölkənin iqtisadi siyasətinin ümumi vektoru tərəfindən diktə edilir. Gömrük sahəsində dövlət maraqlarının və sahibkarlıq subyektlərinin faydalarının səmərəli müvazinəti gömrük prosedurlarının tətbiqi vasitəsilə əldə edilir.

Gömrük prosedurları gömrük hüququnun onurğa sütununu təşkil edir. Gömrük prosedurları ictimai qanunun bir növüdür və qanunvericiliklə onlara gömrük hüququnun xüsusi bir prosedur növü kimi tərif verilir. Başqa sözlə desək, gömrük prosedurları xarici iqtisadi əlaqələrin inkişafına dövlət təsirinin həyata keçirildiyi gömrük tənzimlənməsi vasitələrinin kompleks şəkildə tətbiqinə kömək edən xüsusi tədbirlər sistemi və metodlar məcmusudur.

Fikrimizcə, malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçməsi prosedurunu tənzimləyən Gömrük Məcəlləsinin prosedur normalarının qavranılmasının rahatlığı üçün "gömrük prosesi" anlayışının hüquq mühafizə kontekstində istifadə edilməsi məqsəduyğun olardı. Əsil həqiqətdə gömrük prosesinin özü yalnız malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi qaydalarını müəyyənləşdirən prosedur və istehsalları əmələ gətirir (Герасименко Ю.В., 2010).

Gömrük proseduru, həmçinin mallar və nəqliyyat vasitələrinə münasibətdə gömrük rüsumları, vergilərlə reqlamentləşməni və ya tənzimlənməni və qeyri-tarif xarakterli tədbirlərin tətbiq edilməsini nəzərdə tutur. Gömrük rüsumları ilə tənzimlənməni nəzərdə tutan gömrük prosedurları ölkə müdafiəsinin təmin edilməsi, daxili məşğulluğun artırılması zamanı istifadə edilən əsas vasitələrdən biridir. Belə ki, ölkə müdafiəsinin təmin edilməsini nəzərdə tutan gömrük prosedurları iqtisadi baxımdan çox, hərbi-siyasi nöqteyi-nəzərdən mühüm

arqumentdir. Bu zaman gömrük prosedurları ölkənin müdafiəsini təmin etmək üçün zəruri olan strateji material və malları istehsal edən sahələrin gömrük rüsumu ilə himayə olunması məqsədini güdür. “Bu ideyanın tərəfdarları göstərirlər ki, qeyri-sabit dünyada hərbi-siyasi məqsədlər iqtisadi məqsədlərdən yüksək olmalıdır. Təcrübədə bu siyasətin həyata keçirilməsi və ehtiyatların strateji sahələrin xeyrinə bölüşdürülməsi milli-iqtisadi təhlükəsizliyin təminatını yüksəldir, lakin istehsalın səmərəliliyini azaldır” (Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.Ş., 2006: s. 28). Fikrimizcə, Ermənistan kimi mənfur qonşusu olan Azərbaycan Respublikasında ölkənin müdafiəsinin təmin edilməsi üçün bu gömrük prosedurundan istifadə məqsədəuyğundur.

İqtisadi durğunluq dövründə ölkə daxilində iş yerlərinin sayının qorunub saxlanılması məqsədilə gömrük rüsumları ilə tənzimlənən gömrük prosedurlarından istifadə iqtisadi cəhətdən effektivdir. Belə ki, ölkə daxilində iş yerlərinin sayını, xüsusən istehsalın durğunluq dövründə qoruyub saxlamaq məqsədilə siyasətçilər bəzən bu və ya digər mal növlərinə rüsum qoyulmasını tələb edirlər. Bu tələb makroiqtisadi göstəricilərin təhlili nəticəsində meydana çıxır. Belə ki, məlum olduğu kimi, bəzən iqtisadiyyatda məcmu məsrəflər = istehlak xərcləri + kapital qoyuluşları + dövlət məsrəfiəri + xalis ixrac. Burada xalis ixrac ixracla idxal arasında olan müsbət fərqdir. Belə bir şəraitdə idxalın azaldılması nəticəsində məcmu məsrəflərin artması gəlirlərin və məşğuliyyətin əhəmiyyətli dərəcədə artmasına səbəb olaraq ölkənin daxili iqtisadi inkişafına müsbət təsir göstərir. Lakin bu zaman aşağıda qeyd edəcəyimiz bır sıra məsələləri də nəzərə almaq lazımdır:

*1. Hər hansı bir məhsul növü üzrə idxalın azalması məşğuliyyətin strukturuna təsir göstərsə də, onun ümumi səviyyəsini dəyişdirə bilmir, çünki məşğuliyyət bir sahədə artsa da, o biri sahədə azalır.*

*2. Məlumdur ki, bütün ölkələr idxal məhdudiyyəti qoyduqda, eyni zamanda, müvəffəqiyyət qazana bilməzlər. Bir ölkənin ixracı o biri ölkə üçün idxaldır. Ona görə də idxalın məhdudlaşdırılması ilə məşğuliyyət səviyyəsinin artırılması “qonşunu müflis etmək” siyasətidir.*

*3. Belə halda rüsumdan ziyan çəkən qonşu ölkə də cavab tədbiri görməyə məcbur olacaqdır. Bu isə ticarət hədlərinin yenidən artırılması kimi qorxulu meylin başlanmasına yol aça bilər...* (Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.Ş., 2006: s. 28-29).

Bununla yanaşı gömrük prosedurlarına gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və xüsusi gömrük prosedurları da daxildir. Digər prosedurlarla birlikdə gömrük prosedurlarının zaman üzrə hərəkəti gömrük prosesinin mərhələlərini yaradır. Gömrük prosesinin mərhələləri ardıcıl olaraq bəyannaməçinin malların daşınması (yerdəyişməsi) məqsədinə çatmasına, dövlətin bu hərəkətin qanuniliyini təmin etməsinə və büdcəni gömrük vergisi və qeyri-tarif iqtisadi tədbirlərin tətbiqi ilə doldurulmasına imkan verir.

İqtisadi gömrük rüsumları benefisiarlarına gömrük rüsumları və vergilərdən tam və ya qismən azad edilmə, iqtisadi siyasət tədbirlərindən azad olma şəklində əvvəlcədən müəyyən edilmiş iqtisadi mənfəət və üstünlüklər verilməsində xüsusi rol oynayır.

Qeyd edək ki, iqtisadi gömrük prosedurlarının məqsədi milli istehsalın inkişafına və iqtisadi artıma kömək etməkdir. Milli istehsalın inkişafına və iqtisadi artıma nail olmaq istiqamətində atılan addımlara istehsalın diversifikasiyası, iqtisadiyyatın yeni yaranmış sahələrinin müdafiəsi və dövlət gəlirlərinin qorunması tədbirlərini misal göstərmək olar.

Xarici iqtisadi fəaliyyət iştirakçıları üçün bu prosedurların tətbiqi yalnız məlum prosedurun şərtlərinə tam riayət edilməsi zamanı məqsədəuyğundur. Bu prosedurlar daxili istehlak üçün malların buraxılması ilə başa çatdıqda, potensial faydalar gömrük rüsumlarının və faizlərinin ödənilməsi üçün əlavə xərclərə çevrilir və son nəticədə müvafiq olaraq malların dəyəri üzərində öz əksini tapır.

Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi metodlarının məcmusu bəyan edilmiş gömrük prosedurlarından asılıdır:

a) xarici ticarət fəaliyyəti sahəsində gömrük rüsumlarının, vergilərinin, qadağa və məhdudiyyətlərin tətbiqi qaydası;

b) malların və nəqliyyat vasitələrinin istifadəsi və sərəncam verilməsi qaydaları;

c) malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisində və onun hüdudlarından kənarda mümkün qalma müddəti və s.

Gömrük prosedurunun bütün tələb və şərtlərindən əlavə olaraq xarici iqtisadi fəaliyyət üzvləri üçün gömrük ödənişlərinin tətbiqi məsələsi yalnız proseduru seçərkən deyil, xarici iqtisadi əməliyyatları həyata keçirərkən və tamamlayarkən müəyyənedici rol oynayır (Адыгезалов К., Абдуллаев Э., 2015). Gömrük prosedurları, həmçinin təsərrüfatların iqtisadiyyatına və son nəticədə, müəssisələrin xarici bazarlardakı rəqabət qabiliyyətinə bilavasitə təsir göstərir. Bu həm xarici ticarət fəaliyyətinin iştirakçıları, həm də gömrük orqanları tərəfindən gömrük qanunvericiliyi normalarının düzgün tətbiq edilməsinə və dolayısı ilə onların düzgün qarşılıqlı əlaqəsinə zərurət yaradır.

Azərbaycan Respublikasının iqtisadi inkişafın yenilikçi bir prinsipinə keçməsi, ölkəmizin dünya təsərrüfatına səmərəli inteqrasiyası üçün xarici iqtisadi fəaliyyətin miqyasında, xarakter və formalarında dəyişikliklərin edilməsi gömrük fəaliyyətinin təkmilləşdirilməsi və uzunmüddətli perspektivdə Azərbaycan Respublikası gömrük xidmətinin inkişafı üçün şərait yaradır.

Azərbaycan Respublikası gömrük orqanlarının inkişaf konsepsiyasının həyata keçirilməsi dövlətin gömrük sahəsində maraqlarını təmin etmək, iqtisadi təhlükəsizliyə olan təhdidlərə qarşı çıxmaq və xarici ticarətin inkişafına əlverişli şərait yaratmaq üçün əsas yaratdı. Sürətlə dəyişən xarici mühitdən və dövlətin daxili siyasətindən asılı olaraq çoxyönlü alətlərin formalaşdırılması və fəaliyyət, başqa sözlə desək, performans göstəricilərinin müəyyən edilməsi yolu ilə gələcək inkişaf təmin edilir. Bu istiqamətdə dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən yararlanmaq iqtisadi cəhətdən effektivdir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, iqtisadi inkişafı tənzimləmək üçün həm əmtəənin qiymətinə birbaşa təsir göstərən, həm də idxal-ixrac mallarının həcmini və miqdarını məhdudlaşdıran vasitələrin müxtəlif formalarından istifadə edilir. İqtisadiyyatın, xüsusilə idxal-ixrac əməliyyatlarının tənzimlənməsinin ən geniş yayılmış və mühüm vasitəsi kimi gömrük tarifləri çıxış edir. Onu da qeyd edək ki, son dövrlərdə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə gömrük tariflərinin rolunun

xeyli azalmasına baxmayaraq, iqtisadi dayaqları yenicə formalaşan gənc ölkə üçün gömrük-tarif tənzimlənməsinin müxtəlif formalarından istifadə edilməsi olduqca vacibdir.

Gömrük tarifləri idxal-ixrac əməliyyatlarının dövlət tənzimlənməsində tətbiq edilən ənənəvi tədbirlərdən biridir. Onu da qeyd edək ki, idxal rüsumları milli iqtisadiyyata himayədarlığın başlıca vasitəsidir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, əvvəllər idxal rüsumları əsasən fiskal funksiya yerinə yetirmiş və vergi daxilolmalarının xeyli hissəsini təmin etmişdir. Məsələn; XIX əsrin sonlarında ABŞ-da büdcə daxilolmalarının 50%-ə qədərini idxal rüsumları təşkil elmişdir. Müasir dövrdə bu göstərici 1,5-2% arasında tərəddüd edir.

Qeyd etmək lazımdır ki, ixrac rüsumlarından təsərrüfat təcrübəsində daha az istifadə olunur. Onların tətbiqində məqsəd dövlət büdcəsinə əlavə valyuta daxil olmalarını təmin elməkdir. İxrac vergisinin tətbiqi dünya bazarında malın qiymətini yüksəldir. Onlardan əsasən xammal mallarının ixracını məhdudlaşdırmaq üçün istifadə edilir. Bu da son nəticədə həmin malın qiymətinin qalxmasına, bununla da istehsalçıların və büdcənin gəlirinin artmasına səbəb olur. Dünyanın inkişaf etmiş ölkələrində ixrac rüsumları praktiki olaraq tətbiq edilmir. Hətta ABŞ-ın Konstitusiyası ondan istifadəni qadağan etmişdir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, iqtisadi inkişaf səviyyəsi bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən dünya dövlətləri müxtəlif məqsədlərə – yerli istehsalın müdafiəsi, məşğulluğun zəruri səviyyəsinin saxlanması, yeni rəqabət qabiliyyətli istehsal sahələrinin yaradılması və s. nail olmaq üçün bu və ya digər səviyyədə himayədarlığın həm tarif, həm də qeyri-tarif formalarından fəal istifadə edir. Odur ki, iqtisadi sisteminin bazar münasibətlərinə əsaslandığı Azərbaycanda yerli istehsalı stimullaşdırmaq və məşğulluğun səviyyəsini artırmaq, gənc istehsal sahələrini müdafiə etmək, ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək, iqtisadi inkişafı tənzimləmək üçün gömrük tariflərinin bu və ya digər formasından geniş istifadə edilməsi məqsədəuyğundur.

“Azərbaycan 2020: gələcəyə baxış” inkişaf konsepsiyası çərçivəsində Azərbaycan Respublikası gömrük xidmətinin 2020-ciylədək inkişaf strategiyası uzunmüddətli məqsəd və vəzifələrlə qarşılıqlı əlaqədə gələcək üçün gömrük xidmətinin təkmilləşdirilməsinin əsas şərtlərini və prioritetlərini müəyyənləşdirir (“Azərbaycan 2020: gələcəyə baxış” inkişaf konsepsiyası, 2012).

Azərbaycan Respublikası gömrük xidmətinin əsas strateji istinad nöqtəsi Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyət sahəsindəki iqtisadi təhlükəsizliyini təmin etmək və gömrük prosedurlarından istifadə etməklə xarici ticarətə yardım etməkdir. Azərbaycan Respublikası gömrük xidmətinin strateji məqsədi respublikanın iqtisadi təhlükəsizlik səviyyəsini artırmaq, ölkə iqtisadiyyatına xarici investisiya cəlb etmək üçün əlverişli biznes mühiti yaratmaq, gəlirlərin dövlət büdcəsinə tam daxil olmasına, yerli istehsalçıların qorunmasına, əqli mülkiyyətin mühafizə edilməsinə və gömrük idarəçiliyinin keyfiyyətinin yüksəldilməsinə əsaslanaraq xarici ticarət fəaliyyətinə maksimum kömək etməkdir (Şəkərəliyev A.Ş., Yadulla qızı Y.M., Aslanova M.M., 2016).

# II FƏSİL. ÖLKƏNİN İQTİSADİ MARAQLARININ QORUNMASINDA GÖMRÜK PROSEDURLARININ TƏTBİQİNİN MÜASİR VƏZİYYƏTİ

## 2.1. İdxal və ixrac gömrük prosedurlarının ölkənin milli iqtisadi maraqlarının qorunmasında rolu

Ölkənin milli maraqlarının təmini baxımından xarici iqtisadi fəaliyyətin düzgün təşkil edilməsi tərəqqi və inkişaf, iqtisadi böhran və sosial kataklizmlər dövrü olan XXI yüzillikdə mühüm əhəmiyyətə malikdir. Belə ki, dövlət düzgün məcrada təşkil olunmuş xarici iqtisadi fəaliyyətin köməyi ilə bir tərəfdən dünya iqtisadiyyatına inteqrasiyanı təmin edirsə, digər tərəfdən milli iqtisadi maraqlarının qorunmasına, iqtisadi təhlükəsizliyinin təmin olunmasına, ayrı-ayrı malların və xidmətlərin idxal və ixracına, o cümlədən gömrük ödənişləri hesabına dövlət büdcəsinin gəlirlərinin təmininə nail olur. Bu qayədən çıxaraq xarici iqtisadi fəaliyyətin əsasını təşkil edən xarici ticarət əməliyyatlarınının asanlaşdırılması üçün respublikamızda rəsmiləşdirilmiş gömrük bəyannamələrinin 98%-ni təşkil edən ixrac və idxal gömrük prosedurlarından istifadə olunur.

Qeyd edək ki, respublikamızın iqtisadi inkişafının hazırki mərhələsində Azərbaycan hökumətinin həyata keçirdiyi xarici iqtisadi fəaliyyət siyasətinin 2 əsas istiqamətini fərqləndirmək olar:

1. ixracın stimullaşdırılması və Azərbaycanın ixrac mallarının xarici bazarlara çıxması üçün əlverişli şəraitin təmin edilməsi;

2. xarici rəqabətin dağıdıcı təsirindən milli iqtisadiyyatın rasional müdafiəsinin təmin edilməsi və idxal gömrük rüsumlarının dərəcələrinin dəyişdirilməsi əsasında xarici investisiyaları cəlb etmək üçün əlverişli iqtisadi mühitin formalaşdırılması (Əliyev Ş.T., 2015).

Xarici iqtisadi fəaliyyət siyasətinin yuxarıda qeyd etdiyimiz istiqamətlərinin uğurla həyata keçirilməsi, bununla bağlı olaraq milli iqtisadi yüksəlişin təmini və milli maraqların qorunması respublikamızın dünya ölkələri ilə apardığı idxal-ixrac əməliyyatlarından və gömrük işinin səmərəli təşkilindən asılıdır. Respublikanın dünya ölkələri ilə apardığı idxal-ixrac əməliyyatlarını və bu yöndə tətbiq edilən

idxal və ixrac gömrük prosedurlarının ölkənin milli maraqlarının qorunmasındakı rolunu nəzərdən keçirək.

Azərbaycanın xarici ticarət əlaqələrinin mövcud vəziyyətinin müstəqilliyin ilk dövrlərindən başlayaraq həyata keçirdiyimiz təhlili göstərir ki, ölkənin Mərkəzi Bankı tərəfindən tədiyyə balansının beynəlxalq standartlara cavab verə biləcək səviyyədə tənzimlənməsində önəmli nəticələr əldə edilmədən dünya iqtisadiyyatına inteqrasiya məqsədilə xarici ticarətin vaxtından əvvəl liberallaşdırılmasındakı yol verilən tələskənlik, yerli istehsal sahələrinin tənəzzülünün qarşısını almaq, daxili bazarı və yerli istehsalı qorumaq məqsədilə 1995-ci ildə qəbul edilən "Gömrük tarifi haqqında qanun"un beynəlxalq təşkilatların – BVF və Dünya Bankının maneələri səbəbi ilə 1997-ci ildə qüvvəyə minməsi, beynəlxalq maliyyə təşkilatları ilə bağlanılacaq müqavilələrdə onlar tərəfindən göstərilən təzyiqlər nəticəsində gömrük rüsumlarının istənilən səviyyəyə qaldırıla bilməməsi respublikanın ixrac dinamikasında ötən əsrin 90-cı illəri ərzində öz izini qoymuşdur. ARDSK-nın məlumatları əsasında tərtib etdiyimiz Azərbaycan Respublikasının 1991-2019-cu illər ərzindəki ixrac dinamikasını əhatə edən cədvəli nəzərdən keçirək (cədvəl 1).

**Cədvəl 1: Azərbaycan Respublikasının 1991-2019-cu illər ərzindəki ixrac dinamikası**

| İllər | İxrac, mln. ABŞ dolları | Əvvəlki ilə nisbətən, faizlə |
|---|---|---|
| 1991 | 2.121,0 | 100,0 |
| 1992 | 1.484,0 | 70,0 |
| 1995 | 637,2 | 97,6 |
| 1998 | 606,1 | 77,6 |
| 1999 | 929,7 | 153,4 |
| 2000 | 1.745,2 | 187,7 |
| 2001 | 2.314,2 | 132,6 |
| 2005 | 4.347,2 | 120,2 |
| 2010 | 26.560,1 | 106,9 |
| 2015 | 16.592,3 | 100,1 |
| 2016 | 13.107,5 | 94,4 |
| 2017 | 15.480,5 | 92,9 |
| 2018 | 20.316,8 | 100,7 |
| 2019 | 19.471,3 | 98,0 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2020 https://www.stat.gov.az/source/trade/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Azərbaycan Respublikasının 1991-2019-cu illər ərzində ixrac dinamikasına nəzər yetirdikdə, müstəqilliyin ilk illərində mövcud olan iqtisadi əlaqələrin qırılması, istehsal olunan yerli məhsulların rəqabət qabiliyyətinin dünya bazarlarında aşağı olması və bu məhsulların keyfiyyətinin beynəlxalq standartlardan geri qalması 1992-2000-ci illər arasında ixrac dinamikasına öz təsirini göstərmişdir. Belə ki, 1994-cü ildə "Əsrin müqaviləsi" neft kontraktının imzalanması ilə Azərbaycan iqtisadiyyatında başlayan canlanma özünü ixrac dinamikasında ancaq 2001-ci ildən göstərməyə başladı.

Cədvəl 1-dən göründüyü kimi, 1991-ci ildə 2121,0 mln. ABŞ dolları dəyərində olan ixrac həcmi 1992-ci ildən başlayaraq enib-qalxma tendensiyalı düşmə ilə müşahidə olunmuşdur. Belə ki, 1991-ci illə müqayisədə ixrac həcmi 1998-ci ildə 71,4%, 1999-cu ildə 56,2%, 2000-ci ildə isə 17,7% az olmuşdur.

Cədvəl 1-ə nəzər yetirdikdə, ixracın həcmində artımın 2001-ci ildən başlayaraq özünün biruzə verdiyini görürük. Belə ki, 1991-ci illə müqayisədə ixracın həcmində 2001-ci ildə 9,1%, 2010-cu ildə 12,5 dəfə, 2019-cu ildə 9,2 dəfə artım müşahidə olunmuşdur. 2001-ci ildən başlayaraq ixrac həcmində müşahidə edilən dinamik artımın əsas səbəbi ixracda əsas payın neft və neft məhsullarının üzərinə düşməsi idi. Belə ki, neft və neft məhsullarının (təbii qazın həcmi istisna olmaqla) ixrac həcmindəki payı 2016-cı ildə 75,6%, 2017-ci ildə 80,0%, 2018-ci ildə 83,5%, 2019-cu ildə 77,8%, 2020-ci ilin 4 ayı ərzində isə 78,2% olmuşdur. Burada bir parantez açaraq qeyd etmək istəyirəm ki, Azərbaycan hökuməti tərəfindən qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində neft və neft məhsullarının ixrac həcmində 2008-ci ildəki 96,8%-lik payı 2019-cu ildə 19% azalaraq 77,8% olmuşdur (şəkil 1).

Qeyd edək ki, qeyri-neft sektorunun ixrac həcmində 2008-ci ildəki 3,1%-lik payının 2019-cu ildə 7,04% artaraq 10,14% olmasına baxmayaraq Azərbaycanda ixrac edilən məhsulların strukturunda neft və neft məhsullarının payının hələ də üstünlük təşkil etməsi milli iqtisadiyyatı neft qiymətlərindən asılı hala gətirmişdir. BVF-nin müəyyən etdiyi normaya əsasən təbii resurslarla zəngin ölkələrdə büdcə gəlirlərinin 25%-dən çoxu resursların satışından formalaşırsa, həmin ölkələrin

büdcələri təbii resurslardan asılı hesab olunur. Qeyd olunan bu hal ölkəmizin iqtisadi təhlükəsizliyi üçün böyük təhdiddir.

**Şəkil 1: 2019-cu ildə Azərbaycan Respublikasında ixrac əməliyyatlarında əsas mallar**




**Mənbə:** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, 2019 (www.customs.gov.az) https://customs.gov.az/modules/pdf/pdffolder/81/FILE_549E2B-B2A234-E8D932-E659F1-A8509C-0096D2.pdf məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Neft və neft məhsullarının ixrac strukturundakı payının yüksək olmasının respublikanın milli-iqtisadi təhlükəsizliyi üçün törətdiyi digər bir təhdidin 1998-

2014-cü illər ərzində 1 ABŞ dollarının qarşılığının orta hesabla 0,77-0,86 manat intervalında dəyişməsi ilə ixrac gəlirlərinin azalması, idxalın stimullaşması nəticəsində idxal həcminin artması hallarının müşahidə olunmasıdır. Manatın dollara nisbətdə dəyər qazanması ixrac yönümlü istehsalla məşğul olan yerli firmaların xarici bazarlarda rəqabət aparmalarını çətinləşdirir, yerli firmaları daxili bazarda aşağı qiymətli xarici mallarla rəqabət etmək məcburiyyəti qarşısında qoyur, xarici turistlərin ölkəyə gəlişini bahalaşdırır ki, bu da son nəticədə qeyri-neft sektorunun inkişafına mənfi təsir göstərirdi (C. Bulut, N. Kamalov, 2003).

Şəkil 1-ə əsasən 2019-cu il üzrə Azərbaycan Respublikasında əsas məhsulların ixracda payını müəyyən etdikdən sonra həmin məlumatlar əsasında iqtisadçı Orris Herfindahlın adı ilə bağlı olan indeksi hesablayaq. Bu indeks ayrıca götürülmüş əmtəələrin və ya sektorların ümumi ixracda payına əsasən ixracın təmərküzləşmə səviyyəsini əks etdirir. İxracın əsas məhsulları üzrə konsentrasiya səviyyəsini müəyyən edən indeks 0 və 1 arasında dəyişir, 0-a yaxınlıq ixracın maksimum diversifikasiya olunduğunu (yaxşı halı), 1-ə yaxınlıq iqisadiyyatın şaxələnmədiyini (pis halı), başqa sözlə desək, bir və bir neçə sahədən asılı olduğunu göstərir. Herfindahl indeksi aşağıdakı formul əsasında hesablanır:

$$H = \sum_{i=1}^{N} S_i^2$$

Burada, $S_i$ - konkret götürülmüş sahənin ixracdakı payını;

$N$ - isə götürülmüş sahələrin sayını əks etdirir.

Qeyd edək ki, Azərbaycan Respublikasında ixracın əsas məhsulları üzrə konsentrasiya səviyyəsini müəyyən etmək üçün hesablanan Herfindahl indeksi 2008-ci ildə ən yüksək həddə – 0,858 səviyyədə olmuşdursa, 2019-cu ildə tərəfimizdən hesablanan bu indeks – 0,703 səviyyəsində olmuşdur. Aparılan hesablama əsasında 2008-ci illə müqayisədə 2019-cu ildə Herfindahl indeksinin 0-a yaxınlaşması (0,155 punkt) respublikanın ixrac strukturundakı bir və ya bir neçə sahədən asılılığı mənfi meylinin tədricən müsbətə doğru dəyişdiyini göstərir.

Digər bir tərəfdən respublikada milli iqtisadiyyatın müdafiəsi və milli maraqların qorunması çərçivəsində ixrac gömrük prosedurlarının sadələşdirilməsi, gömrük rəsmiləşdirilməsinə sərf edilən müddətin qısaldılması, gömrük ödənişlərinin ödənilməsində "ACTOK" sisteminə keçilməsi, ötən dövr ərzində Azərbaycanda iqtisadiyyatın və ixracın şaxələndirilməsinə təsir göstərə biləcək 20-dən artıq qanunun qəbul edilməsi, birbaşa və portfel investisiyaların cəlb olunmasının stimullaşdırılması ixrac əməliyyatlarının həcminin artması və bu əməliyyatların coğrafiyasının genişlənməsi və s. kimi müsbət meyllərin meydana gəlməsinə səbəb olmuşdur (cədvəl 2).

**Cədvəl 2: 2016-2019-cu illərdə Azərbaycan Respublikasının ixrac əməliyyatlarının həcmi**

| Göstəricilər | Məbləğ (mln. ABŞ dolları) | | | |
|---|---|---|---|---|
| | 2016 | 2017 | 2018 | 2019 |
| İxrac əməliyyatları üzrə | 9143,3 | 13811,6 | 19458,6 | 19635,6 |
| İxrac olunan malların çeşidlərinin sayı, ədəd | 2921 | 3179 | 3088 | 3124 |
| Dövlət sektoru | 7217,9 | 8832,6 | 13501,9 | 11978,8 |
| Özəl sektor | 1661,1 | 4801,8 | 5868,3 | 7597,3 |
| Fiziki şəxslər | 264,3 | 177,2 | 88,5 | 59,6 |
| MDB ölkələri | 663,6 | 1050,1 | 1138,2 | 1178,4 |
| Aİ ölkələri | 3951,6 | 7452,3 | 10579,0 | 10499,2 |
| Digər ölkələr | 4528, | 5309,2 | 7741,4 | 7957,9 |
| İxrac əməliyyatlarının həcminin: | | | | |
| -yüksək həddi | 1353,3 (avqust) | 1382,2 (avqust) | 2296,8 (aprel) | 2605,4 (aprel) |
| -aşağı həddi | 536,440 (mart) | 910,7 (oktyabr) | 1038,7 (yanvar) | 1252,2 (avqust) |
| -orta aylıq artımı (+;-) | 17,1 | - 3,9 | 45,6 | 4,8 |
| Qeyri-neft sektoru üzrə ixracın həcmi | - | 1538,4 | 1689,2 | 1954,4 |
| Humanitar yük, təmənnasız kömək və texniki yardım | 0,143 | 0,466 | 0,131 | 0,967 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, 2016, 2017, 2018, 2019 (www.customs.gov.az) https://customs.gov.az/modules/pdf/pdffolder/84/FILE_771F1F-FD7891-5B3E7B-48A877-2C2E2A-E85F51.pdf məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Cədvəl 2-nin nəticələrini təhlil edərkən ixrac əməliyyatlarının həcminin 2016-cı illə müqayisədə 2017-ci ildə 33,8%, 2018-ci ildə 53%, 2019-cu ildə 53,4% artdığını görürük. Burada parantez açaraq bir faktı qeyd edək ki, respublikamızda sahibkarlıq fəaliyyətinin inkişafına göstərilən dövlət dəstəyini nəticəsində özəl

sektorun ixrac əməliyyatlarındakı xüsusi çəkisi artmaqdadır. Belə ki, əgər 2016-cı ildə özəl sektorun ixrac əməliyyatlarındakı xüsusi çəkisi 18,2% olmuşdursa, 2019-cu ildə özəl sektorun ixrac əməliyyatlarındakı payı 20,5% artaraq 38,7% olmuşdur. Bu da onu göstərir ki, 2016-cı illə müqayisədə 2019-cu ildə özəl sektorun ixrac əməliyyatlarındakı xüsusi çəkisi 2,1 dəfədən çox artmışdır. Burada bir faktı unutmaq olmaz ki, özəl sektorun ixrac əməliyyatlarındakı payının müqayisə edildiyi dövrlərdə, yəni müqayisə edilən 2016 və 2019-cu illərdə ixrac əməliyyatlarının həcmi 53,4% artmışdır. Burada bir nüansı da qeyd lazımdır ki, özəl sektor ixrac əməliyyatlarında əsasən qeyri-neft sektoru məhsulları ilə iştirak edir. Belə ki, cədvəl 2-nin məlumatlarına diqqətlə baxsaq, respublikamızda qeyri-neft sektorunun formalaşması və inkişafı istiqamətində atılan addımların real nəticələrini açıq-aydın görə bilərik. Cədvəldən göründüyü kimi, ixrac əməliyyatlarının ümumi həcmində qeyri-neft sektorunun xüsusi çəkisi 2017-ci ildə 11,1%, 2018-ci ildə 8,7%, 2019-cu ildə 10% olmuşdur. Orta hesabla qeyri-neft sektorunun ixrac əməliyyatlarının ümumi həcmində xüsusi çəkisi təqribən 10%-dir. Halbuki bu göstərici 2008-ci ildə 3,1% olmuşdur.

Cədvəl 2-də əks olunan Azərbaycan Respublikasının 2016-2019-cu illər ərzindəki ixrac əməliyyatlarının mövcud vəziyyətinə baxdıqda, Azərbaycan mallarının son illər ərzində əsasən Aİ ölkələri bazarlarına ixrac olunduğunun şahidi oluruq və cədvəl 2-dəki rəqəmlər də qeyd etdiklərimizi sübut edir. Belə ki, Aİ ölkələrinə ixrac edilən məhsulların həcmi ümumi ixrac həcminin 2016-cı ildə 43,2%, 2017-ci ildə 54%, 2018-ci ildə 54,4%, 2019-cu ildə isə 53,5% təşkil etmişdir. Bu rəqəmlər Azərbaycan məhsullarının rəqabət qabiliyyətinin artmasının və Aİ ölkələri bazarında özünə yer tapa bilməsinin bariz nümunəsidir. Aİ ölkələrinə ixrac edilən məhsulların həcminin ümumi ixrac həcmindəki xüsusi çəkisinə baxdıqda, 2016-cı illə müqayisədə 2019-cu ildə bu göstərici 10,3% artaraq 53,5% olmuşdur. MDB və digər ölkələr qrupu ölkələrinə ixrac edilən məhsulların ümumi ixrac həcmindəki xüsusi çəkisinə diqqət etdikdə, MDB ölkələrinin ixrac əməliyyatlarındakı xüsusi çəkisi 2016-ci ildə 7,3%, 2017-ci ildə 7,6%, 2018-ci ildə 5,8%, 2019-cu ildə isə 6% olmuşdur. Qeyd etdiyimiz rəqəmlərdən göründüyü

kimi, MDB ölkələrinin ixrac əməliyyatlarındakı xüsusi çəkisində 2016-ci illə müqayisədə 2019-cu ildə 1,3% azalma müşahidə olunur. Həmçinin digər ölkələr qrupuna daxil olan ölkələrin ixrac əməliyyatlarındakı xüsusi çəkisində də 2016-ci illə müqayisədə 2019-cu ildə 9% azalma görülməkdədir. Burada parantez açaraq qeyd etmək lazımdır ki, respublikanın ixrac əməliyyatlarının mövcud vəziyyətini təhlil edərkən ölkələr üzrə ixrac əməliyyatlarının durumuna diqqət etmək lazımdır (şəkil 2).

**Şəkil 2: 2019-cu ildə Azərbaycan Respublikasının ixrac əməliyyatlarında əsas ölkələr**




**Mənbə:** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, 2019 (www.customs.gov.az) https://customs.gov.az/modules/pdf/pdffolder/84/FILE_771F1F-FD7891-5B3E7B-48A877-2C2E2A-E85F51.pdf məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Şəkil 2-ə nəzər yetridikdə, cədvəl 2-də öz əksini tapmış mənzərədən fərqli mənzərənin şahidi oluruq. Belə ki, respublikamızın ölkələr üzrə ixrac əməliyyatlarında Türkiyə (14,58%), İsrail (6,78%), Hindistan (4,87%), Çin

(3,83%) və Gürcüstan (2,99%) kimi ilk onluğa daxil olan, lakın Avropa İttifaqı və MDB ölkələri qrupuna aid olmayan ölkələri görürük ki, bu 5 ölkənin payına ümumi ixrac əməliyyatlarının 1/3 hissəsi (33,1%) düşür.

Azərbaycanın xarici ticarət əlaqələrinin ixrac strukturunun mövcud vəziyyətinin təhlili nəticəsində gəldiyimiz fikrimizi belə ifadə edə bilərik ki, respublikamızın xarici ticarət dövriyyəsinin ixrac strukturunda neft və neft məhsullarının payının azaldılması üçün mühüm üstünlüyə malik kənd təsərrüfatı potensialımız dəyərləndirilməli, neft maşınqayırması, kimya və neft-kimyanın elm tutumlu sahələrinə birbaşa və portfel investisiyanın cəlb edilməsi stimullaşdırılmalı, əlavə dəyəri yüksək olan rəqabət qabiliyyətli hazır məhsul ixracı həvəsləndirilməli, Mərkəzi Bank yerli istehsalçıların hüquqlarının müdafiə edilməsi və daxili bazarın qorunması üçün "manat-dollar" məzənnəsini tənzimləməlidir.

Yuxarıda qeyd etdiklərimizlə yanaşı, "Azərbaycanda ixracın müsbət yöndə stimullaşdırılması və milli maraqların qorunması istiqamətində bir sıra iqtisadçı alimlərin irəli sürdükləri aşağıdakı təkliflərin həyata keçirilməsi, fikrimizcə, vacibdir:

- ✓ respublikamızın ixrac potensialının artırılması;
- ✓ ixrac yönümlü istehsal sahələrinin və xidmət sektorlarının formalaşdırılması;
- ✓ milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi;
- ✓ makroiqtisadi sabitliyin mühafizə edilməsi" (Məhərrəmov A.M., 2015: s.298).

İndi isə idxal gömrük prosedurlarının ölkənin milli iqtisadi maraqlarının qorunmasındakı rolunu və perspektiv dövr üçün atılacaq addımları aydınlaşdırmaq üçün Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin idxal strukturunu nəzərdən keçirək.

"Azərbaycan Respublikasının milli-iqtisadi maraqlarının qorunması və iqtisadi təhlükəsizliyinin təmin edilməsi zəminində milli istehsalçıların arzuolunmaz xarici rəqabətdən mühafizə edilməsi, idxal və ixrac arasında nisbətin optimallaşdırılması, ölkə ərazisinə gətirilən malların struktur və çeşidinin

səmərəliləşdirilməsi" (Quliyev E.A., Mehrəliyev İ.İ., 2011: s. 250-251), istehsal və istehlak quruluşunda əlverişli mühitin yaradılması, dünya iqtisadiyyatına effektiv inteqrasiyanın təmin edilməsi, dövlət büdcəsi gəlirlərinin artırılması kimi məsələlərin həllində mühüm rol oynayan idxal gömrük prosedurlarının ölkənin xarici ticarət dövriyyəsinin idxal strukturunda təcəssümü cədvəl 3-də öz əksini tapmışdır.

**Cədvəl 3: Azərbaycan Respublikasının 1991-2019-cu illər ərzindəki idxal dinamikası**

| İllər | İdxal, mln. ABŞ dolları | Əvvəlki ilə nisbətən, faizlə |
|---|---|---|
| 1991 | 1.881,2 | 100 |
| 1992 | 939,8 | 50,0 |
| 1993 | 628,8 | 66,9 |
| 1994 | 777,9 | 123,7 |
| 1995 | 667,7 | 85,8 |
| 1996 | 960,6 | 143,9 |
| 1997 | 794,4 | 82,7 |
| 1998 | 1.076,5 | 135,5 |
| 1999 | 1.035,9 | 96,2 |
| 2000 | 1.172,1 | 113,1 |
| 2005 | 4.211,2 | 119,8 |
| 2010 | 6.600,6 | 105,0 |
| 2015 | 9.216,7 | 99,5 |
| 2016 | 8.489,1 | 89,6 |
| 2017 | 8.783,3 | 83,8 |
| 2018 | 11.465,9 | 100,2 |
| 2019 | 13.667,2 | 93,5 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2020 https://www.stat.gov.az/source/trade/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Azərbaycan Respublikasının 1991-2019-cu illər ərzindəki idxal dinamikasını nəzərdən keçirdikdə, müstəqilliyin ilk illərindəki (1991-1994-cü illər ərzində) iqtisadiyyatın tənəzzülü prosesinin idxal dinamikasında öz əksini tapdığını görürük. Belə ki, 1991-ci ildə idxal həcmi 1881,2 mln. ABŞ dolları dəyərində olan respublikamızda daxili siyasi-iqtisadi qeyri-sabitliyin və erməni təcavüzü nəticəsində I Qarabağ müharibəsinin kəskinləşməsi fonunda idxal həcmində 1998-ci ilə qədər ümumi düşmə meylli dalğalanmalar baş vermişdir.

Cədvəl 3-ün məlumatarına əsaslanaraq qeyd edə bilər ki, 1991-ci illə müqayisədə idxal həcmi 1992-ci ildə 2 dəfə, 1993-cü ildə 3 dəfə, 1994-cü ildə 2,4

dəfə, 1995-ci ildə 2,8 dəfə, 1996-cı ildə 1,96 dəfə, 1997-ci ildə 2,4 dəfə azalmışdır. Burada bir parantez açaraq bir nüansı qeyd etmək istəyirəm ki, əslində dünyanın inkişaf etmiş istənilən ölkəsinin başlıca qayəsi milli iqtisadiyyatlarının idxaldan asılılığını azalmaq və mümkün idxal mallarını yerli istehsal malları ilə əvəzləməkdir. Bu nöqteyi-nəzərdən tədiyyə balansında idxal həcminin azalması müsbət haldır. Ancaq yuxarıda qeyd etdiyimiz dövrlərdə idxal həcmindəki azalmanın respublikamızın maliyyə imkanlarının məhdudluğu idi və bu fakt iqtisadi islahatların həyata keçirilməsinə də öz təsirini göstərirdi.

Qeyd edək ki, "Bakı-Novorossiysk" boru xəttinin işə düşməsi ilə, əhalinin pul gəlirlərinin tədricən artması ilə və 1997-ci ildən sonra milli iqtisadiyyatımızda müşahidə edilən stabilliklə bağlı olaraq daxili tələbin yüksəlməsi idxal həcmində sürətli artıma rəvac verdi. Belə ki, 1998-ci ildən başlayaraq respublikamızın idxal həcmində düşmə tendensiyası dayandı və 1997-2000-ci illərdə milli valyutamız olan manatın ABŞ dolları qarşısında həddən artıq dəyər qazanması idxalı daha da cəlbedici hala gətirdi. Belə ki, 1991-ci illə (1881,2 mln. ABŞ dolları) müqayisədə idxal həcmi 2005-ci ildə 2,2 dəfə, 2010-cu ildə 3,5 dəfə, 2015-ci ildə 4,9 dəfə, 2019-cu ildə isə 7,3 dəfə artmışdır. Apardığımız təhlilə və araşdırmalarını analiz etdiyimiz iqtisadçıların fikirlərinə əsaslanaraq qeyd edə bilərik ki, inkişaf etmiş ölkələrdə olduğu kimi idxal cəhətdən maddi dualizm içində olan Azərbaycan mal və xidmət idxalı üçün xarici valyuta ehtiyatına sahib olmaq və mütəmadi olaraq bu ehtiyatını artırmaq məcburiyyətindədir ki, bu da daxili investisiya qoyuluşlarının həcmini məhdudlaşdırır (Aras O.N., Süleymanov E., 2010).

Fikrimizcə, respublikanın xarici ticarət dövriyyəsinin idxal strukturunu konkret zaman kəsimi arealında idxal əməliyyatlarında əsas yer tutan mallar üzrə təhlil etməklə gələcəkdə hansı idxal mallarının yerli istehsal məhsulları ilə əvəzlənməsi imkanlarını müəyyənləşdirmiş, eyni zamanda, mövcud potensialımızı dəyərləndirmiş olarıq (şəkil 3).

Bu yolla biz idxal əvəzetmə strategiyasını tətbiq edəcəyimiz sahələri təsbit etməklə yanaşı, perspektiv dövr üçün yerli resursların istehsal dövriyyəsinə cəlb olunmasına, məşğulluğun təmin edilməsinə, əhali gəlirlərinin artırılmasına və

maddi rifah səviyyəsinin yaxşılaşdırılmasına, daxili bazarın yerli məhsullarla doldurulmasına və valyuta ehtiyatlarımızın kənara axmasının qarşısının alınmasına nail ola bilərik.

**Şəkil 3: 2019-cu ildə Azərbaycan Respublikasında idxal əməliyyatlarında əsas mallar**




**Mənbə:** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, 2019 (www.customs.gov.az) https://customs.gov.az/modules/pdf/pdffolder/83/FILE_52662D-C09A06-5A4C18-962D1E-C708E6-637063.pdf məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Şəkil 3-ün məlumatlarının təhlili əsasında qeyd edək ki, 2019-cu ildə Azərbaycan Respublikasının idxal əməliyyatlarında 12,03%-lik payla ölkənin idxalında ikinci yerdə dayanan "Yeyinti məhsulları" qrupunun tərkibini araşdırdıqda, ət (0,58%), süd (0,11%), meyvə-tərəvəz (1,42%), çay (0,4%), düyü

(0,28%) və s. kimi məhsulların istehsalında keçmişdən gələn böyük istehsal ənənəmizin və təcrübəmizin olduğunu görür və bu istiqamətdə mövcud potensial imkanları dəyərləndirməklə yerli istehsalın hərəkətlənməsini stimullaşdırmalıyıq.

Mövcud resurslara və iqtisadi-coğrafi mövqeyə görə Azərbaycanda neft sektorundan sonra investisiya üçün ən səmərəli sahə kənd təsərrüfatı sahəsidir. Yeyinti məhsullarının idxalın strukturunda mühüm yerə malik olması və bu adda əmtəələrə gündəlik istehlak malları olmaqla böyük həcmdə tələbat respublikada bu sahənin idxalı əvəzetmə siyasəti aparılmasına stimul yaratmaqdadır. İdxalı əvəzetmə siyasətinin həyata keçirilməsi yerli istehsalın formalaşmasına şərait yaratmaqla yanaşı, daxili bazarın qorunması və ixracın stimulladırılmasına da təkan verir. Respublikada daxili bazar qorunmaqla yerli istehsal məhsullarının satış bazarı genişləndirilir, sahibkarlıq sahələrinin xarici təsirlərdən qorunması ilə rəqabətqabiliyyətli əmtəələrin istehsalına şərait yaradılır. Daxili bazarın qorunması ilə yeni yaradılan istehsal sahələrinin ilkin formalaşma dövrünə normal şərait yaradılır və bununla da istehsalın təkmilləşdirilməsinə köməklik göstərilmiş olur (Şəkərəliyev A.Ş., Şəkərəliyev Q.A., 2016). Qeyd edək ki, bu istiqamətdə atacağımız addımlar bizə 2019-cu ilin dünya bazar qiymətləri ilə təkcə yeyinti məhsulları üzrə təxminən 382 mln. ABŞ dollarına qənaət etməyimizə, eyni zamanda, əhali məşğulluğunun təmininə, əhalinin ekoloji təmiz qida məhsulları ilə təmin edilməsinə zəmin yaradacaqdır. Şəkil 3-ün məlumatları əsasında təhlilimizi dərinləşdirsək tütün və tütün məmulatları, gübrə istehsalı sahəsində də kifayət qədər geniş imkanlarımızın və təcrübəmizin olduğunu görə bilərik.

Milli iqtisadi təhlükəsizliyimizə mənfi təsirlərin qarşısını almaq və yerli istehsalı milli maraqların qorunması zəminində stimullaşdırmaq üçün idxal əməliyyatlarının mövcud vəziyyətinin təhlili zəruridir (cədvəl 4).

Belə ki, 2014-cü ilin iyul ayına qədər respublikamızın idxal əməliyyatlarında müşahidə edilən tendensiya bu dövrdə baş verən I devalvasiyadan sonra fərqli şəkildə təzahür etməyə başladı. 2014-cü ilin iyul ayında respublikamızda baş verən devalvasiyaya qədər milli manatın dollar qarşısındakı yüksək dəyəri idxal edilən məhsulların böyük əksəriyyətinin Aİ ölkələrindən gətirilməsinə səbəb olmuşdu.

*İqtisadçı alim A.M. Məhərrəmovun iqtisadi baxışlarına əsaslanaraq qeyd edə bilərik ki, respublikaya idxal edilən məhsulların tərkibində Aİ ölkələrindən gətirilən malların üstünlük təşkil etməsinin aşağıdakı bir sıra səbəbləri vardır:*

*1. Avropaya inteqrasiya prosesinə Azərbaycan Respublikasının daha çox meyl etməsi;*

*2. Aİ ölkələrinin mallarının yüksək beynəlxalq standartlara uyğunluğu;*

*3. Aİ ölkələrinin mallarının daha geniş çeşidliliyi...* (Məhərrəmov A.M., 2015: s. 302).

**Cədvəl 4: 2016-2019-cu illərdə Azərbaycan Respublikasının idxal əməliyyatlarının həcmi**

| Göstəricilər | Məbləğ (mln. ABŞ dolları) | | | |
|---|---|---|---|---|
| | 2016 | 2017 | 2018 | 2019 |
| İdxal əməliyyatları üzrə | 8532,4 | 8782,0 | 11464,97 | 13667,2 |
| İdxal olunan malların çeşidlərinin sayı, ədəd | 7328 | 7429 | 7566 | 7503 |
| Dövlət sektoru | 1232,2 | 1190,6 | 2635,2 | 4132,5 |
| Özəl sektor | 6811,1 | 7103,5 | 8142,95 | 8473,7 |
| Fiziki şəxslər | 489,1 | 487,96 | 686,8 | 1061,1 |
| MDB ölkələri | 2161,7 | 2396,2 | 2862,1 | 3432,5 |
| Aİ ölkələri | 2222,3 | 1942,9 | 2328,7 | 2430,8 |
| Digər ölkələr | 4148,5 | 4442,8 | 6274,2 | 7803,98 |
| İdxal əməliyyatlarının həcminin: | | | | |
| -yüksək həddi | 848,9 (mart) | 991,2 (dekabr) | 1347,5 (oktyabr) | 1425,9 (aprel) |
| -aşağı həddi | 434,3 (yanvar) | 450,0 (yanvar) | 689,8 (yanvar) | 929,3 (noyabr) |
| -orta aylıq artımı (+;-) | 34,1 | 49,2 | 43,6 | 23,7 |
| Humanitar yük, təmənnasız kömək və texniki yardım | 31,8 | 34,6 | 59,2 | 30,3 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, 2016, 2017, 2018, 2019 (www.customs.gov.az) https://customs.gov.az/modules/pdf/pdffolder/84/FILE_771F1F-FD7891-5B3E7B-48A877-2C2E2A-E85F51.pdf məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Tam əksinə olaraq 2014-cü ilə qədər ən aşağı idxal həcmi MDB ölkələrinə məxsus idi ki, bu da adı çəkilən ölkələrdə istehsal edilən məhsullara onların keyfiyyətindən qaynaqlanan tələbin azlığı idi. 2014-cü ilin iyul ayından başlayan devalvasiyadan sonra respublikamızın idxal əməliyyatlarında fərqli mənzərə özünü biruzə verdi ki, bu yaranmış mənzərəni cədvəl 4-ün məlumatları əsasında araşdıracağıq.

Cədvəl 4-ün nəticələrini təhlil edərkən idxal əməliyyatlarının həcminin respublikamızda 2016-cı illə müqayisədə 2017-ci ildə 2,9%, 2018-ci ildə 34,4%, 2019-cu ildə 60,2% artdığını görürük. Başqa sözlə desək, respublikamızda idxal əməliyyatlarının həcmi 2016-cı illə müqayisədə 2019-cu ildə 1,6 dəfə artmışdır. Burada parantez açaraq bir faktı qeyd edək ki, idxal olunan malların çeşid sayı əvvəlki dövrlərdə olduğu 2016-2019-cu illər ərzində də zəngin olmuşdur və idxal mallarının çeşid zənginliyində Aİ ölkələrinin rolu danılmazdır. 2016-2019-cu illər ərzində Azərbaycanın idxal əməliyyatlarının həcmində dövlət və özəl sektorun paylarına nəzər yetirdikdə, görürük ki, əgər 2016-cı ildə özəl sektorun idxal əməliyyatlarındakı xüsusi çəkisi 79,8% olmuşdursa, 2019-cu ildə özəl sektorun idxal əməliyyatlarındakı payı 17,8% azalaraq 62,0% olmuşdur. Digər tərəfdən 2016-cı ildə dövlət sektorunun idxal əməliyyatlarındakı xüsusi çəkisi 14,4% olmuşdursa, 2019-cu ildə dövlət sektorunun idxal əməliyyatlarındakı payı 15,8% artaraq 30,2% olmuşdur. Qeyd edək ki, müqayisə edilən 2016 (5,8%) və 2019-cu (7,8%) illərdə fiziki şəxslərin idxal əməliyyatlarının həcmindəki payı 2% artmışdır.

Cədvəl 4-də əks olunan Azərbaycan Respublikasının 2016-2019-cu illər ərzindəki idxal əməliyyatlarının mövcud vəziyyətini təhlil etdikdə, Aİ ölkələrindən idxal edilən məhsulların həcminin ümumi idxal həcminin 2016-cı ildə 26%, 2017-ci ildə 22,1%, 2018-ci ildə 20,3%, 2019-cu ildə isə 17,8% təşkil etdiyini görürük. Bu rəqəmlər 2014-cü ilin iyul ayından başlanan devalvasiya nəticəsində dolların manat qarşısında məzənnəsinin (1 ABŞ dolları = 1,7 AZN) bahalaşması hesabına Aİ ölkələrindən idxal edilən məhsulların qiymətlərinin artması səbəbi ilə onlara olan tələbin azalmasının bariz nümunəsidir. Aİ ölkələrindən idxal edilən məhsulların həcminin ümumi ixrac həcmindəki xüsusi çəkisinə baxdıqda, 2016-cı illə müqayisədə 2019-cu ildə bu göstərici 8,2% azalaraq 17,8% olmuşdur. MDB və digər ölkələr qrupu ölkələrindən idxal edilən məhsulların ümumi idxal həcmindəki xüsusi çəkisinə diqqət etdikdə, MDB ölkələrinin idxal əməliyyatlarındakı xüsusi çəkisi 2016-ci ildə 25,4%, 2017-ci ildə 27,3%, 2018-ci ildə 25%, 2019-cu ildə isə 25,1% olmuşdur. Qeyd etdiyimiz rəqəmlərdən göründüyü kimi, MDB ölkələrinin idxal əməliyyatlarındakı xüsusi çəkisində 2016-ci illə müqayisədə 2019-cu ildə

0,3% azalma müşahidə olunur. Digər ölkələr qrupuna daxil olan ölkələrin idxal əməliyyatlarındakı xüsusi çəkisində 2016-ci illə müqayisədə 2019-cu ildə 8,5% artım görülməkdədir. Belə ki, digər ölkələr qrupuna daxil olan ölkələrin idxal əməliyyatlarındakı xüsusi çəkisi 2016-ci ildə 48,6% olduğu halda, bu göstərici artaraq 2017-ci ildə 50,6%, 2018-ci ildə 54,7%, 2019-cu ildə isə 57,1% olmuşdur.

Azərbaycanın idxal əməliyyatlarının təhlilini dərinləşdirmək və 2016-2019-cu illər ərzində həyata keçirdiyi idxal əməliyyatlarının mövcud vəziyyətinin təhlil nəticələrini dəqiqləşdirmək üçün 2019-cu ili əhatə edən respublikamızın ölkələr üzrə idxal əməliyyatları diaqramını nəzərdən keçirək (şəkil 4).

**Şəkil 4: 2019-cu ildə Azərbaycan Respublikasının idxal əməliyyatlarında əsas ölkələr**




**Mənbə:** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, 2019 (www.customs.gov.az) https://customs.gov.az/modules/pdf/pdffolder/84/FILE_771F1F-FD7891-5B3E7B-48A877-2C2E2A-E85F51.pdf məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Burada təhlil zamanı qarşılaşdığımız bir faktı qeyd etmək lazımdır ki, cədvəl 4-ün məlumatlarının tədqiq edilməsi zamanı gəlinən nəticə şəkil 4-ün nəticələrlə

üst-üstə düşür. Belə ki, cədvəl 4-ün məlumatlarının təhlili zamanı məlum olmuşdur ki, Azərbaycana idxal olunan məhsulların ümumi həcmində digər ölkələr qrupunun xüsusi çəkisi 2019-cu ildə Aİ və MDB ölkələri ilə müqayisədə ən yüksək həddədir (57,1%). Şəkil 4-ə nəzər yetirdikdə, eyni vəziyyətin şahidi oluruq. Yəni 2019-cu ildə Azərbaycan Respublikasının ölkələr üzrə idxal əməliyyatlarında digər ölkələr qrupu aparıcı mövqeyə malikdirlər.

Şəkil 4-ə nəzər yetirdikdə, ölkələr üzrə idxal əməliyyatlarında Rusiyanın ilk sırada olduğunu görürük. Bunun əsas səbəbi rus mallarının Azərbaycan valyutasına nisbətdə dəyərinin aşağı olmasıdır ki, Rusiya bu səbəbdən Azərbaycan bazarında qiymət üstünlüyü əldə etmiş və nəticə etibarilə rus mallarına tələbin artması ilə Rusiya Azərbaycanın xarici ticarətində ilk sıraya yüksəlmişdir.

Azərbaycanın xarici ticarət əlaqələrinin idxal strukturunun mövcud vəziyyətinin təhlili nəticəsində tərəfimizdən belə bir qənaətə gəlinmişdir ki, respublikada idxalın milli iqtisadi təhlükəsizliyə törədə biləcəyi təhdidləri aradan qaldırmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

1. Yerli istehsalın həcminin artırılması məqsədilə yeni texnologiyaların cəlb edilməsi;
2. İqtisadi inkişafa yönəldilən investisiyalardan məqsədli istifadə edilməsi;
3. Azərbaycana idxalda xammal və yarım hazır məhsullara üstünlük verilməsi;
4. İxracı təşviq edən idxala üstünlük verilməsi. Bu zaman xüsusi gömrük prosedurlarından istifadə etmək məqsədəuyğundur;
5. İdxal edilən məhsulların ölkədəki istehsal sahələrində durğunluq yaratmasının qarşısını almaq üçün istehsalın keyfiyyətinin artırılması istiqamətində addımlar atmaq.

Aparılan təhlili yekunlaşdıraraq qeyd edək ki, respublikada idxal və ixrac gömrük prosedurlarından istifadə etməklə həyata keçirilən tənzimləmə daxili bazarın xarici rəqabətin mənfi təsirlərindən qorunmasına və iqtisadiyyatın inkişafına yönəldilmişdir. Lakin inkişaf etmiş ölkələrin təcrübəsinin təhlili göstərir

ki, bazar iqtisadiyyatı şəraitində istehsalın səviyyəsini sağlam rəqabətin təmin edilməsi yolu ilə yüksəltmək olar.

## 2.2. Xüsusi gömrük prosedurları və onların xarici iqtisadi fəaiyyətin fəallaşmasında rolu

Sərnişinlərin, kommersiya xarakterli nəqliyyat vasitələri və poçt nəqliyyatının hərəkətlərinin, təchizat və yardımın (humanitar yardımın) çatdırılması prosesinin tənzimlənməsini əhatə edən xüsusi gömrük prosedurları Kyoto Konvensiyasına və onun J5 saylı əlavəsinin müddəalarına əsasən həyata keçirilir. Düzdür bu prosedurların həyata keçirilməsi prosesində yerli gömrük qanunvericiliyi də müəyyənedici rol oynayır. Xüsusi gömrük prosedurları xarici iqtisadi əlaqələrin inkişafının dövlət tənzimlənməsi vasitəsi kimi gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinin aşağıdakı prosedurlar altında yerləşdirilməsini əhatə edir.

*Qeyd edək ki, Kyoto Konvensiyasının J5 saylı əlavəsinə əsasən 5 növ xüsusi gömrük proseduru müəyyənləşdirilmişdir:*

1. *tranzit (beynəlxalq və daxili tranzit);*
2. *saxlanc (müvəqqəti və gömrük anbarlarında saxlanc);*
3. *sərbəst zona;*
4. *xüsusi istifadə (müvəqqəti idxal və son istifadə);*
5. *emal gömrük prosedurları...* (Şəkərəliyev A.Ş., Yadullaqızı Y.M., Aslanova M.M., 2016: s. 82).

Kyotoda qəbul edilmiş J5 saylı əlavəyə əsasən xüsusi gömrük prosedurlarının təşkili yalnız məhsulların istifadəsi və barəsində sərəncam verilməsi aspektlərini deyil, həmçinin məhsulların xüsusi gömrük prosedurları altında yerləşdirilməsi zamanı gömrük rəsmiləşdirilməsinin aparılmasını nəzərdə tutur. Xüsusi gömrük prosedurlarını və onların respublikamızın xarici iqtisadi fəaliyyətindəki rolunu, iqtisadi əhəmiyyətini nəzərdən keçirək.

Beynəlxalq mal mübadiləsinin obyektiv zərurətindən yaranan tranzit xüsusi gömrük prosedurları ölkələrin coğrafi mövqeyi, geosiyasi və iqtisadi münasibətləri ilə şərtlənir. Tranzit xüsusi gömrük proseduru nəqliyyat-əlaqə kateqoriyası kimi nəqliyyat vasitələrinin və malların tranzitində meydana gələn münasibətləri

tənzimləyir. Tranzit xüsusi gömrük prosedurunun tətbiq edildiyi sahənin xarakterindən asılı olaraq aşağıdakı formaları fərqləndirilir:

1. beynəlxalq tranzit;

2. daxili tranzit və ya milli qanunvericilik əsasında həyata keçirilən tranzit.

Beynəlxalq tranzit xüsusi gömrük proseduru xarici malların gömrük rüsumları, əlavə dəyər vergisi və aksizlər olmadan, ticarət siyasəti tədbirləri tətbiq olunmadan gömrük nəzarəti altında bir yerdən başqa yerə hərəkətidir.

Tranzit gömrük proseduru malların və nəqliyyat vasitələrinin müəyyən edilmiş müddətdə təyinat gömrükxanasına çatdırıldıqda, daşınan malların dəyişməz qaldığı halda və müvafiq gömrük əməliyyatları aparıldıqdan sonra başa çatmış hesab olunur. Malların tranzitinə görə məsuliyyət daşıyıcının – faktiki olaraq malları keçirən şəxsin və ya nəqliyyat vasitələrinin istifadəsi üçün məsul olan şəxsin üzərinə qoyulur.

Tranzit xüsusi gömrük prosedurlarının xarici iqtisadi əlaqələrin inkişafındakı roluna gəldikdə isə, qeyd etmək istərdim ki, xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsində tranzit xüsusi gömrük prosedurunun özünəməxsus yeri olub qədim dövrlərdən beynəlxalq ticarətin inkişafına xidmət etmişdir. Tranzit xüsusi gömrük proseduru aşağıdakı iqtisadi təsir imkanlarına malikdir. Belə ki:

- ✓ beynəlxalq mal mübadiləsində aralıq təsir halqası rolunu oynayır;
- ✓ beynəlxalq daşımaları asanlaşdırır;
- ✓ malların təyinat gömrükxanalarına vaxtında çatdırılmasına xidmət edir;
- ✓ malların təyinat gömrükxanalarına vaxtında çatdırılmasına xidmət edir;
- ✓ bu rejim altında yerləşdirilən malların nomenklaturasına, miqdar və təyinatına heç bir xüsusi məhdudiyyət yoxdur.
- ✓ dövlət büdcəsinin gəlirlərinin formalaşmasına təsir etmə imkanı vardır.

Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi prosesində istifadə olunan xüsusi gömrük prosedurlarından biri müvəqqəti saxlanc prosedurudur. Müvəqqəti saxlanc proseduru malların gömrük orqanına təqdim edildiyi andan onların buraxılışına qədər və ya seçilmiş gömrük rejiminə verilənədək gömrük nəzarəti altında qalma prosedurudur. Müvəqqəti saxlanc proseduru anbarlarında yerləşdirilmiş malların

saxlanma müddəti iki aydır. Əslində malların saxlanc müddəti malların aid olduğu kateqoriyalardan asılıdır. Müvəqqəti saxlanc anbarlarında malların yerləşdirilməsi baytarlıq, fitosanitar və ekoloji dövlət nəzarəti tədbirlərinin həyata keçirilməsindən asılı deyildir.

Müvəqqəti saxlanc gömrük prosedurunun əhəmiyyəti və xarici iqtisadi fəaliyyətin inkişafında rolu gömrük orqanına təqdim edilən yükün rəsmiləşdirilməsinin bitməməsi halında avtomatik olaraq saxlanca verilmiş mal statusu almasıdır. Bu malların mühafizəsi və keyfiyyətinin qorunub saxlanması baxımından biznes subyektlərinə göstərilən yüksək gömrük xidmətidir.

Mövcud gömrük qanunvericiliyinə əsasən müvəqqəti saxlanc anbarı həm gömrük orqanları, həm də ayrı-ayrı Azərbaycan şəxsləri tərəfindən təsis edilə bilər. Gömrük orqanı tərəfindən təsis edilmiş müvəqqəti saxlanc anbarı gömrük orqanının struktur bölməsi kimi fəaliyyət göstərir.

Müasir dövrdə sərbəst gömrük zonaları xüsusi gömrük prosedurunun bir forması kimi xarici mənşəli və yerli malların gömrük rüsum və vergiləri ödənilmədən, ixrac gömrük rejimi ilə müəyyən edilən şərtlər daxilində saxlanılması, satılması və alınması mümkün olan rüsumsuz ticarət ərazisi kimi qəbul edilir. Sərbəst gömrük zonalarında malların saxlanılma müddətinə məhdudiyyət qoyulmur. Sərbəst gömrük zonası prosedurunun xarici iqtisadi əlaqələrin genişləndirilməsi nöqteyi-nəzərindən cəlbediciliyi ondadır ki, bu fəaliyyət sərbəst iqtisadi zonaların yaradılmasında ilk mərhələ hesab olunur və perspektiv dövr üçün xarici mənşəli mallarla yanaşı, yerli istehsal məhsullarının satışına zəmin yaradır. Başqa sözlə desək, sərbəst gömrük zonalarının fəaliyyəti sərbəst iqtisadi və ya azad iqtisadi zonaların yaradılması, eyni zamanda, idarə edilməsi üçün bir təcrübədir. Sərbəst gömrük zonası proseduru Azərbaycan iqtisadiyyatına xarici investorlar tərəfindən yönəldilən investisiyaların dəyərləndirilməsinin sınaq poliqonudur.

Qeyd edək ki, sərbəst gömrük zonalarının fəaliyyət istiqaməti yerli istehsalçıları xarici iqtisadi fəaliyyətə cəlb etməkdən, ixrac yönümlü istehsal

sahələrini formalaşdırmaqdan, yerli məhsulların rəqabət qabiliyyətini artırmaq məqsədilə yerli istehsalçıların təcrübə toplamasına kömək etməkdən ibarətdir.

Xüsusi istifadə gömrük prosedurunun əsas təzahür formalarından biri müvəqqəti idxal (ixrac) gömrük prosedurudur. Elmi ədəbiyyatlarda xüsusi gömrük prosedurunun təzahürü kimi tədqiq edilən müvəqqəti idxal (ixrac) prosedurunun iqtisadi əhəmiyyəti beynəlxalq ticarətin və xarici iqtisadi fəaliyyətin inkişaf tendensiyaları və istiqamətləri ilə müəyyən olunur. Müvəqqəti idxal (ixrac) prosedurunun tətbiqi xarici ölkələrlə ticarət-iqtisadi əlaqələri genişləndirməyə imkan verməklə yanaşı, milli iqtisadiyyatın müdafiəsini, ölkənin təhlükəsizliyini və milli maraqlarının qorunmasını təmin edir.

Dünya ölkələrinin gömrük işi təcrübəsi göstərir ki, respublikamızda çox az istifadə olunan, ixrac yönümlü istehsal müəssisələrinin sayının artmasına şərait yaradan, mövcud gömrük qanunvericiliyinə görə xarici iqtisadi əməliyyatlarda cəlbedici güzəştli imkanlar yaradan və xarici iqtisadi fəaliyyətin tənzimlənməsi məqsədilə tətbiq edilən xüsusi tədbirlər sistemindən biri emal xüsusi gömrük prosedurlarıdır və bu nöqteyi-nəzərdən dissertasiyada başlıca hədəfimiz emal xüsusi gömrük prosedurlarının xarici iqtisadi fəaliyyətin tənzimlənməsindəki rolunu müəyyənləşdirməkdir.

Qeyd edək ki, mallar beynəlxalq mübadilə obyekti olduğundan bəzən xarici ticarət əməliyyatlarının bitməsindən əvvəl ya da sonra müəyyən emal tələb edir. Bu zaman iqtisadi, texnoloji və s. səbəblər üzündən istehsal və ya sənaye xarakterli belə əməliyyatlar bir dövlətin gömrük ərazisində həyata keçirilə bilmir. Məhz bu məqsədlər üçün “emal prosedurları” nəzərdə tutulur. Bu prosedurlar çərçivəsində xüsusi hüquqi mexanizmin tətbiq edilməsi imkan verir ki, beynəlxalq mübadilə obyekti olan mallar aşağıdakı qaydada emal edilsin:

- gömrük tənzimlənməsinin adi vasitə və tədbirləri tətbiq edilmədən xarici mallar gətirilsin və emal edilsin;
- Azərbaycan malları respublikanın gömrük ərazisindən emal məqsədi ilə çıxarılsın və dəyişilmiş, yəni emal edilmiş halda geriyə gətirilsin;
- xarici mallar Azərbaycanın gömrük ərazisinə gətirilsin, emal edilsin və emal

məhsulları geriyə qaytarılsın və ya Azərbaycan ərazisində istifadə edilmək üçün saxlanılsın.

*Gömrük Məcəlləsi malların emalı üzrə əməliyyatların keçirilmə qaydalarına xarici iqtisadi fəaliyyətin gömrük-hüquqi tənzimləmə sisteminin nisbətən müstəqil elementi kimi baxır və üç növ gömrük proseduru müəyyən edir:*

*1. gömrük ərazisində malların emalı – ixrac gömrük proseduruna uyğun olaraq emal məhsullarının Azərbaycan Respublikası gömrük ərazisinin hüdudlarından kənara aparılması şərtilə, iqtisadi siyasət tədbirləri tətbiq edilmədən və idxal gömrük rüsumları və vergilər qaytarılmaqla, xarici malların Azərbaycan Respublikası gömrük ərazisində müəyyən olunmuş qaydada emal üçün istifadə edilməsindən ibarət gömrük prosedurudur...*(“Azərbaycan Respublikasının Gömrük Məcəlləsi”, 2020, maddə 57);

*2. gömrük nəzarəti altında malların emalı - Azərbaycan Respublikası gömrük ərazisində xarici mallardan gömrük rüsumları və vergilər alınmadan, həmçinin onlara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən müəyyən edilmiş qaydada gömrük nəzarəti altında istifadə edilməsi və sonradan emal məhsullarının sərbəst dövriyyə üçün buraxılışı gömrük prosedura altında yerləşdirilməsindən ibarət gömrük prosedurudur...* (“Azərbaycan Respublikasının Gömrük Məcəlləsi”, 2020, maddə 64);

*3. gömrük ərazisindən kənarda malların emalı – Azərbaycan mallarını iqtisadi siyasət tədbirləri tətbiq etmədən ixrac edib, onlardan Azərbaycanın gömrük ərazisindən kənarda emal üçün istifadə edilməsindən və sonra emal məhsullarının tamamilə və ya qismən gömrük rüsumlarından və vergilərdən azad etməklə və onlara iqtisadi siyasət tədbirləri tətbiq etmədən, bu məhsulların Azərbaycan gömrük ərazisində sərbəst dövriyyə üçün buraxılışdan ibarət gömrük prosedurudur...* (“Azərbaycan Respublikasının Gömrük Məcəlləsi”, 2020, maddə 86).

Xarici ölkələrin qanunvericiliyində, həmçinin beynəlxalq gömrük sazişlərində malların emalı üzrə aparılan əməliyyatların yeri və emal edilən malların mənşə ölkəsindən asılı olaraq emal prosedurları iki tipə ayrılır:

*1. aktiv emal tipləri – xarici malların milli gömrük ərazisində istifadə olunmasına imkan verən halları nəzərdə tutur. Aktiv emal tipinə gömrük ərazisində malların emalı və gömrük nəzarəti altında malların emalı prosedurları aid edilir;*

*2. passiv emal tipləri – milli malların dövlətin gömrük ərazisindən kənarda*

*istifadəsini nəzərdə tutan halları əhatə edir. Passiv emal tipinə gömrük ərazisindən kənarda malın emalı proseduru aid edilir...* (Heydərov K.F., İbrahimov T.T., 1999: s. 136).

Gömrük Məcəlləsi ilə müəyyən edilən emal prosedurlarının nizama və ya qaydaya salınmasının mühüm elementi onların benefisiarlarına yönəldilmiş tələblərdir. Bu prosedurlar üzrə benefisiar statusunun alınmasını şərtləndirən əsas tələblər – benefisiarın Azərbaycan vətəndaşı olması və müəyyən edilmiş qaydaya uyğun olaraq Azərbaycan Respublikasının gömrük ərazisində qeydiyyatdan keçməsidir.

Qeyd edək ki, müasir gömrük tənzimləmə amilləri timsalında emal xüsusi gömrük prosedurları xarici ticarətin inkişafına kömək edilməsinə və yüksək texnologiyalı sahələrin, o cümlədən müasir istehsalların inkişafı üçün əlverişli investisiya şəraitinin yaradılmasına istiqamətlənmişdir. Qeyd olunan üstün xüsusiyyətlərinə baxmayaraq Azərbaycanda gömrük emal prosedurlarından çox az istifadə olunur. Belə ki, Azərbaycandakı istehsal müəssisələrinin xarici ticarət fəaliyyətinin təhlili göstərir ki, haliyədə istehsal müəssisələrinin istifadə etdiyi əsas gömrük prosedurları ixrac və idxal prosedurlarıdır. Rəsmi gömrük məlumatlarına əsasən deyə bilərik ki, bütün rəsmiləşdirilmiş gömrük bəyannamələrinin orta hesabla 98%-i ixrac və idxal prosedurlarının, yerdə qalan 2% isə emal gömrük prosedurlarının payına düşür. Halbuki gömrük ərazisində emal gömrük prosedurunu tətbiq edən hər hansı bir təsərrüfat subyekti xarici malları Azərbaycan Respublikası gömrük ərazisində emal etmək üçün istifadə edə bilər və bu zaman təsərrüfat subyekti gömrük rüsumlarını və vergilərini ödəməkdən azad ediləcəkdir. Bir şərtlə ki, son emal məhsulları təsərrüfat subyekti tərəfindən ixrac proseduruna uyğun olaraq Azərbaycan Respublikası gömrük ərazisindən ixrac edilsin.

Aparılan araşdırma nəticəsində məlum olmuşdur ki, təcrübədə yerli istehsal müəssisələri emal gömrük prosedurlarından malların emalı və işlənməsi, innovativ məhsulların istehsal edilməsi, o cümlədən quraşdırma və ya montaj texnologiyası üçün istifadə etmirlər. Bunun başlıca səbəbi Azərbaycanın sənaye müəssisələrinin beynəlxalq sənaye cəmiyyətinə zəif cəlb olunması və ya olunmamasıdır. Digər bir

səbəb isə emal gömrük prosedurlarının cəlbedici güzəştli xarakterinə baxmayaraq xarici ticarət əməliyyatlarında yerli istehsalçıların sənədləşmənin mürəkkəb olmasını bəhanə edərək müasir gömrük qanunvericiliyinin verdiyi imkanlardan istifadə etməmələridir. Beləliklə, aydındır ki, sənaye müəssisələri emal gömrük prosedurlarının tətbiqindən aşkar faydanın olmasına baxmayaraq xarici ticarət və ixrac əməliyyatları aparmaq üçün daha mürəkkəb, eyni zamanda, daha təsirli sxemlərdən istifadə etməyə çalışmırlar. Bu yenilikçi sxem aşağıdakı kimidir:

- emal icazəsinin etibarlılıq müddətinin əhəmiyyətli dərəcədə artırılması;
- məhsullar emal üçün idxal edildikdə, gömrük rüsumlarından və vergilərdən tam şərti azadetmənin tətbiq edilməsi;
- ixrac yönümlü malların istehsalında adi idxal ilə müqayisədə daha əlverişli şərtlərlə xarici mənşəli komponentlərdən və ya xammaldan istifadə imkanının olması.

Aparılan araşdırmalara əsaslanaraq qeyd edə bilərik ki, xarici malların gömrük ərazisində emalı proseduru yerli maşınqayırma müəssisələrinin istehsal və ixrac potensialının stimullaşdırılması və inkişafı üçün mühüm bir istiqamət və mexanizm ola bilər. Məlumat üçün bildirək ki, bu kimi prosedurlar Azərbaycan Respublikasının ticarət tərəfdaşı olan bir çox ölkələrdə geniş tətbiq olunur.

Emal gömrük prosedurunun xarici iqtisadi fəaliyyətin tənzimlənməsindəki rolunun təhlili nəticəsinə əsaslanaraq söyləmək olar ki, Azərbaycanda bu gömrük prosedurunun tətbiqi məqsədi yerli istehsalçıların ixrac potensialını artırmaqdır. Çünki bu prosedurun tətbiqi Azərbaycandakı müəssisələrin istehsal güclərindən istifadəni artırmağa, istehsal olunan məhsulların qiymətlərini endirməyə, keyfiyyətini və rəqabət qabiliyyətini yüksəltməyə imkan verir. Fikrimizcə, emal xüsusi gömrük prosedurunun təsərrüfat subyektləri tərəfindən geniş istifadəsi ixrac yönümlü məhsulların istehsalında idxal mənşəli komponentlərdən istifadə edilməsi məhsulların xarici bazarda rəqabət qabiliyyətini artıracaq, gömrük rüsumlarının ödənilməsi üzrə güzəştli şərtlər istehsal xərclərini azaldacaq və son nəticədə, müəssisələrin ixrac potensialının yüksəlməsinə səbəb olacaqdır.

# III FƏSİL. XARİCİ TİCARƏTİN TƏNZİMLƏNMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

## 3.1. Xarici ticarətin tənzimlənməsinin əsas istiqamətləri

Xarici və yerli iqtisadi ədəbiyyatların araşdırılmasının məntiqi davamı olaraq söyləmək olar ki, qloballaşma şəraitində milli iqtisadiyyatların inkişafı məsələsinin müvəffəqiyyətli həlli xarici ticarət əlaqələrinin genişləndirilməsindən, lokal iqtisadi sistemlərin dünya təsərrüfat sisteminə inteqrasiyasından asılıdır. Qeyd edək ki, milli iqtisadiyyatların xarici ticarət əlaqələrinin coğrafiyasının genişlənməsi və əmtəə nomenklaturasının artması bir tərəfdən ölkə əhalisinin tələbatlarının ödənilməsinə, iqtisadiyyatın strukturunun müasir dövrün tələblərinə uyğun formalaşdırılmasına, çağdaş idarəçilik təcrübəsinin qazanılmasına, mütərəqqi texnika və texnologiyanın istehsala tətbiqinə, digər tərəfdən ölkənin malik olduğu prioritetlərin beynəlxalq əmək bölgüsündə reallaşdırılmasına imkan verir. Parantez açaraq nəzər diqqətinə çatdıraq ki, öz növbəsində beynəlxalq əmək bölgüsünün dərinləşməsi xarici ticarətin inkişafının maddi bazasını təşkil edir.

Dünya təcrübəsinə əsaslanaraq qeyd edək ki, xarici ticarətin inkişafı dünya təsərrüfatında maddi nemətlər istehsalı və xidmətlərdə baş verən bütün prosesləri əks etdirir. Həmçinin xarici ticarət mallar və xidmətlərin hər hansı bir ölkənin milli sərhədlərindən keçməsi səbəbi ilə onun xarici dövlətlərlə qarşılıqlı əlaqəsini əks etdirir. Xarici ticarət dövlətə milli malların və xidmətlərin xaricdə satışından əlavə gəlir əldə etməsinə, daxili bazarı təmin etməsinə, yerli resursların məhdudluğu problemini aradan qaldırmasına, eyni zamanda, dünya bazarında müəyyən məhsulların təchizində ixtisaslaşaraq əmək məhsuldarlığının artmasına imkan verir (Китиева М.И., Долова А.М., 2018). "Xarici ticarətin istiqamətini elmi texniki tərəqqi və beynəlxalq iqtisadi münasibətlərin qloballaşması şərtləndirir. Xarici ticarət təsərrüfat həyatının beynəlmilləşməsi prosesinin tamlığını əks etdirməklə xalqları və qitələri yaxınlaşdırır, onlar arasında dostluq və işgüzar münasibətlərin inkişafına səbəb olur" (Qəribov A.H., Əzizov A.Ə., Əhmədova S.E., 2017: s. 19-20). Məhz bu baxımdan xarici iqtisadi əlaqələrin əsasını təşkil edən xarici ticarətin arealının

genişləndirilməsi Azərbaycan Respublikasında iqtisadiyyatın formalaşdırılması istiqamətində həyata keçirilən islahatların strateji addımlarından biridir.

Dünya təsərrüfat sisteminə səmərəli iqtisadi inteqrasiya xarici ticarətin inkişafı nəticəsi olub kortəbii şəkildə baş vermir və çevik dövlət tənzimlənməsi sisteminin yaradılmasını nəzərdə tutur. Bu zaman belə bir sual meydana çıxır: "Dünyada, o cümlədən respublikamızda xarici ticarətin dövlət tənzimlənməsi nədən önəmlidir?". Belə ki, Azərbaycan Respublikası qlobal dünyanın bir hissəsi olduğundan qloballaşma prosesi respublikamızın beynəlxalq əlaqələrinin səmərəli inkişafına şərait yaratmaqla əmtəə və xidmətlərin beynəlxalq standartlara uyğunlaşdırılmasını, texniki səviyyəsinin yüksəldilməsini təmin etsə də, qlobal şirkətlərin və iqtisadi birliklərin şəxsi mövqedən çıxış edərək atdıqları addım bəzən cəmiyyətimizin məqsəd və mənafeyi ilə uzlaşmamaqdadır. "C.İ. Mahmudovun qeyd etdiyi kimi desək, qlobal şirkətlərin gəlir əldə etmək məqsədinə xidmət edən investisiya qoyuluşu qərarlarında onların şəxsi mənafeyi ilə cəmiyyətin maraq və mənafeləri toqquşmaqdadır. Belə ki, qlobal şirkətlərin qısa müddətdə məhsuldar olan və dolayısı ilə yüksək gəlir əldə edə biləcəyi sahələrə meyl etməsi, investisiya qoyuluşlarını daha çox mərkəzi regionlara yönəltməsi regionlararası sosial-iqtisadi inkişaf fərqlərinin artmasına şərait yaratmışdır ki, bu nöqteyi-nəzərdən xarici ticarət-iqtisadi əlaqələrin tənzimlənməsi zəruridir" (Mahmudov C.İ., 2019: s. 30).

Digər bir tərəfdən dövlət ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi və ümummilli maraqlarının mühafizə olunması məqsədilə xarici ticarətin dövlət tənzimlənməsini həyata keçirir. Qeyd edək ki, bütün dünya ölkələrində xarici ticarətin dövlət tənzimlənməsi mövcuddur və xarici ticarətin tənzimlənməsi hər bir dövlətin daxili və xarici siyasətindən, müasir dünya təsərrüfat sistemindəki mövqeyindən və s. asılıdır və qarşıya qoyulmuş konkret məqsəd və vəzifələrə uyğun olaraq müəyyən olunur (Heydərov K.F., İbrahimov T.T., 1999).

Yuxarıda qeyd olunanlara əsaslanaraq söyləmək olar ki, dövlətin xarici ticarət sferasını tənzimləməsi funksiyası institusional, proqram, pul-kredit, vergi, qiymət və s. tənzimləmə formaları ilə sıx bağlıdır. Məhz bu baxımdan xarici ticarətin dövlət tənzimlənməsinə müvafiq strukturların ölkə maraqlarının və milli

təhlükəsizliyin təmini üçün istifadə etdikləri müxtəlif iqtisadi münasibətlərə təsir formaları, alətləri və metodlarının məcmusu kimi baxmaq olar (Китиева М.И., Пугоева Л.Б., 2019).

Dövlət tənzimlənməsi hökumət qanunları, fərman və qərarlarının qəbulu kimi metodlarla həyata keçirilir. Parantez açaraq qeyd edək ki, respublikamızda xarici ticarət əməliyyatları yerli qanunlarla yanaşı, beynəlxalq konvensiya və sazişlərlə də tənzimlənir. Belə ki, xarici ticarətin tənzimlənməsində dövlətlər aşağıdakı təsir vasitələrindən istifadə edir:

- dövlətlərarası razılaşmalar və müqavilələr;
- gömrük tarifləri;
- ixrac və idxalı stimullaşdıran tədbirlər;
- məhdudlaşdırıcı şərtlər.

Dünya ticarət təcrübəsində xarici ticarətdə alqı-satqı əməliyyatlarının tənzimlənməsi əsasən aşağıdakı mənbələr üzərində tətbiq olunur:

- "Malların beynəlxalq alqı-satqı müqavilələri haqqında" Birləşmiş Millətlər Təşkilatının konvensiyası;

- "Malların beynəlxalq alqı-satqısında iddia müddətləri haqqında" Birləşmiş Millətlər Təşkilatının konvensiyası;

- "Malların beynəlxalq alqı-satqısı müqavilələrinə tətbiq edilən hüquqlar haqqında" konvensiya;

- Digər ikitərəfli və çoxtərəfli müqavilələr və s.

Qeyd edək ki, Azərbaycan Respublikası da qlobal dünyanın bir hissəsi olduğundan yuxarıda sadalanan konvensiyalar bizim respublikanın təsərrüfat subyektlərinin beynəlxalq miqyasda apardıqları idxal-ixrac əməliyyatlarına da aid edilir (http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file =29).

*İqtisadçı alimlərin elmi araşdırmalarına əsaslanaraq qeyd edə bilərik ki, xarici ticarət-iqtisadi əlaqələrin tənzimlənməsinin nəzəri-metodoloji və praktiki problemləri həmişə iqtisad elminin diqqət mərkəzində olmuşdur. Belə ki, tarixi təkamül prosesində iqtisadçı alimlərin xarici ticarətin tənzimlənməsi ilə bağlı fikirləri ümumiləşdirilib iki istiqamət üzrə inkişaf etdirilmişdir: fritrederçilik (azad ticarət) və proteksionizm (himayəçilik)...* (Şəkərəliyev A.Ş., 2011: s. 73)

Bu haqda verdiyimiz məlumatlara əlavə olaraq qeyd edək ki, azad ticarət tərəfdarlarının fikrincə, fritrederçilik siyasəti sərbəst ticarətin təmin edilməsi olub, burada gömrük orqanları sadəcə gömrük ərazisindən keçən malların və nəqliyyat vasitələrinin qeydiyyatını aparan orqan rolunu oynayır. Bu siyasət xarici ticarət dövriyyəsini idxal və ixrac rüsumları ilə məhdudlaşdırmır, əksinə iqtisadiyyatdakı səmərəlilik itkilərinin, istehsal və istehlak pozuntularının qarşısını alır. Hələ XIX əsrdə azad ticarət siyasəti Böyük Britaniyanın rəsmi xarici iqtisadi siyasəti olmuşdur. Yaşadığımız çağdaş dövrdə isə Çinin tərkibində olan və fərqli iqtisadi siyasət həyata keçirən Honkonq tarif və ya idxal kvotalarına malik olmayan yeganə iqtisadiyyatdır (http:// www.rusimpex.ru – Rusiya xarici ticarət mərkəzi).

Aparılan araşdırmaya əsasən deyə bilərik ki, xarici ticarətin tənzimlənməsi istiqamətlərindən biri olan azad ticarət siyasəti yüksək effektli iqtisadiyyata sahib olan ölkələrə çox uyğundur. Çünki bu ölkələrin sahibkarları xarici rəqabətə davam gətirə biləcək qədər güclü potensiala malikdirlər.

Xarici ticarət əməliyyatlarının tənzimlənməsinin dünya təcrübəsinə nəzər yetirdikdə, proteksionist siyasətdən daha çox istifadə olunduğunun şahidi oluruq. Xarici ticarət əməliyyatlarının proteksionist siyasət əsasında tənzimlənməsinin dünya dövlətlərində geniş vüsət tapmasının başlıca səbəbi dünya ölkələrinin böyük əksəriyyətinin iqtisadi inkişaf səviyyələrinin aşağı olmasıdır ki, bu da bu ölkələrin daxili bazarlarına həddindən artıq daxil olan xarici malların qarşısını almaq üçün tətbiq edilən müdafiə tədbiridir. Qeyd edək ki, hətta iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin də müəyyən sahə və müəssisələrinin dövlət tənzimləməsinə ehtiyacları olur. Dövlətlərin xarici ticarət əməliyyatlarına nəzarəti və məhdudiyyətləri bu və digər mallara qarşı müəyyən fəsillərdən asılı olaraq dəyişir. Ona görə də xarici ticarətin tənzimlənməsi məqsədi ilə işlədilən alətlər hədsiz müxtəlifdir.

Xarici ticarətin tənzimlənməsi istiqamətlərindən biri olan proteksionizm siyasətinin real məqsədi dövlət büdcəsini gəlirlərlə təmin etməkdən, yerli sənaye sahələrini idxal ilə rəqabətin nəticəsi olan aşağı qiymətlərdən mühafizə etməkdən və ölkənin iqtisadi təhlükəsizliyini qorumaqdan ibarətdir. Tarif və qeyri-tarif metodları ilə xarici ticarətin tənzimlənməsini nəzərdə tutan proteksionist siyasət

ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin edir və əmtəənin qiyməti ilə təklif səviyyəsi arasındakı düz mütənasiblik kontekstindən yanaşaraq yerli istehsalın öz fəaliyyətini genişləndirməsini stimullaşdırır.

Dünya iqtisadiyyatının mövcud vəziyyəti, başqa sözlə desək, ölkələr arası rəqabətin güclənməsi, transmilli korporasiyaların dünya təsərrüfat sistemindəki rolunun artması və s. müxtəlif iqtisadi nəzəriyyələrin xarici ticarətin tənzimlənməsinə münasibətdə irəli sürdüyü bu və ya digər mülahizələrə diqqətlə və kreativ yanaşmanı tələb edir. Belə ki, müasir dövrdə dünya iqtisadiyyatında baş verən köklü keyfiyyət dəyişiklikləri nəticəsində xarici ticarət-iqtisadi əlaqələr mürəkkəb bir sistemə çevrilmiş və bu sistemin ayrılıqda hər bir ölkədə milli iqtisadiyyatın inkişafına təsiri xeyli güclənmişdir. Mələsən, "8 noyabr 2005-ci il tarixində ABŞ və Çin hökumətləri arasında bağlanmış dövlətlərarası razılaşmaya əsasən Çin hökuməti müxtəlif növ geyim və tekstil məhsullarının ABŞ-a ixracına kvotalar tətbiq etməyə razılıq verdi. Tətbiq edilən kvota nəticəsində 2006-cı ildə Çindən ABŞ-a ixrac ediləcək corab cütünün sayı 772,8 milyonu aşmayacaqdı. Sözügedən razılaşma Amerika istehlakçılarının alıcılıq qabiliyyətinə mənfi təsir göstərmişdi. Belə ki, bu razılaşma Amerikada corab qiymətlərinin bahalaşmasına səbəb olmuşdu" (Kruqman P.R., Obstfeld M., Melitz M.C., 2018: s. 264). Fikrimizcə, xarici ticarətin tənzimlənməsi zamanı azad ticarət və ya proteksionist siyasətdən istifadə edərkən xərc-fayda analizinin həyata keçirilməsi zəruridir. İrəli sürdüyümüz fikrimizin əsaslı olduğunu dünya ölkələrinin təcrübəsi də sübut edir. Belə ki, xarici ticarətin tənzimlənməsində dünya ölkələrinin beynəlxalq təcrübəsi göstərir ki, hər bir ölkənin beynəlxalq rəqabətdə strategiyasının reallığı əlverişli iqtisadi əsasa söykənməlidir. Buna görə də "Azərbaycan Respublkikası öz xarici iqtisadi siyasətini həyata keçirərkən göstərilən istiqamətlərdə səmərəlilik prinsipindən çıxış etməklə xarici ticarət əlaqələrinin optimal inkişafının perspektivləri üçün əlverişli zəmin yaratmalıdır" (Şəkərəliyev Ş.A., Şəkərəliyev Q.A., 2016: s. 218).

Mürəkkəb bir sistemə çevrilmiş xarici ticarətin milli iqtisadiyyatların inkişafına təsiri özünü aşağıda qeyd etdiyimiz hadisələr şəklində təzahür etdirir:

1. dünya bazarında rəqabətin gərginləşməsi;

2. valyuta kursunun destabilizasiyası;

3. ödəmə balansının müvazinətsizliyi;

4. Covid-19 pandemiyası müddətinin uzanması ilə əlaqədar inkişaf etməkdə olan ölkələrin xarici borclarının çoxalması və s (Quliyev E.A., Mehrəliyev İ.İ., 2011).

Qeyd etdiklərimiz xarici ticarətin tənzimlənməsinin nə dərəcədə önəmli olduğunu bir daha göstərir. Məhz bu baxımdan xarici ticarətin tənzimlənməsi zamanı istifadə edilə biləcək metod və alətləri nəzərdən keçirmək olduqca vacibdir. Bildiyimiz kimi, xarici ticarətin tənzimlənməsi alətlərindən biri olan tariflər idxal olunan mallara tətbiq edilən vergidir. Xarici ticarətin tarif tənzimlənməsi dedikdə, xarici iqtisadi əlaqələrin gömrük rüsum və vergiləri vasitəsilə tənzimlənməsi başa düşülür. Xarici ticarətin tarif tənzimlənməsinə, eyni zamanda, dövlətin xarici ticarət-iqtisadi əlaqələrə qiymətəmələgətirmə mexanizmi vasitəsilə təsir göstərən tədbirləri kimi baxmaq olar. Tarif tənzimləməsi ilə bağlı müxtəlif tədqiqatçıların müxtəlif yanaşmalarının olmasına baxmayaraq, fikrimizcə, “Xarici ticarət əməliyyatlarının tarif tənzimlənməsi mexanizmi” adlı məqalənin müəllifi olan iqtisad üzrə fəlsəfə doktoru P.Q. Rzayevin iqtisadi baxışları reallığı daha çox əks etdirir. Belə ki, i.ü.f.d. P.Q. Rzayevə görə “Xarici ticarət əməliyyatlarının tarif tənzimlənməsi gömrük sərhədindən keçirilən bütün maddi və intellektual mülkiyyət obyektləri üzərində aparılan iqtisadi tənzimləmə alətidir” (Rzayev P.Q., 2011: s. 48-49). Məhz bu baxımdan qeyd edə bilərik ki, belə iqtisadi tənzimləmə alətinin xarici ticarət sferasında aparılan əməliyyatlara müdaxiləsi işlək bir mexanizm yaradır.

Xarici ticarətin tarif tənzimlənməsi aşağıdakı funksiyaları yerinə yetirir:

1. Malların idxal və ixracının tənzimlənməsi funksiyasını;

2. Büdcənin doldurulmasını təmin edən fiskal funksiyanı;

3. Yerli istehsalçıların xarici rəqabətdən qorunması funksiyasını;

4. Ticarət siyasəti funksiyasını.

İdxal olunan mallara tətbiq edilən tariflərin təsiri özünü əmtəələrin ölkəyə çatdırılma xərclərinin artırılmasında göstərir. İdxal olunan mallara tariflərin tətbiqi

həmin malların yerli istehsalçılarının qoyduğu qiyməti qaldırır. Bu nəticə xarici ticarətin tənzimlənməsi aləti olan tariflərin əsas məqsədi olub yerli istehsalçıları idxal ilə rəqabətin nəticəsi olan aşağı qiymətlərdən mühafizə edir. Lakin idxal olunan mallara tariflərin tətbiqi istehlakçıların gəlirlərinin dövlət büdcəsi və istehsalçıların xeyrinə yenidən bölgüsünə səbəb olur. Bu zaman istehsalçıların və dövlətin bərabər olan ümumi gəlirləri istehlakçıların itkilərinə münasibətdə azlıq təşkil edir. Başqa sözlə desək, idxal mallarına tariflərin tətbiqi bəzən cəmiyyətin rifahının itkisi ilə nəticələnir (Menkyu N.Q., 2009).

Araşdırmada qısaca olaraq qeyri-tarif tənzimləmə metodları ilə xarici ticarətin tənzimlənməsini də nəzərdən keçirmək istəyirik. Bunun başlıca səbəbi qeyri-tarif tənzimləmələrinin artım tendensiyasına malik olması və son onillikdə dünya ölkələrinin əksəriyyətində qeyri-tarif tənzimləmə tədbirlərinin praktikada nadir istisnalarla xarici ticarətin tənzimlənməsində öz tətbiqini tapmasıdır.

A.M. Məhərrəmov və H.H. Aslanovun fikrincə, “qeyri-tarif məhdudiyyətləri xarici ticarət dövriyyəsində güclü tənzimləyici alət kimi çıxış edən və öz xarakteri etibarilə tarif tənzimlənməsi metodu hesab edilməyən inzibati tənzimləmə alətlərinin məcmusudur” (Məhərrəmov A.M., Aslanov H.H., 2008: s. 284). Müxtəlif iqtisadçı alimlərin qeyri-tarif məhdudiyyətləri ilə bağlı baxışlarının araşdırılması nəticəsində belə bir qənaətə gəlmişik ki, qeyri-tarif məhdudiyyətləri dövlət tərəfindən təsbit edilmiş və idxal və ixracına icazə verilmiş malların miqdarını və çeşidini müəyyən edən birbaşa inzibati normalardır. Bir faktı qeyd edək ki, qeyri-tarif məhdudiyyətləri idxal ediləcək malların növü və miqdarı ilə yanaşı, bəzən ölkələrin əhatə dairəsini də məhdudlaşdırır. Qeyri-tarif məhdudiyyətləri, həmçinin ayrı-ayrı ölkələrlə olan ticarət əlaqələrindəki qeyri-tarazlığın aradan qaldırılması və bəzi ölkələrin ayrı-seçkilik fəaliyyətlərinə cavab tədbirlərinin görülməsi məqsədilə istifadə edilə bilər. Əksər hallarda qeyri-tarif məhdudiyyətləri dövlət tərəfindən ölkənin ehtiyac duyduğu mallara tətbiq edilir.

Xarici ticarətin tənzimlənməsində ən çox istifadə edilən qeyri-tarif tədbirləri aşağıdakılardır:

- İxrac subsidiyaları. İxrac subsidiyaları malları xarici ölkəyə satışa çıxaran

şirkət və ya şəxsə olan ödənişdir.

- Kvotalaşdırma. Xarici ticarətin kvotalaşdırılması onun lisenziyalaşdırılması ilə həyata keçirilir. Belə ki, dövlət müəyyən həcmdə məhsulun idxalına və ixracına lisenziya verır və eyni zamanda qeyri-lisenziyalı ticarəti qadağan edir. Lisenziyalaşdırma xarici ticarət siyasətində müstəqil alət mahiyyəti də ala bilər ki, burada dövlətin hər hansı bir idxalatçıya yalnız bir ölkədən və istənilən qədər mal gətirməyə icazə verməsini göstərmək olar.

- İdxal kvotası müəyyən əmtəənin idxal oluna biləcək miqdarına qoyulan birbaşa məhdudiyyətdir. Məhdudiyyət, adətən müəyyən fərdlərdən ibarət qruplara və ya şirkətlərə imtiyazlar verməklə tətbiq olunur.

- Könüllü ixrac məhdudlaşdırmaları. Könüllü ixrac məhdudiyyətləri idxal kvotasının bir növü olub idxalatçı tərəfindən yox, ixracatçı ölkə tərəfindən tətbiq olunan ticarət kvotasıdır.

- Demping və antidempinq;

- Beynəlxalq karterlər ixracatçıların inhisarçı birləşmələri olub, sərfəli qiymətlər müəyyən etmək məqsədilə istehsalın həcmi üzərində nəzarəti təmin etməklə satıcılar arasında rəqabəti məhdudlaşdırırlar. Bu cür kartellər adətən məhdud satıcıları və qiymət üzrə tələbin öz elastikliyi ilə xarakterizə olunan xammal və kənd təsərrüfatı malları üzərində qurulur.

- İqtisadi sanksiyalar – xarici ticarətin dövlət tərəfindən məhdudlaşdırılmasının ən son variantı kimi çıxış edir.

*Dünya təcrübəsinə əsaslanaraq qeyd edək ki, tariflərin əhəmiyyəti bir qədər azalmışdır. Çünki müasir dövlətlər öz yerli sənaye sektorlarını qorumaq üçün idxal kvotaları və ixrac məhdudiyyətləri kimi müxtəlif qeyri-tarif tənzimlənmə metodlarından istifadə edirlər. Lakin bütün bunlara baxmayaraq söyləyək ki, gənc Azərbaycan dövlətinin xarici iqtisadi fəaliyyətinin tənzimlənməsində tarif aparatının rolu sonsuzdur. Çünki qeyri-tarif tənzimlənmələrindən fərqli olaraq tarif tənzimlənməsi əsas etibarı ilə özünün keçərlilik və daimilik xüsusiyyəti ilə seçilir...* (Məmmədov F.Ə., Musayev A.F., Sadiqov M.M., Kəlbiyev Y.Y., Rzayev Z.H., 2010)

Araşdırmanı ümumiləşdirərək qeyd edək ki, dünya xarici ticarət təcrübəsində dövlət tənzimlənməsinin tətbiqinin genişləndirilməsindən aydın olur ki, iqtisadçı alimlər qarşısında bu istiqamətdə tədqiqat işləri aparmaq üçün geniş meydan açılır. Məhz bu baxımdan dünya iqtisadiyyatında baş verən keyfiyyət dəyişiklikləri şəraitində çağdaş tələblərə uyğun yeni xarici ticarət siyasəti formalaşdıran Azərbaycan Respublikası üçün daxili bazarın qorunmasına yönəldilmiş proteksionist siyasətin təkmilləşdirilməsi istiqamətində elmi araşdırma və axtarışların aparılması, fikrimizcə, olduqca önəmlidir.

## 3.2. Azərbaycan Respublikasında gömrük prosedurlarının tətbiqinin səmərəliliyinin qiymətləndirilməsi

Respublikamızda gömrük prosedurlarının tətbiqi səmərəliliyini araşdırarkən qeyd etmək lazımdır ki, gömrük prosedurlarının optimallaşdırılması və onların şəffaflıq səviyyəsinin yüksəldilməsi istiqamətində atılan addımlar xarici iqtisadi fəaliyyət üçün əlverişli şəraitin formalaşdırılması, hüquqi və fiziki şəxslərə göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, artıq inzibati maneələrin azaldılması, əhali rifahının yüksəldilməsi, iqtisadi inkişafın artım tempinə və işgüzar fəaliyyətə müsbət göstərməsi zərurətindən irəli gəlir.

Ölkəmizdə gömrük prosedurlarının tətbiqi səmərəliliyini qiymətləndirərkən gömrük prosedurunu mal və nəqliyyat vasitələri ilə əlaqəli xarici iqtisadi fəaliyyət iştirakçıları və gömrük orqanları tərəfindən həyata keçirilən hərəkətlərin məntiqi ardıcıllığını özündə cəmləşdirən məqsədyönlü, nizamlı bir proses kimi nəzərdən keçirəcəyik. Qeyd edək ki, gömrük prosedurunun tətbiqi səmərəliliyinin əsas göstəricisi idxal-ixrac əməliyyatlarına tənzimləyici təsirlərin göstərilməsinin tamlıq dərəcəsidir. Təklif olunan konsepsiya və modellərdən asılı olmayaraq gömrük prosedurlarının inkişafı prosesi gömrük prosedurlarının həyata keçirilməsi ilə onların etibarlılıq göstəricilərinin eyni səviyyədə saxlanılması və ya yüksəldilməsi arasında səmərəli balansın tapılmasına istiqamətlənmişdir.

Xarici iqtisadi fəaliyyət iştirakçıları nöqteyi-nəzərindən gömrük orqanlarının gömrük prosedurlarının həyata keçirilməsi zamanı irəli sürdükləri tələblər əlavə qeyri-tarif maneələri kimi izah edilir. Bu cür maneələr daxili bazarda malların qiymətini artırsa da, tənzimləyici xarakter daşımır. Bu cür maneələrin xarici iqtisadi fəaliyyət iştirakçıları tərəfindən mənfi qiymətləndirilməsi gömrük prosedurlarının həyata keçirilməsinin birbaşa xərcləri ilə əlaqədar iştirakçıların xarici ticarət əməliyyatlarından əldə etdikləri gəlirin azalması və tədarük dövriyyəsinin əhəmiyyətli dərəcədə aşağı düşməsi ilə bağlıdır. Bu zaman xarici iqtisadi fəaliyyət iştirakçıları idxalçı ölkənin bazarında mallarının qiymətini artıraraq gəlirlərinin azalmasını kompensasiya edə bilərlər. Bu halda xarici iqtisadi fəaliyyət iştirakçılarının mallarına olan tələbin və idxalçı ölkəyə mal tədarükünün

azalmasına baxmayaraq qiymətin artan hissəsini alıcı ödəməli olacaqdır. Maneələrin tənzimləyici təsirinin olmadığı və onların aradan qaldırılmasına əlavə vəsaitlərin xərcləndiyi bir şəraitdə maneələrin gömrük rüsumlarından fərqli olaraq dövlət büdcəsinə gəlir gətirməməsi həm dövlət, həm də cəmiyyət tərəfindən maneələrin mənfi dəyərləndirilməsinə səbəb olur. Məhz bu baxımdan həm dövlət, həm də xarici iqtisadi fəaliyyət iştirakçıları bu cür maneələrin azaldılmasında maraqlıdırlar. Ancaq onların maraqları bir qədər fərqlidir. Xarici iqtisadi fəaliyyət iştirakçıları üçün tənzimləyici tədbirlərin tətbiqini təmin etmək baxımından gömrük prosedurlarının etibarlılıq dərəcəsinə baxmayaraq maneələrin azaldılması vacibdir, bir şərtlə ki, maneələrin bu cür azaldılması xarici iqtisadi fəaliyyətin bütün iştirakçılarına bərabər tətbiq olunsun. Əks halda haqsız rəqabətin ilkin şərti yaranacaqdır. Dövlət üçün maneələr azaldılarkən gömrük prosedurlarının etibarlılığının ən azı eyni səviyyədə qalması və ya ən yaxşı halda artması və bu zaman bu cür islahatlara çəkilən xərclərin onun mənfəətli nəticələrini ötməməsi vacibdir. Bu zaman nəzərə almaq lazımdır ki, gömrük prosedurlarının tətbiqi səmərəliliyi xarici iqtisadi fəaliyyət iştirakçılarının maraqları nəzərə alınmaqla dövlət tərəfindən və dövlətin şəxsi maraqları nöqteyi-nəzərindən müəyyən edilir.

Xarici ticarət iştirakçıları tərəfindən əlavə qeyri-tarif maneəsi kimi qəbul edilən yeni gömrük prosedurlarının tətbiqinin əsas mənfi göstəricilərinə daxildir:

- gömrük sərhədindən daşınan malların gömrük rəsmiləşdirilməsi vaxtı;
- gömrük rüsumları gömrük rəsmiləşdirilməsi, gömrük müşayiəti üzrə göstərilən xidmətlərin qiymətindən xeyli yüksək olduqda;
- malların müvəqqəti saxlanc anbarında saxlanması üçün yüksək tarif dərəcələrində qalma müddəti;
- sənəd dövriyyəsinin əmək tutumu və gömrük rəsmiləşdirilməsi üçün tələb olunan sənədlərin sayı.

Gömrük prosedurlarının təkmilləşdirilməsi prosesində müsbət göstəricilərin azalmaması şərti ilə mənfi göstəricilərin hər hansı birindəki azalma gömrük prosedurlarının tətbiqi səmərəliliyinin artması kimi qiymətləndirilir.

Gömrük prosedurlarının uğurlu təkmilləşdirilməsi məqsədilə beynəlxalq təcrübədən istifadə edərkən müəyyən bir ölkəyə xas olan xüsusiyyətləri, amil və şərtləri və onların bir ölkənin və ya ölkələr qrupunun eyni adlı amillərinin səviyyəsindən fərqlənməsi dərəcəsini təhlil etmək lazımdır. Qeyd edək ki, təhlil nəticəsində müəyyənləşdirilən əhəmiyyətli fərqlər gömrük prosedurlarının təkmilləşdirilməsinin səmərəliliyinin azalmasına səbəb ola bilər. Aİ ölkələrinin gömrük prosedurlarının əlverişliliyi və bu birliyə daxil olan ölkələrin gömrük qanunvericiliyinə tam riayət edilməsi digər ölkələrin öz gömrük təcrübələrində bu cür gömrük prosedurlarının tətbiqinə cəhd etmələrinə səbəb olmuşdur. Ancaq əsl həqiqətdə isə gömrük prosedurlarının həyata keçirilməsi üçün çəkilən xərclərin əhəmiyyətli dərəcədə artması və ya azalması onların etibatlılığının aşağı düşdüyünü göstərir ki, bu da gömrük orqanlarının müdafiə və fiskal funksiyalarının zəifləməsinə səbəb olur. Beynəlxalq ticarətin sadələşdirilməsi nəticəsi olan ölkənin itkisi gömrük orqanlarının və xarici iqtisadi fəaliyyət iştirakçılarının vəsaitlərinə qənaətlə ölçülə bilməz. Fikrimizcə, Azərbaycan Respublikasında gömrük prosedurlarının tətbiqi səmərəliliyinin dəyərləndirilməsi ölkə iqtisadiyyatının xüsusiyyətlərinin, xarici ticarət təcrübəsinin və gömrük fəaliyyəti ilə sıx əlaqəli digər amillərin qiymətləndirilməsinə əsaslanmalıdır.

Yerli və xarici iqtisadçı alimlərin fikrincə, gömrük prosedurlarının inkişafı amillərinə aid edilməlidir:

- xarici iqtisadi fəaliyyət təcrübəsinin çətinləşməsi, prinsipcə yeni ticarət və logistik əməliyyat növlərinin meydana çıxması;
- beynəlxalq ticarətin qloballaşması, transmilli korporasiyalar daxilində sənəd dövriyyəsinin sadələşdirilməsi və şəffaflığın artması mürəkkəb gömrük prosedurlarının tətbiqini tələb etmir;
- gömrük prosedurlarını tətbiq edərkən xarici ticarətin gömrük-tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərinə tam olaraq riayət edilməsinə cəhd göstərilməsi;
- gömrük prosedurlarının həyata keçirilməsi səylərindən irəli gələn əlavə maneələri azaltmaq cəhdi;
- informasiya texnologiyalarının inkişafı və elektron məlumatların mübadiləsi;

- beynəlxalq ticarət sahəsində dövriyyədə olan fəaliyyət texnologiyalarının, sənədlər və məlumatların uyğunlaşdırılmasını tələb edən müxtəlif ölkələrin gömrük xidmətlərinin inteqrasiyası;

- ölkə rəhbərliyinin siyasi qərarları.

Gömrük prosedurlarının inkişafını məhdudlaşdıran amillərə aşağıdakılar daxildir:

- gömrük prosedurlarının həddindən artıq sadələşdirilməsinin onun tətbiqi səmərəliliyinin azalmasına səbəb olması;

- xarici iqtisadi fəaliyyət iştirakçılarının xeyrinə gömrük prosedurlarının sürətləndirilməsi və sadələşdirilməsi;

- təchizatın yenilənməsi, kadr hazırlığının həyata keçirilməsi ilə bağlı böyük xərclər tələb edə biləcək gömrük prosedurlarının inkişafı;

- informasiya sistemlərinin dayanıqlığını artırmaq və məlumatların qorunmasını təmin etmək məqsədilə informasiya texnologiyalarından və elektron məlumat mübadiləsindən istifadə;

- həyata keçirilmə ehtimalı ilə ölçülə bilməyən siyasi qərarlar.

Xarici iqtisadi fəaliyyət iştirakçıları üçün xüsusi gömrük prosedurlarının tətbiqi səmərəliliyi, fikrimizcə, gömrük orqanları tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin dəyişməməsi şərtilə maddi, əmək və digər resurslardan istifadənin mümkün qədər azaldılmasına nail olmaq kimi müəyyən edilməlidir. V.V.Makrusev və V.Y.Dianovaya əsaslanaraq qeyd etmək lazımdır ki, bu qarşılıqlı əlaqənin subyektlərindən asılı olaraq gömrük xidmətlərinin səmərəliliyi müəyyən bir fərqə sahibdir. Buna görə də gömrük xidmətlərinin səmərəliliyini həm bəyannaməçi, həm də gömrük orqanının mövqeyindən müzakirə etmək məqsədəuyğundur (Макрусев В.В., Дианова В.Ю., 2009).

Gömrük orqanlarının mövqeyindən çıxış edərək bildirək ki, gömrük xidmətlərinin səmərəliliyi xidmətlərin göstərilməsi zamanı gömrük əməliyyatları və ya əsaslandırılmış hərəkətlərin minimuma endirilməsindən ibarətdir. Gömrük əməliyyatlarının və ya əsaslandırılmış hərəkətlərin yerinə yetirilməsinin minimuma endirilməsi gömrük xidmətlərinin keyfiyyətinin dəyişməməsi şərtilə zaman, maddi,

əmək və digər resurslardan istifadəni minimumlaşdırmağa və son nəticədə gömrük orqanlarının fəaliyyətinin səmərəliliyinin artımının təmin edilməsinə imkan verir. Xarici ticarət fəaliyyətinin iştirakçıları üçün gömrük xidmətlərinin səmərəliliyinin əsası kimi gömrük orqanları tərəfindən gömrük əməliyyatlarının minimuma endirilməsi nəticəsində gömrük xidmətlərinin göstərilmə vaxtının azaldılması çıxış edir. Bu da mal və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilərkən logistika xərclərinin azalmasına səbəb olur.

Gömrük prosedurlarının təkmilləşdirilməsinin konkret yollarını təhlil edərkən təkmilləşdirmə nəticəsində yarana biləcək müsbət və mənfi təsirləri ölçmək və müqayisə etmək lazımdır. Bu zaman müsbət və mənfi təsirlərin nisbəti kimi səmərəlilik dövlət və iş dünyası mövqeyindən qiymətləndirilir. Parantez açaraq bir faktı qeyd etmək lazımdır ki, gömrük prosedurlarının inkişafı nəticəsində gömrük orqanlarının cari fəaliyyətinin xərcləri ilə nəticələrinin nisbətinin necə dəyişəcəyini, gömrük prosedurlarının inkişafı prosesinə çəkilən xərclərin özünü doğruldacaqmı məsələsini qiymətləndirmək vacibdir.

Aşağıdakı gömrük xidmətlərinin səmərəliliyini müəyyənləşdirmək məqsədəuyğundur:

- malların mənşə ölkəsinə dair ilkin qərarların qəbulu və dəyişdirilməsi;
- xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun olaraq malların təsnifatı barədə ilkin qərarların qəbul edilməsi;
- malların Azərbaycan Respublikası gömrük ərazisindən kənara faktiki ixracının təsdiqlənməsi;
- xüsusi gömrük rəsmiləşdirmə prosedurlarının yaradılması;
- malların müvəqqəti saxlanc anbarlarında və gömrük orqanlarına məxsus gömrük anbarlarında saxlanılması;
- gömrük rüsumları və vergilərinin ödənmə müddətinin dəyişdirilməsi;
- gömrük işi sahəsindəki hüquqi aktlar barədə məlumatlandırma;
- gömrük işləri ilə bağlı və gömrük orqanlarının səlahiyyətlərinə aid digər məsələlər üzrə məsləhətlərin verilməsi;
- gömrük sahəsində fəaliyyət göstərən şəxslərin reyestrə daxil edilməsi;

- gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas sertifikatlarının verilməsi.

Gömrük orqanları tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, xarici iqtisadi fəaliyyət iştirakçılarının və dövlətin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti ilə bağlı xərclərinin azaldılması aşağıdakı taktiki tapşırıqların icrası yolu ilə əldə edilə bilər:

1. malların gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti zamanı gömrük prosedurlarının sadələşdirilməsi və gömrük əməliyyatlarının sürətləndirilməsi;

2. gömrük orqanlarının fəaliyyətinin məlumatlandırılmasının artırılması və informasiya şəffaflığı;

3. respublika ərazisindən malların tranziti üçün əlverişli şəraitin yaradılması;

4. risklərin idarə edilməsi sisteminin tətbiqinə əsaslanan gömrük nəzarətinin seçmə metodlarının geniş yayılması;

5. malların sərbəst buraxılışı barədə qərar verərkən subyektivliyin azaldılması;

6. malların gömrük nəzarətinin əsas gömrük rəsmiləşdirilməsi mərhələsindən malların Azərbaycan Respublikası gömrük ərazisinə gəlməsindən əvvəlki və habelə malların sərbəst dövriyyəyə buraxılmasından sonrakı mərhələyə keçməsi;

7. gömrük orqanlarındakı korrupsiyaya və qanun pozuntularına qarşı mübarizə.

Aşağıda qeyd etdiyimiz vəzifələrin həlli səmərəliliyinin qiymətləndirilməsi məqsədilə xüsusi gömrük prosedurlarının tətbiqinin səmərəlilik göstəricilərinin hesablanması qaydası verilmişdir (Əlavə 1.) (Mahmudov C.İ., Bağırsoylu H.Q., 2019).

Gömrük prosedurlarının yüksək keyfiyyət səviyyəsi hər bir fərdi gömrük əməliyyatı üçün keyfiyyətin idarə edilməsi sisteminin tətbiqi ilə təmin ediləcəkdir. Gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti təcrübəsində elmi tədqiqat işlərinin, ekspert-araşdırma texnologiyalarının aparılması və tətbiqi gömrük orqanlarının elmi-texniki potensialının inkişafına kömək edəcək və daha yüksək keyfiyyətdə xidmət göstərməyə imkan verəcəkdir. Azərbaycan Respublikası gömrük orqanlarının inkişaf istiqamətlərinin kompleks reallaşdırılması gömrük sahəsində

dövlət maraqlarını təmin edən müasir bir sistem formalaşdırmağa, ölkənin təhlükəsizliyinə olan təhdidlərə qarşı effektiv müqavimət göstərməyə, ticarət icmalarının, fiziki və hüquqi şəxslərin fəaliyyəti üçün əlverişli şərait yaratmağa, sosial-iqtisadi problemləri həll etməyə imkan verəcəkdir.

### 3.3. Respublikada xüsusi gömrük prosedurlarından istifadə etməklə xarici ticarət tənzimlənməsinin inzibati mexanizminin daha da təkmilləşdirilməsi məsələləri

Daim dəyişən dünya iqtisadi və siyasi mühiti dünya ticarətində də mühüm dəyişikliklərə səbəb olur. Bu fakt, eyni zamanda, xarici ticarətin tənzimlənməsi sahəsində də dəyişikliklərin həyata keçirilməsini tələb edir ki, bu da xarici ticarətin tarif və qeyri-tarif tənzimlənməsi və onların ətraf mühit şərtlərinə uyğunlaşdırılması tədbirlərinə, o cümlədən də xüsusi gömrük prosedurları vasitəsilə xarici ticarətin tənzimlənməsinə birbaşa aiddir. Məhz bu baxımdan qeyd edə bilərik ki, xarici ticarətin tənzimlənməsi prosesinin və onun mexanizmlərinin təkmilləşdirilməsinə böyük ehtiyac vardır. Fikrimizcə, xarici ticarətin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi üçün ilk əvvəl ətrafımızdakı, dünya iqtisadi sistemindəki baş verən dəyişiklikləri nəzərdən keçirmək lazımdır.

*Qloballaşma prosesinin dərinləşməsi və xarici iqtisadi əlaqələrin liberallaşmasının güclənməsi əsasında milli iqtisadi sistemlərin vahid bir iqtisadi sistem halında birləşməsi, milli iqtisadiyyatların qarşılıqlı asılılığının artması post sənaye dövrünə yeni çalarlar qatmışdır. İqtisadiyyat elmi sahəsindəki nailiyyətlərinə görə Nobel mükafatına layiq görülmüş Cozef E.Stiqlitz qloballaşma prosesini və milli iqtisadi sistemlərin qarşılıqlı asılılığını belə izah edir: "Milli iqtisadi sistemlərin qarşılıqlı asılılığı beynəlxalq hesablaşmalardakı pozulmaz bir qanuna bənzəyir. Belə ki, dünya üzrə bütün kəsirlərin məbləği bütün müsbət saldoların məbləğinə bərabərdir. Bu isə o deməkdir ki, əgər Çin və Yaponiya müsbət ticarət saldosuna malikdirlərsə və bu məlumatı elan edirlərsə, onda bir sıra digər ölkələr ticarət kəsirinə malikdirlər"*...(Stiqlitz C.E., 2004: s. 229).

"Millət-dövlətlər arasındakı maneələrin tamamən ortadan qaldırılması ilə ölkələrin intensiv inteqrasiyasını təmin edən qloballaşma prosesi istehsalçıların

beynəlxalq dövriyyəyə cəlb olunması, qlobal miqyasda daha səmərəli əmək bölgüsü, habelə istehsal güclərinin yerləşdirilməsindəki disproporsiyaların aradan qaldırılması üçün yeni imkanlar açmışdır" (Natiq Sabiroğlu, 2006). Belə ki, inkişaf etmiş sənaye ölkələri ilə inkişaf etməkdə olan ölkələr arasındakı müvafiq məhsulların istehsalı üzrə ixtisaslaşma əsasında əmək bölgüsünün inkişaf etdirilməsindən əldə edilən səmərə inkişaf etmiş ölkələrin özləri arasında əmək bölgüsünün dərinləşdirilməsinin səmərəliliyindən daha artıqdır.

> *Milli iqtisadiyyatlar arasındakı qarşılıqlı asılılıq xarici iqtisadi fəaliyyət strategiyasının müəyyənləşdirilməsi və xarici ticarətin tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi üçün daxili tələbat və mövcud iqtisadi potensialın əsas götürülərək məqsədlər sisteminin formalaşdırılmasını tələb edir. Bu zaman əməli fəaliyyət üçün ən yaxşı metodiki üsul ölkədaxili proseslərin dünya təsərrüfat sisteminin inkişaf meylləri və qanunauyğunluqları ilə uzlaşdırılması hesab olunmalıdır...* (Şəkərəliyev A.Ş., 2011: s. 80).

Ölkəmizdə xarici ticarətin tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi istiqamətində görülən və ya görüləcək işlər xarici ticarət-iqtisadi əlaqələrin tənzimlənməsinin ümumi qaydalarını nəzərə almalı, çoxtərəfli beynəlxalq sazişlərin tənzimləmə alətlərinə, onların tətbiq sahəsindəki norma və qaydalara, onlardan istifadə imkanlarına qoyulan tələblərə cavab verməlidir. Bu baxımdan ayrı-ayrı ölkələrin xarici iqtisadi əlaqələrinin dövlət tənzimlənməsi təcrübəsinin öyrənilməsi xarici ticarətin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi nöqteyi-nəzərindən məqsədəuyğun olardı. Bu qayədən çıxaraq ayrı-ayrı ölkələrin xarici iqtisadi əlaqələrinin tənzimlənməsi xüsusiyyətlərini nəzərdən keçirək və bu təcrübələrin araşdırılması əsasında müəyyənləşdirilmiş yeni yanaşmalardan xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsində istifadə etmək olar.

ABŞ təcrübəsi haqqında danışarkən ilk əvvəl qeyd edək ki, ABŞ-da xarici ticarətə dövlət inhisarı yoxdur. Dövlət ticarət-iqtisadi fəaliyyətin müxtəlif aspektlərini qanunlar vasitəsilə tənzimləyir. ABŞ konstitusiyası xarici dövlətlərlə ticarətin tənzimlənməsi səlahiyyətlərini ABŞ konqresinə verir və onun razılığı olmadan heç bir ştat idxal və ya ixraca vergi tətbiq edə bilməz, xarici dövlətlərlə

hər hansı bir razılaşma və ya müqavilə bağlaya bilməz. ABŞ konstitusiyasına görə ştatlar bəzi yerli vergiləri azaltmaq və ya ləğv etməklə xarici investisiyalar üçün əlavə stimul yarada, ərazisində yaradılan xarici ticarət zonaları rejiminin işlənib hazırlanmasında iştirak edə, ərazilərindəki ixracın maliyyələşdirilməsinə yardım edə bilərlər.

ABŞ-da ixracın dövlət tənzimlənməsi siyasətinə daxildir:

1. Yerli mallara tələbatın və xarici bazarlara sərbəst çıxışın təmin edilməsi üçün tədbirlərin (sərgilər, kataloqlar və s.) hazırlanması və həyata keçirilməsi;

2. İstehsal olunan məhsulların rəqabət qabiliyyətliliyinin artırılmasına yönəldilmiş tədbirlər;

3. Elmi tədqiqat və araşdırma işlərinin maliyyələşdirilməsi, subsidiyalar.

Kanadada ölkənin ümumi ixrac həcminin təxminən 10%-ni təşkil edən kənd təsərrüfatı məhsullarının istehsalı və ixracında dövlət tənzimlənməsinin rolu olduqca böyükdür. Kanada şirkətlərinin xarici iqtisadi fəaliyyətlərinin inkişaf etdirilməsində ölkənin Xarici İşlər və Beynəlxalq Ticarət Nazirliyi fəal iştirak edir. Nazirlik ixracın inkişafına, kanada məhsullarının tanıdılmasına və hal-hazırda dünyanın 67 ölkəsində fəaliyyət göstərən nümayəndəliklər sistemi vasitəsilə Kanadanın ticari maraqlarının beynəlxalq bazarlarda qorunmasına kömək edir. Nazirlik xarici iqtisadi fəaliyyət sahələrinin seçilməsi, siyasi və iqtisadi münasibətlər sahəsindəki fəaliyyətlərin planlaşdırılması, təşkili və əlaqələndirilməsini həyata keçirir.

Almaniyada xarici iqtisadi əməliyyatların tənzimlənməsində ən vacib vasitə onların icrasına icazələrin verilməsidir. Xarici ticarətin əsas istiqamətləri üzrə müstəsna səlahiyyətlər aşağıdakı federal idarələrə verilir:

- kapital dövriyyəsi və ödənişlər sahəsindəki əməliyyatlar, xarici maddi aktivlər və qızıl ilə aparılan əməliyyatlar Almaniya Federal Bankının səlahiyyətindədir;
- kapital axını sahəsindəki səlahiyyətlər Almaniya Federal Maliyyə Nazirliyinə məxsusdur;

•malların və xidmətlərin dövriyyəsi sahəsində səlahiyyətlər Almaniya Federal İqtisadiyyat, Ərzaq və Meşə təsərrüfatı idarələrinə aiddir;

•Almaniyanın iqtisadi təhlükəsizliyi üçün vacib olan hallarda malların və xidmətlərin dövriyyəsi sahəsində səlahiyyətlər federal ixrac idarəsinə məxsusdur;

•nəqliyyat sferasındakı xidmətlər ilə əlaqədar səlahiyyətlər Almaniya Federal Nəqliyyat Nazirliyinin məsuliyyətindədir.

Asıya-Sakit okean bölgəsi ölkələrində (Yaponiya, Cənubi Koreya, Tayvan) sosial-iqtisadi hədəflərə nail olmağın əsas yolu dünya bazarında məhsulların rəqabət qabiliyyətliliyindən asılı olaraq sənayenin sahə strukturuna yönəldilmiş texnoloji inkişafdır. Asıya-Sakit okean ölkələri hökumətləri güzəştlər və sürətləndirilmiş amortizasiyalar vasitəsilə elmi tədqiqatları, araşdırmaları və texnoloji işləmələri stimullaşdırırlar. Bu ölkələrdə xarici bazarlarda uğur qazanan firmalara dövlət tərəfindən əhəmiyyətli dərəcədə dəstək verilir. Belə ki, yeni məhsul istehsal edən və ixrac edən müəssisələr üçün vergi güzəştləri tətbiq edilir. Məsələn; Yaponiyada bu güzəşt 50%-ə çata bilər. Bundan əlavə xüsusi imtiyazlar, subsidiyalar və güzəştli kreditlər tətbiq edilir. Kiçik və orta firmalar üçün vergi məcəlləsində vergi tutulan gəlirin 20% azaldılmasını tətbiq etməyə imkan verən xüsusi bir şərt qoyulmuşdur. Tayvan istehsalçıları üçün tətbiq edilən ixrac yönümlü vergi güzəştləri təcrübəsi diqqətəlayiqdir. Belə ki, əgər istehsal olunmuş məhsullar ölkə daxilində satılarsa, bu zaman istehsalçıdan 12 növ verginin hamısı tutulur. Əgər istehsal olunmuş məhsul ixrac olunarsa, onda əldə edilən mənfəətdən yalnız 10% həcmində bir növ vergi tutulur. Bu siyasət Asıya-Sakit okean ölkələrinin böyüməsinə və xarici bazarlara yayılmasına imkan yaratdı.

Xarici ticarət-iqtisadi əlaqələrin tənzimlənməsinin beynəlxalq təcrübəsini araşdırarkən ABŞ-ın xarici bazarlara sərbəst çıxışın təmin edilməsi siyasətindən, Kanadanın ixracın inkişafı və kanada məhsullarının tanıdılması məqsədilə yaradılan və dünyanın 67 ölkəsində fəaliyyət göstərən ticari nümayəndəliklər sistemi təcrübəsindən, Almaniyanın xarici iqtisadi əməliyyatlara icazənin verilməsi tədbirindən, Yaponiyanın güzəşt həddi 50%-ə çatan vergi güzəştləri tətbiqindən,

Tayvanın ixrac yönümlü vergi güzəştləri təcrübəsindən və s. respublikamızda istifadənin məqsədəuyğunluğu qənaətinə gəlinmişdir.

Respublikamızda xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsini şərtləndirən məsələlərdən biri çağdaş dünyamızda xarici ticarətin qeyri-tarif tənzimlənməsi prosesinin bir sıra problemlərlə üzləşməsidir. Aşağıdakı bəndlərdə qeyd edəcəyimiz bu problemləri nəzərdən keçirməklə biz xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi yollarını müəyyənləşdirə bilərik:

1. Dünyanın bir çox ölkəsində olduğu kimi ölkəmizdə də dərman vasitələrinin idxalına lisenziyalaşdırma tətbiq olunur. Qeyd etmək lazımdır ki, belə bir ictimai əhəmiyyətə malik məhsulla əlaqəli tənzimləmə tədbiri ikili təsirə malikdir. Belə ki, lisenziyalaşdırmanın müsbətyönlü təsiri idxal olunan məhsulların keyfiyyətinə zəmanət verməsindən, insanların həyati təhlükəsizliyini və sağlamlığını təmin etməsindən ibarət olmasıdır. Lisenziyalaşdırmanın mənfiyönlü təsiri dərman vasitələrinin qiymətinin artmasına səbəb olmasıdır. Məhz bu baxımdan qeyd edək ki, lisenziyalaşdırma prosedurları sadə və şəffaf olmalı, eyni zamanda, xarici ölkələrdən lazımi keyfiyyətli dərmanların tədarükünü təmin etmək üçün çox bahalı olmamalıdır. Burada söhbət başlıca problem olaraq lisenziyalaşdırma proseduruna ehtiyacdan deyil, onun həyata keçirilmə üsul və xüsusiyyətlərindən gedir.

2. Respublikamızda həyata keçirilən idxal-ixrac əməliyyatlarının və gömrük prosedurlarının planlaşdırılmasının mürəkkəbliyi. Qeyd edək ki, idxal-ixrac əməliyyatlarının və gömrük prosedurlarının planlaşdırılması mürəkkəbliyi effektiv beynəlxalq ticarətin qurulmasını əngəlləyir. Məsələn, lisenziyaya əsasən ölkələrin gömrük ərazisinə idxal və ixracına icazə verilən narkotik vasitələrin və psixotrop maddələrin siyahısının ayrı-ayrı tərkib hissələrinə bölünməməsi səbəbindən siyahıda göstərilən maddələrdən hansının narkotik vasitə və ya psixotrop maddə olduğunu müəyyən etmək üçün hər bir konkret ölkənin milli qanunvericiliyinə istinad etmək lazımdır ki, bu da işi olduqca çətinləşdirir. Qeyd edək ki, göstərilən problem bu məsələyə ortaq bir yanaşmanın olmaması ilə əlaqədardır.

3. Qeyri-tarif məhdudiyyətlərinin tətbiqi ilə bağlı müxtəlif ölkələrdə hazırlanmış müddəaların fərqli terminologiyaya malik olması dünya ölkələrində

olduğu kimi Azərbaycanda da xarici ticarətin tənzimlənməsində ciddi çətinliklərə səbəb olur.

4. Müxtəlif dünya ölkələrində olduğu kimi respublikamızda da qeyri-tarif tənzimlənmənin başlıca problemlərindən biri bürokratik əngəllərdir. Fikrimizcə, məhz bu nöqteyi-nəzərdən maksimum mümkün gömrük prosedurlarının elektronlaşdırılması, gömrük rəsmiləşdirilməsi prosesində subyektiv amillərin aradan qaldırılması problemin həlli variantları hesab edilə bilər.

5. Respublikamızın xarici iqtisadi siyasətinin əsas strateji hədəflərindən biri ÜTT-yə üzvlük məsələsidir. Respublikanın ÜTT-yə üzvlük məsələsindəki başlıca müzakirə mövzularından biri məhz xarici ticarətin qeyri-tarif tənzimlənməsi məsələsidir. Məlum olduğu kimi, ÜTT hegemon dövlətlərin mənafeyindən çıxaraq xarici ticarətin tənzimlənməsinin qeyri-tarif metodlarından mümkün qədər istifadə edilməməsi siyasətinin tərəfdarıdır. Yalnız əsaslandırılmış hallarda və qəti şəkildə müəyyənləşdirilmiş sistemə görə qeyri-tarif tənzimləmə metodlarından istifadəyə icazə verilir (Hacızadə E.M., 2018). Məhz bu baxımdan parantez açaraq qeyd edək ki, qeyri-tarif alətlərinin razılaşdırılmış tətbiqinin çoxtərəfli sisteminin fəaliyyəti xarici ticarətin tənzimlənməsinin beynəlxalq mexanizminə xas olan dərin bir ziddiyyəti nümayiş etdirir. Bu ziddiyyət bir tərəfdən qeyri-tarif maneələrinin aradan qaldırılması və ticarət məhdudiyyətlərinin tarifləşdirilməsi prinsipindən irəli gəlir. Digər ziddiyyət isə iqtisadi və ticari-siyasi mülahizələrə görə qeyri-tarif maneələrin ləğvinin mümkünsüzlüyünü təsdiq edən qeyri-tarif tənzimləmə zonasının faktiki genişlənməsi halı ilə rastlaşılmasıdır.

Qeyd edək ki, dünyada xarici ticarətin qeyri-tarif tənzimlənməsinin inkişaf perspektivləri bu cür tənzimləmə metodologiyasının unifikasiyası ilə birbaşa bağlıdır. Fikrimizcə, ÜTT çərçivəsində və dünyanın digər ölkələrində, o cümlədən respublikamızda qeyri-tarif tədbirlərin normativ tənzimlənməsinin davamlı təkmilləşdirilməsini təmin etmək, habelə dövlətlərarası səviyyədə razılaşdırılmış vahid tətbiqetmə qaydalarına dair razılığa gəlmək vacibdir.

Araşdırmamıza digər bir prizmadan yanaşaraq qeyd edək ki, xarici ticarət fəaliyyəti həyata keçirən istənilən müəssisə mal ixrac və ya idxal edərkən gömrük

sərhədini keçir və onlar bu zaman bu malları müəyyən bir gömrük proseduru altında yerləşdirmək məcburiyyətində qalır. Məhz bu baxımdan vurğulamaq olar ki, xarici ticarətin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsində xüsusi gömrük prosedurlarının özünəməxsus yeri və rolu vardır. Buna görə də xüsusi gömrük prosedurları xarici ticarətin, xüsusən ixracın stimullaşdırılmasının iqtisadi tədbiri kimi nəzərdən keçirilə bilər. Fikrimizcə, xüsusi gömrük prosedurlarından istifadə etməklə xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi üçün ixracın təşviqi normalarının müəyyən edilməsi və xammalın emalı ilə məşğul olan müəssisələrə tətbiq olunması məqsədəuyğundur. Bu nöqteyi-nəzərdən ilk əvvəl satış məqsədli xammal ixracını dayandırmaq üçün gömrük maneələri müəyyən edilməlidir. İxraca yüksək gömrük ödənişləri təsərrüfat subyektlərini emal sənayesi müəssisələrinin tikintisinə və modernləşdirilməsinə yönəldir. İxrac yalnız gömrük ərazisindən kənarda emal gömrük proseduru çərçivəsində xarici istehsal müəssisələrinin güclərindən istifadə və hazır məhsulların daxili bazara təkrar idxal edilməsi məqsədilə davam etdirilə bilər. Fikrimizcə, emal sənaye sahələrinin təşkili və formalaşdırılması üçün satın alınan mütərəqqi avadanlıqların ölkəyə idxalına görə idxal gömrük rüsumları azaldılmalıdır. Çünki xammal ixracatçıları üçün inkişaf etmiş ölkələrin elmi-texniki tərəqqisi və istehsal təcrübəsi nailiyyətlərindən istifadə edən istehsal müəssisələrinə investisiya qoymaq sərfəlidir.

Qeyd edək ki, bu normalar istehsal olunan malların strukturunda dəyişikliklərə, idxal olunan malların istehlakını azaltmaq məqsədilə, ilk növbədə, daxili bazar üçün istənilən sənaye sahəsində yarımfabrikatların istehsalına səbəb olacaqdır. Bu cür islahatlar müəssisələrin istehsal bazasının formalaşmasını nəzərdə tutur. Məhz bu baxımdan qeyd edə bilərik ki, xüsusi gömrük prosedurlarından istifadə etməklə xarici ticarət-iqtisadi əlaqələrin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətində atılan addımlar hesabına yerli istehsal müəssisələri xaricdə istehsal olunan yarımfabrikatları və son hazır məhsulu yaratmaq üçün mövcud resursların istifadəsini öz əlində cəmləşdirəcəkdir.

İstehsalın yenidən qurulması müddətində xammala yüksək ixrac rüsum dərəcələri saxlanılmalı və yerli istehsalın bütün mərhələlərinin stimullaşdırılması

məqsədilə gömrük ərazisindən kənarda emal gömrük proseduru altında yerləşdirilməsi qadağan olunmuş malların siyahısı müəyyənləşdirilməlidir.

Araşdırmaların nəticəsi olaraq qeyd edək ki, bu cür dəyişikliklər zamanı müvəqqəti və ya daimi istifadə üçün yeni bir gömrük prosedurunun yaradılması mümkün görünür. Fikrimizcə, yeni gömrük proseduru müasir modernləşdirilmiş istehsalın təşkili üçün maşın və avadanlıqların idxalına dair əsas müddəaları tənzimləməlidir. Yeni gömrük proseduru "Yerli istehsalın təşkili üçün sərbəst buraxılış" adlandırıla bilər və ad artıq qeyd olunan gömrük proseduru altında yerləşdirilən malların təyinat məqsədini əks etdirir. Nəticə etibarilə yerli istehsalın təşkili üçün sərbəst buraxılış – yerli malların istifadəsi və barəsində sərəncam verilməsinə məhdudiyyət qoyulmadan yerli müəssisələrin istehsal fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə xarici malların gömrük ərazisində yerləşdirildiyi və istifadə edildiyi gömrük proseduru kimi müəyyən edilə bilər.

Yerli istehsalın təşkili üçün sərbəst buraxılışın hüquqi normaları bu gömrük proseduru şərtləri altında yerləşdirilən mal növlərini tənzimləyir. Buna görə də respublikamızın istehsal sahələrinin inkişafına kömək edəcək zəruri malların siyahısı hazırlanmalıdır. Burada növbəti vacib tənzimləmə mövzusu malların qeyd olunan gömrük proseduru altında yerləşdirilməsi şərtləridir. Yerli istehsalın təşkili üçün malların gömrük proseduru altında yerləşdirilməsinin əsas şərti bu malların konkret bir müəssisə üçün idxal edilməsinin zəruriliyini təsdiqləyən sənədin təqdim edilməsidir.

Son olaraq qeyd edək ki, xarici ticarətin tənzimlənməsi zamanı bir və ya bir neçə xüsusi gömrük prosedurundan istifadə oluna bilər və bu gömrük prosedurlarının tətbiqi istehsalın fəaliyyət sahəsinin strukturunun dəyişməsinə təsir göstərir. Yəni xüsusi gömrük prosedurları iqtisadiyyata təsir tədbiri, iqtisadi tarazlığın təmin edilməsinin mümkün vasitəsi, eyni zamanda, xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi mexanizmlərindən biri kimi qiymətləndirilə bilər.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Aparılan araşdırmaların yekun nəticəsi olaraq qeyd edək ki, respublikanın beynəlxalq iqtisadi əməkdaşlıq sistemində iştirakını optimallaşdırmaq, dünya bazarında yerli istehsalçılarımızın mövqelərini möhkəmləndirmək, ölkəmizin xarici iqtisadi təhlükəsizliyini təmin etmək məqsədi xarici ticarət-iqtisadi əlaqələrin dövlət tənzimlənməsinin zəruriliyini şərtləndirir. Milli iqtisadiyyata təsir faktoru, iqtisadi tarazlığın təmin edilməsi meyarı və xarici ticarətin tənzimlənməsi vasitəsi kimi nəzərdən keçirilən xüsusi gömrük prosedurları əsasında təyinatından asılı olaraq malların gömrük sərhədindən keçirilməsi şərtlərinin, gömrük ərazisində və onlardan kənarda malların yerləşdirilməsi və onlardan istifadənin mümkünlüyü qaydalarının, həmçinin gömrük qanunvericiliyinə görə mallardan istifadə və onlar üzərində sərəncam vermək səlahiyyəti olan şəxslərin hüquq və vəzifələrinin müəyyən edildiyi qənaətinə gəlinmişdir.

Magistr dissertasiyasında Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin tənzimlənməsində və ölkənin iqtisadi maraqlarının qorunmasında gömrük prosedurlarından istifadənin müasir vəziyyəti, xüsusi gömrük prosedurlarının xarici iqtisadi fəaliyyətin fəallaşmasında rolu və tətbiqi səmərəliliyi qiymətləndirilərək xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətində gəlinmiş nəticələrə əsasən aşağıdakı yeni yollar təklif olunur:

1. Azərbaycanın xarici ticarət əlaqələrinin ixrac strukturunun mövcud vəziyyətinin təhlili nəticəsində fikrimizi belə ifadə edə bilərik ki, respublikanın xarici ticarət dövriyyəsinin ixrac strukturunda neft və neft məhsullarının payının azaldılması üçün mühüm üstünlüyə malik kənd təsərrüfatı potensialımız dəyərləndirilməli, neft maşınqayırması, kimya və neft-kimyanın elm tutumlu sahələrinə birbaşa və portfel investisiyanın cəlb edilməsi stimullaşdırılmalı, əlavə dəyəri yüksək olan rəqabət qabiliyyətli hazır məhsul ixracı həvəsləndirilməli, Mərkəzi Bank yerli istehsalçıların hüquqlarının müdafiə edilməsi və daxili bazarın qorunması üçün “manat-dollar” məzənnəsini tənzimləməlidir.

2. Azərbaycanın xarici ticarət əlaqələrinin idxal strukturunun mövcud vəziyyətinin təhlili nəticəsində tərəfimizdən belə bir qənaətə gəlinmişdir ki,

respublikamızda idxalın milli iqtisadi təhlükəsizliyə törədə biləcəyi təhdidləri aradan qaldırmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

✓ Yerli istehsalın həcminin artırılması məqsədilə yeni texnologiyaların cəlb edilməsi;

✓ İqtisadi inkişafa yönəldilən investisiyalardan məqsədli istifadə edilməsi;

✓ Azərbaycana idxalda xammal və yarım hazır məhsullara üstünlük verilməsi;

✓ İxracı təşviq edən idxala üstünlük verilməsi. Bu zaman xüsusi gömrük prosedurlarından istifadə etmək məqsədəuyğundur;

✓ İdxal edilən məhsulların ölkədəki istehsal sahələrində durğunluq yaratmasının qarşısını almaq üçün istehsalın keyfiyyətinin artırılması istiqamətində addımlar atmaq.

3. Tranzit xüsusi gömrük proseduru xarici iqtisadi fəaliyyətə aşağıdakı istiqamətlərdə təsir imkanlarına malikdir. Belə ki:

✓ beynəlxalq mal mübadiləsində aralıq təsir halqası rolunu oynayır;

✓ beynəlxalq daşımaları asanlaşdırır;

✓ malların təyinat gömrükxanalarına vaxtında çatdırılmasına xidmət edir;

✓ malların təyinat gömrükxanalarına vaxtında çatdırılmasına xidmət edir;

✓ bu rejim altında yerləşdirilən malların nomenklaturasına, miqdar və təyinatına heç bir xüsusi məhdudiyyət yoxdur.

✓ dövlət büdcəsinin gəlirlərinin formalaşmasına təsir etmə imkanı vardır.

4. Xarici malların gömrük ərazisində emalı proseduru yerli maşınqayırma müəssisələrinin istehsal və ixrac potensialının stimullaşdırılması və inkişafı üçün mühüm bir istiqamət və mexanizm ola bilər. Fikrimizcə, emal xüsusi gömrük prosedurunun təsərrüfat subyektləri tərəfindən geniş istifadəsi ixrac yönümlü məhsulların istehsalında idxal mənşəli komponentlərdən istifadə edilməsi məhsulların xarici bazarda rəqabət qabiliyyətini artıracaq, gömrük rüsumlarının ödənilməsi üzrə güzəştli şərtlər istehsal xərclərini azaldacaq və son nəticədə, müəssisələrin ixrac potensialının yüksəlməsinə səbəb olacaqdır.

5. Xarici ticarətin tənzimlənməsi zamanı azad ticarət və ya proteksionist

siyasətdən istifadə edərkən xərc-fayda analizi həyata keçirilsin.

6. Azərbaycan Respublikasında gömrük prosedurlarının tətbiqi səmərəliliyinin dəyərləndirilməsi ölkə iqtisadiyyatının xüsusiyyətlərinin, xarici ticarət təcrübəsinin və gömrük fəaliyyəti ilə sıx əlaqəli digər amillərin qiymətləndirilməsinə əsaslanmalıdır. Bu zaman xarici iqtisadi fəaliyyət iştirakçıları baxımından xüsusi gömrük prosedurlarının tətbiqi səmərəliliyinin alqoritmik hesablama metodlarından istifadə edilə bilər.

7. Xüsusi gömrük prosedurlarından istifadə etməklə xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi üçün ixracın təşviqi normaları müəyyənləşdirilsin və xammalın emalı ilə məşğul olan müəssisələrə tətbiq olunsun.

8. Araşdırmaların nəticəsi olaraq təklif edirik ki, müvəqqəti və ya daimi istifadə üçün yeni bir gömrük prosedurunun yaradılması mümkün görünür. Fikrimizcə, yeni gömrük proseduru müasir modernləşdirilmiş istehsalın təşkili üçün maşın və avadanlıqların idxalına dair əsas müddəaları tənzimləməlidir. Bu nöqteyi-nəzərdən yeni gömrük proseduru “Yerli istehsalın təşkili üçün sərbəst buraxılış” adlandırıla bilər və ad artıq qeyd olunan gömrük proseduru altında yerləşdirilən malların təyinat məqsədini əks etdirir. Nəticə etibarilə yerli istehsalın təşkili üçün sərbəst buraxılış – yerli malların istifadəsi və barəsində sərəncam verilməsinə məhdudiyyət qoyulmadan yerli müəssisələrin istehsal fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə xarici malların gömrük ərazisində yerləşdirildiyi və istifadə edildiyi gömrük proseduru kimi müəyyən edilə bilər.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. (2012). 39 səh.

2. "Azərbaycan Respublikasının Gömrük Məcəlləsi". (2020), Bakı. "Hüquq" Yayın Evi. 232 səh.

3. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (2013). № 07, maddə 776

4. C. Bulut, N. Kamalov (2003). "İnflyasiya, faiz, valyuta məzənnəsi arasındakı münasibət və Azərbaycan". Bakı, "Qafqaz Universiteti" nəşriyyatı, 225 səh.

5. Əliyev Ş.T. (2015). "Azərbaycanın xarici iqtisadi siyasəti", Sumqayıt, "Sumqayıt Dövlət Universiteti" nəşriyyatı. 185 səh.

6. Hacızadə E.M. (2018). "Dünya iqtisadiyyatı və Azərbaycan" *(dərslik*), Bakı, "Letterpress" nəşriyyat evi. 912 səh.

7. Heydərov K.F. (1998). "Gömrük işinin əsasları: gömrük işinin təşkili və texnologiyası", I cild, Bakı, "Azərnəşr". 496 səh.

8. Heydərov K.F., Həsənov C.Q. (1998). "Azərbaycan gömrük xidməti – yeni dünya təsərrüfat münasibətləri şəraitində", Bakı, "Azərnəşr". 224 səh.

9. Heydərov K.F., İbrahimov T.T. (1999). "Gömrük işi – iqtisadi suverenlik və təhlükəsizlik", Bakı, "Səda". 184 səh.

10. Heydərov K.F., İbrahimov T.T. (1999). "Gömrük sorğu kitabı", Bakı, "Səda". 120 səh.

11. Kruqman P.R., Obstfeld M., Melitz M.C. (2018). "Beynəlxalq iqtisadiyyat: nəzəriyyə və siyasət", İngilis dilindən tərcümə, Bakı, "Modulus" MMC. 831 səh.

12. Qəribov A.H., Əzizov A.Ə., Əhmədova S.E. (2017). "Beynəlxalq ticarət əməliyyatları" (dərs vəsaiti*)*, Bakı, "Bakı Biznes Universiteti" nəşriyyatı. 255 səh.

13. Quliyev E.A., Mehrəliyev İ.İ. (2011). "Müasir dövrdə xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin xüsusiyyətləri", (dərs vəsaiti), Bakı, "Kooperasiya" nəşriyyatı. 424 səh.

14. Quliyev R.Ə. (2015). "Azərbaycan dövlətçiliyi tarixində gömrük işi", Bakı, "Turxan" NPB. 448 səh.

15. Mahmudov C.İ. (2019) "İqtisadi qloballaşma prosesi və regional tarazlı inkişaf: qarşılıqlı əlaqə və asılılıq". "Qloballaşan iqtisadiyyat və mühasibat uçotu: mövcud vəziyyət, reallıqlar və problemlər" mövzusunda NDU-da keçirilən elmi-praktik konfransın materialları. Naxçıvan. səh. 28-32.
16. Mahmudov C.İ., Bağırsoylu H.Q. (2019). "Sosial-iqtisadi inkişafın proqnozlaşdırılması" (dərs vəsaiti), Naxçıvan, Əcəmi. 264 səh.
17. Menkyu N.Q. (2009). "Ekonomiksin prinsipləri" (dərslik), Rus dilindən tərcümə. Bakı, "İqtisad Universiteti" nəşriyyatı. 688 səh.
18. Məhərrəmov A.M. (2015). "Azərbaycan Respublikasında gömrük siyasətinin təkmilləşdirilməsinin əsas istiqamətləri", Ələsgərov A.K., "Azərbaycanın xarici iqtisadi əlaqələri: problemlər və perspektivlər", Bakı, "Avropa" nəşriyyatı, – s. 276-304.
19. Məhərrəmov A.M., Aslanov H.H. (2008). "Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi" (dərslik), Bakı, "Zərdabi LTD". 400 səh.
20. Məmmədov F.Ə., Musayev A.F., Sadiqov M.M., Kəlbiyev Y.Y., Rzayev Z.H. (2010). "Vergilər və vergitutma" (dərslik), Bakı, Çaşıoğlu. 512 səh.
21. Məmmədova Ş.S., Əmiraslanova N.T. (2016). "Müasir iqtisadi nəzəriyyələr" (dərs vəsaiti), Sumqayıt, "Sumqayıt Dövlət Universiteti" nəşriyyatı. 164 səh.
22. Natiq Sabiroğlu (2006). "Qloballaşma və xarici investisiyalar", Bakı, "Qanun" nəşriyyatı. 288 səh.
23. O.N. Aras, E.Süleymanov (2010). "Azərbaycan iqtisadiyyatı", Bakı, "Şərq-Qərb" mətbəəsi. 316 səh.
24. Rzayev P.Q., "Xarici ticarət əməliyyatlarının tarif tənzimlənməsi mexanizmi". Azərbaycanın vergi xəbərləri jurnalı. №7. (2011). səh. 45-62.
25. Səmədzadə Z.Ə. (2009). "Çin qlobal dünya iqtisadiyyatında", Bakı, "Elm və təhsil". 608 səh.
26. Smit A. (2010). "Xalqların sərvəti", Tərcümə, B.: "İqtisadiyyat Universiteti" nəşriyyatı. 827 səh.
27. Stiqlitz C. E. (2004). "Qloballaşma və onun doğurduğu narazılıqlar", Bakı, "Xəzri Ekspress". 336 səh.

28. Şəkərəliyev A.Ş. (2011). “Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi” (monoqrafiya), Bakı, “İqtisad Universiteti” nəşriyyatı. 542 səh.
29. Şəkərəliyev A.Ş., Şəkərəliyev Q.A. (2016). “Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər”, Bakı, “Turxan” NPB. 536 səh.
30. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.Ş. (2006). “Xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi”, Bakı, “Azərnəşr”. 228 səh.
31. Şəkərəliyev A.Ş., Yadulla qızı Y.M., Aslanova M.M. (2016). ”Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətində gömrük işin rolu” (metodiki vəsait), Bakı, “İqtisad Universiteti” Nəşriyyatı. 150 səh.

## İngilis dilində

1. A World Bank Policy Research Rreport. (1993). “The East Asian Miracle”. USA. Oxford University Press. 402 p.

## Rus dilində

1. Адыгезалов К., Абдуллаев Э. «Азербайджан: модель новой внешней политики и взгляда в будущее», Бакинский рабочий. (2015). №184. стр. 7-9.
2. Герасименко Ю. В. «Правовое регулирование разрешительных процедур, осуществляемых таможенными органами», Журнал «Право и экономика». (2010). №8. стр. 57-65.
3. Данильцев А.В. (2001). «Международная торговля: инструменты регулирования», М., Деловая литература. 295 стр.
4. Ифу Л., Фан Ц., Чжоу Л. (2001). «Китайское чудо: стратегия развития и экономическая реформа», Пер. с кит., М.: ИДВ РАН. 367 стр.
5. Китиева М.И., Долова А.М. “Методы государственного регулирования международной торговли”, “Colloquium-journal”. (2018). № 13(24). стр. 48-50.
6. Китиева М.И., Пугоева Л.Б. “Основные механизмы государственного регулирования внешней торговли”, “Colloquium-journal”. (2019). № 2(26). стр. 61- 63.

7. Корден М. (1999). «Теория и политика международной торговли», Пер. с англ., М.: Инфра-М.
8. Макрусев В. В., Дианова В. Ю. (2009). «Таможенный менеджмент», Учебное пособие, М., Изд-во «Российской таможенной академии». 278 стр.
9. Под ред. М.Н. (2000). Роль государства в экономике: мировой опыт. Осмовой. Материалы «круглого стола», М.: ТЕИС, 152 стр.
10. Пугель Т.А., Линдерт П.Х. (2003), «Международная экономика», Учебник, М., Дело, – 800 стр.

## İnternet resursları

1. http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=299
2. http://www.rusimpex.ru – Российский центр внешней торговли
3. https://xalqqazeti.com/az/news/28672
4. www.cbar.az
5. www.customs.gov.az
6. www.economics.com.az
7. www.economy.gov.az
8. www.edf.gov.az
9. www.freeeconomy.az
10. www.iqtisadiyyat.az
11. www.maliyye.gov.az
12. www.sai.gov.az
13. www.stat.gov.az
14. www.taxes.gov.az
15. Симония Н. Уроки китайских и южно-корейских реформ, 1999, URL: http://asiapacific. narod.ru/countries/china/china_s_korea_lessons2.htm

# ƏLAVƏLƏR

## Əlavə 1.

**Cədvəl 5: Xarici iqtisadi fəaliyyət iştirakçıları üçün xüsusi gömrük prosedurlarının tətbiqi səmərəliliyinin qiymətləndirilməsi metodikası**

| Göstəricilər | Hesablama alqoritmi | Göstəricinin hədəf dəyərinin əsaslandırılması |
|---|---|---|
| Gömrük rəsmiləşdirilməsi zamanı malların sərbəst buraxılması üçün gərəkli olan gömrük prosedurlarının həyata keçirlmə vaxtı, saat | Bir gömrük bəyannaməsinə görə göstəricinin orta dəyəri aşağıdakı düsturla müəyyən edilir: $N = \frac{\sum T}{V} 100$, Burada, T - gömrük rəsmiləşdirilməsi zamanı malların sərbəst buraxılması üçün tələb olunan gömrük prosedurlarının vaxtı; V – göstəricinin hesablanması üçün seçilmiş hesabat dövründə rəsmiləşdirilmiş gömrük bəyannamələrinin ümumi sayı. | Elektron bəyannamənin, risklərin idarə edilməsi sisteminin və gömrük nəzarətinin müasir texniki vasitələrinin tətbiqi üzrə işləri gücləndirməklə gömrük prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi hesabına qiymətləndirilən göstəricinin dəyərinin 22 saatdan çox olmayan bir səviyyəyə endirilməsi planlaşdırılır. |
| Daxili istehlak və ixrac üçün malların sərbəst buraxılışı gömrük prosedurunda rəsmiləşdirilmiş gömrük bəyannamələrinin ümumi sayında sərbəst buraxılma müddəti əsassız olaraq bir gündən artıq olan gömrük bəyannamələrinin payı, % | Göstəricinin dəyəri aşağıdakı düsturla hesablanır: $B = \frac{S_ə}{S_{ümumi}} 100$, Burada, $S_ə$ - daxili istehlak və ixrac üçün malların sərbəst buraxılış prosedurunda rəsmiləşdirilən, sərbəst buraxılma müddəti əsassız olaraq bir gündən çox olan gömrük bəyannamələrinin sayı; $S_{ümumi}$ - daxili istehlak və ixrac üçün malların sərbəst buraxılış prosedurunda rəsmiləşdirilən ümumi gömrük bəyannamələrinin sayı. | Gömrük orqanlarının işinə elektron bəyannamələrin və risklərin idarə edilməsi sisteminin tam funksional modelinin tətbiqi hesabına göstəricinin dəyərinin 0,009% -dən çox olmayan bir səviyyəyə endirilməsi planlaşdırılır. |

**Mənbə:** Mahmudov C.İ., Bağırsoylu H.Q., 2019.

## Cədvəllərin siyahısı

Cədvəl 1: Azərbaycan Respublikasının 1991-2019-cu illər ərzindəki ixrac dinamikası........................................................................................................33
Cədvəl 2: 2016-2019-cu illərdə Azərbaycan Respublikasının ixrac əməliyyatlarının həcmi...........................................................................................................37
Cədvəl 3: Azərbaycan Respublikasının 1991-2019-cu illər ərzindəki idxal dinamikası........................................................................................................41
Cədvəl 4: 2016-2019-cu illərdə Azərbaycan Respublikasının idxal əməliyyatlarının həcmi...........................................................................................................45
Cədvəl 5: Xarici iqtisadi fəaliyyət iştirakçıları üçün xüsusi gömrük prosedurlarının tətbiqi səmərəliliyinin qiymətləndirilməsi metodikası...........................................86

## Şəkillərin siyahısı

Şəkil 1: 2019-cu ildə Azərbaycan Respublikasında ixrac əməliyyatlarında əsas mallar...........................................................................................................35
Şəkil 2: 2019-cu ildə Azərbaycan Respublikasının ixrac əməliyyatlarında əsas ölkələr...........................................................................................................39
Şəkil 3: 2019-cu ildə Azərbaycan Respublikasında idxal əməliyyatlarında əsas mallar...........................................................................................................43
Şəkil 4: 2019-cu ildə Azərbaycan Respublikasının idxal əməliyyatlarında əsas ölkələr...........................................................................................................47